Musa Quliyev

# Naxçıvan xanlığının Qafqazda hərbi-siyasi mövqeyi və əlaqələri

Naxçıvan - 2013

AMEA Naxçivan Bolməsinin 31 may 2012-ci il tarixli
8/12 №-li qərarı (protokol №8) ilə çapa təqdim olunur.

Elmi məsləhətçi: **İsa Həbibbəyli**
*AMEA-nın həqiqi üzvi*

Elmi redaktor və
Ön sozün müəllifi: **İsmayıl Hacıyev**
*AMEA-nın həqiqi üzvi*

Rəyçilər: **Tofiq Mustafazadə**
*tarix elmləri doktoru,*
*professor, Dövlət Mükafatı laureatı*

**Camal Mustafayev**
*tarix elmləri doktoru, professor*

**İbrahim Kazımbəyli**
*Tarix üzrə fəlsəfə doktoru,*
*dosent*

*Monoqrafiyada XVIII-XIX əsrlər Azərbaycan tarixində orijinal rol oynamış bir dövlətin - NAXÇIVAN xanlığının tarixi yeni arxiv materialları və tədqiqat əsərlərinin müqayisəsi əsasında ilk dəfə kompleks şəkildə tədqiq olunur.*

*Əsərdən geniş oxucu kütləsi, xüsusilə, magistrant, aspirant, dissertant və dövrün tarixi ilə məşğul olan tədqiqatçılar istifadə edə bilərlər*

***Musa Quliyev, Naxçıvan xanlığının Qafqazda hərbi-siyasi mövqeyi və əlaqələri.*** *Naxçıvan-2013,* ***“****Əcəmi” Nəşriyyat-Poliqrafiya Birliyi, 184 səh.*

4700000000
053-2013

© “Əcəmi” 2013.

## MÜNDƏRİCAT


"Xan Sarayı" Dövlət Tarix-Memarlıq Muzeyinin yaradılması haqqında Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin Sərəncamı........................................... 5

Ön söz………………………………………...………... 7

GİRİŞ …………………………………………...……….... 12

**I FƏSİL. NAXÇIVAN XANLIĞININ SİYASİ VƏZİYYƏTİ VƏ ƏLAQƏLƏRİ**

1.1. XVIII əsrin II yarısında Qafqazda siyasi vəziyyət və Naxçıvan xanlığı …........................................................... 15

1.2. Naxçıvan xanlığının siyasi-inzibati vahidləri və idarəçilik sistemi ……......................................................... 24

1.3. Naxçıvan xanlığında ordu quruculuğu............................ 38

1.4. Naxçıvan xanlığının qonşu xanlıqlarla siyasi əlaqələri..... 46

**II FƏSİL. NAXÇIVAN XANLIĞININ QAFQAZ REGİONUNDA HƏRBİ MÖVQEYİ**

2.1. Kəngərli xanları və Naxçıvan ……………………..... 75

2.2. Naxçıvan xanlığının Kartli-Kaxetiya çarlığı və qonşu dövlətlərlə hərbi-siyasi münasibətləri…....….................. 95

2.3. Çar Rusiyasının işğalçılıq siyasəti və Naxçıvan xanlığı ………………….................................... 116

Nəticə ……..……………………………………………. 150

İstifadə edilmiş ədəbiyyat ..........................……………......157

Əlavələr …......……………………………......……….170

*Məsələn, mən daha çox istərdim ki, Naxçıvan xanlığının tarixi çox gözəl yazılsın. Naxçıvan xanlığının çox böyük tarixi var. Bu xanlıq nə vaxt yaranıbdır, fəaliyyəti nədən ibarət olubdur? Axı, Naxçıvanı idarə ediblər. İrəvan xanlığı var. Naxçıvan xanlığı ilə İrəvan xanlığı bir-biri ilə çox bağlı idi. İndi ermənilər deyirlər ki, yox orada ermənilər olubdur. Amma həqiqətən İrəvan xanlığıdır. Naxçıvan xanlığını siz dərindən öyrənəndə, mütləq İrəvan xanlığına gedib çıxacaqsınız. İrəvan xanlığı haqqında Ermənistanda tapmadığınız materialları Rusiyanın arxivlərində, Sankt-Peterburqda, rus imperiyasının arxivlərində tapacaqsınız və görəcəksiniz ki, dünyada nələr var.*

**Heydər ƏLİYEV,**
*Azərbaycan xalqının*
*ümummilli lideri*

## “XAN SARAYI” DÖVLƏT TARİX-MEMARLIQ MUZEYİNİN YARADILMASI HAQQINDA

## NAXÇIVAN MUXTAR RESPUBLİKASI ALİ MƏCLİSİ SƏDRİNİN

## SƏRƏNCAMI

Azərbaycan ərazisində 1747-ci ildən yaranmış 18 feodal dövlətdən biri olan Naxçıvan xanlığı milli dövlətçilik tariximizdə mühüm mərhələ təşkil etmiş, bölgənin inkişafında, müdafiə qabiliyyətinin gücləndirilməsində, sərhədlərin qorunub saxlanmasında və inzibati idarəçiliyin formalaşmasında vacib tarixi missiyanı yerinə yetirmişdir. İnzibati ərazi baxımından 2 dairədən və 9 mahaldan ibarət olan Naxçıvan xanlığı Zəngəzur dağlarından başlayaraq Araz çayı vadisinə qədər 9429 kvadratkilometr ərazini əhatə edirdi.

Öz ərazisi, qoşunu, dövlət rəmzləri – bayrağı və gerbi olan Naxçıvan xanlığında bitkin idarəçilik mexanizmləri formalaşmış, iqtisadiyyatın əsas sahələri inkişaf etmiş, geniş abadlıq-quruculuq işləri aparılmışdır. Bu xanlıqda Heydərqulu xan, Nəzərəli xan, Kərim xan, Ehsan xan kimi nüfuzlu dövlət və hərb xadimləri yetişmiş, 30 il Naxçıvan xanlığının rəhbəri olan Kalbalı xan mahir dövlət xadimi və diplomat kimi tarixə düşmüşdür.

80 ildən artıq bir dövr ərzində fəaliyyət göstərən Naxçıvan xanlığı milli dövlətçilik tariximizdə silinməz izlər qoymuşdur. Naxçıvan xanlığının siyasi tariximizdə oynadığı mühüm rolu yüksək qiymətləndirən ümummilli lider Heydər Əliyev demişdir: **“Azərbaycanın xanlıqlara bölünən dövründə... Naxçıvan xanlığı yaranıbdır. Naxçıvan xanlığı da Atabəylər dövlətçiliyinin davamı kimi özünü göstəribdir. Naxçıvan xanlığı, Azərbaycanın başqa bölgələrinin xanlıqları Azərbaycan dövlətçiliyini təmsil ediblər, Azərbaycanı qoruyub yaşadıblar”.**

Azərbaycanın milli dövlətçilik tarixində Naxçıvan xanlığının tutduğu xüsusi mövqeyini nəzərə alaraq **qərara alıram:**

1. "Xan Sarayı" Dövlət Tarix-Memarlıq Muzeyi yaradılsın.

2. Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti Mədəniyyət və Turizm Nazirliyi ilə birlikdə bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

3. Bu Sərəncam imzalandığı gündən qüvvəyə minir.

**Naxçıvan Muxtar Respublikası**
**Ali Məclisinin Sədri** **VASİF TALIBOV**

*Naxçıvan şəhəri, 23 oktyabr 2010-cu il*
*№ 249-03/S*

## NAXÇIVAN XANLIĞININ ŞANLI TARİXİNƏ LAYİQLİ TÖHFƏ

### Musa Quliyevin "Naxçıvan xanlığının Qafqazda hərbi-siyasi mövqeyi və əlaqələri" monoqrafiyasına

### *ÖN SÖZ*

Azərbaycan Respublikası dövlət müstəqilliyini bərpa etdikdən sonra tariximizin bir sıra problemlərinin daha obyektiv, əhatəli öyrənilməsinə şərait yaranmış, müxtəlif arxivlərdəki məxfi qrifi ilə saxlanılan materialların dövriyyəyə cəlb edilməsi üçün tədqiqatçılara imkan vermişdir.

Xanlıqlar dövrünün, həmin dövrün müstəqil və yarımmüstəqil feodal dövlətlərinin tarixinin öyrənilməsi çox əhəmiyyətlidir. Çünki bu dövr Azərbaycan tarixinin dramatik hadisələrlə dolu olan ən çətin, ən mürəkkəb dövrü olmaqla yanaşı, həm də yerli dövlətçilik ənənələrimizin dirçəlişi dövrüdür. Xanlıqlar – Azərbaycan dövlətləri öz müstəqilliklərini qorumaq üçün çətin mübarizə aparmışlar. Azərbaycan xanları arasında vahid Azərbaycan dövləti yaratmaq uğrunda mübarizə aparılsa da bu mümkün olmamışdır. Bir sıra xanların ümumi mənafeyi nəzərə almaması üzündən Azərbaycan o zaman vahid dövlət halında birləşə bilmədi, bundan isə Rusiya imperiyası öz xeyrinə istifadə etdi. Azərbaycanın şimal xanlıqları Rusiya imperiyası tərəfindən işğal edildi. Faciələrimiz təkcə bununla qurtarmadı. Azərbaycan xanlıqlarının işğal edilməsində Rusiya imperiyasına bütün vasitələrlə kömək edən məkrli ermənilərin bunun qarşılığında müəyyən niyyətləri vardı. Onlar Cənubi Qafqazda erməni dövlətini yaratmaq üçün hər cür vasitələrə əl atır, dəridən-qabıqdan çıxırdılar. Çar Rusiyası gələcəkdə erməni dövlətinin yaradılmasına yönəldilmiş "erməni vilayəti"ni yaratdı. Lakin bu hələlik erməni dövləti

deyildi. Çar Rusiyası ermәnilәri kütlәvi surәtdә Azәrbaycan torpaqlarında yerlәşdirdi, bolşevik Rusiyası isә ermәnilәrin arzularını reallaşdırdı, Ermәnistan Respublikasının yaratdı.

Müstәqillik illәrindә Azәrbaycan tarixşünaslığında әn çox müraciәt olunan problemlәrdәn biri Azәrbaycan xanlıqlarıdır. Bu problemә aid onlarla kitab vә monoqrafiya yazılmış, dissertasiyalar müdafiә edilmişdir. Naxçıvan vә İrәvan xanlıqlarının tarixi haqqında keçәn әsrin 90-cı illәrindә ilk monoqrafiyalar yazılsa da, hәmin xanlıqların hәrtәrәfli araşdırılmasına ciddi ehtiyac olmuşdur. Tәsadüfi deyildir ki, Azәrbaycan xalqının ümummilli lideri Heydәr Әliyev 2002-ci ildә çıxışlarının birindә demişdir: "... mәn daha çox istәrdim ki, Naxçıvan xanlığının tarixi çox gözәl yazılsın. Naxçıvan xanlığının çox böyük tarixi var. Bu xanlıq nә vaxt yaranıbdır, fәaliyyәti nәdәn ibarәt olubdur? Axı, Naxçıvanı idarә ediblәr. İrәvan xanlığı var. Naxçıvan xanlığı ilә İrәvan xanlığı bir-biri ilә çox bağlı idi... Naxçıvan xanlığını siz dәrindәn öyrәnәndә, mütlәq İrәvan xanlığına gedib çıxacaqsınız...".

Bu baxımdan son illәrdә aparılan tәdqiqatlar içәrisindә istedadlı tәdqiqatçı Musa Quliyevin "Naxçıvan xanlığının Qafqazda hәrbi-siyasi mövqeyi vә әlaqәlәri" әsәri xüsusilә diqqәti cәlb edir.

Musa Quliyevin oxucuların diqqәtinә tәqdim olunan bu monoqrafiyasında Naxçıvan xanlığının siyasi vәziyyәti vә әlaqәlәri fonunda XVIII әsrin II yarısında Qafqazda siyasi vәziyyәt tәhlil edilir vә Naxçıvan xanlığının bu proseslәrdә iştirakı, xanlığın siyasi-inzibati vahidlәri vә idarәçilik sistemi, ordu quruculuğu vә xanlığın qonşu xanlıqlarla siyasi әlaqәlәri tәdqiqata cәlb edilir.

Naxçıvan xanlığında Kәngәrli xanlarının oynadığı rol faktik materiallara vә geniş arxiv sәnәdlәrinә әsaslanaraq tәhlil edilir. Müәllif haqlı olaraq bәzi tәdqiqatçıların yanlış olaraq Naxçıvan xanlarının Kәngәrli olmaması fikrinә münasibәtinin bildirir vә

buna obyektiv cavab verir. Monoqrafiyada Naxçıvan xanlığının Kartli-Kaxetiya çarlığı və qonşu dövlətlərlə hərbi-siyasi münasibətləri araşdırılır və məsələnin obyektiv mənzərəsi yaradılır. Əsərdə Naxçıvan xanlığının meydana gəlməsindən çar Rusiyası tərəfindən ləğv edilməsinədək bütün dövrü ətraflı şəkildə öz əksini tapır.

Musa Quliyev rəsmi sənədlərə üstünlük verən, arxiv materiallarına istinad edən, bir sıra xarici ölkələrin kitabxanalarında, arxivlərində, muzeylərində illərlə işləmiş tarixçi alimlərimizdəndir. Bu əsərin yazılmasında da müəllifin aşkar etdiyi zəngin faktlar, apardığı ümumiləşdirmələr, çıxardığı əsas nəticələr, başlıca elmi uğurlar tarix elmimiz üçün çox əhəmiyyətlidir.

Hər şeydən əvvəl, müəllif Rusiyanın Cənubi Qafqaza sahib olmaq üçün İranla apardığı müharibələrə toxunur, Şimali Qafqazdan türk qoşunlarının sıxışdırılmasının Rusiyanın cənuba doğru hərəkətinin xeyli dərəcədə asanlaşdırdığını göstərir. Tədqiqatçı Rusiya tərəfindən Cənubi Qafqazın işğal etməsi ilə əlaqədar gördüyü hazırlıq işlərini faktlarla izah edir. Qafqazda siyasi vəziyyətin mürəkkəbliyi təhlil edilir və bu hadisələri diqqətlə izləyən Naxçıvan xanlığının tutduğu mövqe, yaratdığı əlaqələr əsaslandırılır. Cənubi Qafqazda baş verən hadisələrdən Naxçıvan xanlarının çıxış yolları axtarmaları, burada I Kalbalı xanın ağıllı siyasəti genişliyi ilə təqdim olunur. Müəllifin fikirləri, başqa tədqiqatçıların araşdırmalarına hörmətlə yanaşması ilə bərabər, onlarla polemikaya girməsi, bəzi tarixi fakt və hadisələr haqqında irəli sürdüyü mülahizələr inandırıcıdır və müəllifin qənaətləri oxucunu razı salır. Naxçıvan xanlığının tarixinin dövrləşdirilməsi, onun ərazisinin müəyyənləşdirilməsi, siyasi-inzibati quruluşu və idarəçilik sistemi haqqındakı mülahizələri onun tədqiqatçı kimi yüksək keyfiyyətlərindən xəbər verir. Çox yaxşı haldır ki, Naxçıvan xanlığındakı idarə sistemini Azərbaycan xanlıqlarındakı idarə sistemi ilə müqayisə edir oxşar və fərqli cəhətlərini göstərməklə yekun nəticələr çıxarır.

Əsərdə xanlıqda aparılan ordu quruculuğuna xüsusi əhəmiyyət verilmiş və belə bir fikir irəli sürülmüşdür ki, hələ xanlıq mövcud olana qədər Naxçıvan hərbçiləri "Naxçıvan süvariləri" adı altında məşhur idi. Mənbələrdə və tədqiqat əsərlərində Naxçıvan xanlığının hərbi potensialı haqqında müxtəlif fikirlər olsa da, müəllif buna da aydınlıq gətirir.

Monoqrafiya müəllifi Naxçıvan xanlığının qonşu xanlıqlar və dövlətlərlə yaratdığı əlaqələrə geniş yer vermişdir. Tarixi mənbələrə istinad edən tədqiqatçı qeyd edir ki, hələ Heydərqulu Kəngərlinin vaxtından Naxçıvan xanlığının Qarabağ, İrəvan, Xoy, Maku, Qaradağ və Gəncə xanlığı ilə dostluq münasibətləri olmuşdur. Tədqiqatçı M.Quliyev xanlıqlar və dövlətlər arasında yaranan əlaqələrdə məktublaşmanın əhəmiyyətini önə çəkir və çox maraqlıdır ki, bu məktublaşmalar haqqında K.Smirnov ilk dəfə məlumat versə də, onlar haqqında ilk təhlilləri və araşdırmaları müəllif aparmışdır. Tədqiqatçı diplomatiya tarixində I Kalbalı xanın və I Ehsan xanın xüsusi xidmətlərinə diqqət yetirir və bununla əlaqədar xeyli nümunələr gətirir. Xüsusilə, I Kalbalı xanın Sisianovla, Yermolovla, Zubovla, Fətəli şahla və başqaları ilə məktublaşması və danışıqlar aparması onun diplomatik bacarığından xəbər verir.

Naxçıvan xanlığının Qafqaz regionunda hərbi mövqeyinə aydınlıq gətirən müəllif ilk növbədə Naxçıvan xanlığının idarə edilməsində Kəngərli tayfasının nümayəndələrinin – Heydərqulu xan, Hacı Məhəmməd xan, Rəhim xan, Şükrullah xan, Əliqulu xan, Abbasqulu xan, Cəfərqulu xan, I Kalbalı xan, Nəzərəli xan, I Ehsan xanın rol və fəaliyyətlərinə geniş yer vermişdir. Xüsusilə, Naxçıvan xanlığının Kartli-Kaxetiya çarlığı və qonşu dövlətlərlə (Rusiya, Türkiyə və İranla) hərbi-siyasi münasibətləri onun Qafqazdakı hərbi mövqeyinə aydınlıq gətirir. Müəllifin qeydlərindən aydın olur ki, Qarabağ xanlığının vasitəçiliyi ilə Naxçıvanla Gürcüstanın siyasi, iqtisadi və hərbi əlaqələri yaranmışdır. II Teymurazın vaxtında bu əlaqələr yaranmış, II İraklinin hakimiyyəti

dövründə isə genişlənmişdir. Tədqiqatlardan aydın olur ki, sonrakı mərhələlərdə Kartli-Kaxetiya çarlığı dolayı yolla Azərbaycan xanlıqlarının daxili işlərinə qarışdığından münasibətlər kəskinləşmişdir. II İraklinin ikiüzlü siyasəti, Rusiya imperiyası tərəfindən Azərbaycanın işğalı və burada Kartli-Kaxetiya çarlığının maraqları faktlarla təqdim edilir. Əsərdə çar Rusiyasının işğalçılıq siyasəti və Naxçıvan xanlığının işğal edilməsi və bunun nəticələri yeni sənəd və materiallar əsasında izah edilmişdir.

Musa Quliyevin "Naxçıvan xanlığının Qafqazda hərbi-siyasi mövqeyi və əlaqələri" monoqrafiyası çox geniş mənbə bazasına malik olmaqla mükəmməl işlənilmiş və orjinal əsər təsiri bağışlayır. Müəllif uzun illərdir ki, Naxçıvan xanlığı, Kəngərlilərlə bağlı araşdırmalar aparır, əldə etdiyi sənəd və materialları burada reallaşdırmış və çox orjinal və oxunaqlı bir əsəri oxucuların mühakiməsinə vermişdir. Qətiyyətlə inanırıq ki, tədqiqatçı Musa Quliyevin bu monoqrafiyası fakt zənginliyi, geniş sənəd və materialları əhatə etməsi, maraqlı müqayisələr və təhlillərlə diqqəti cəlb etdiyindən, tarixçilərin və geniş oxucu kütləsinin ciddi marağına səbəb olacaqdır

**İsmayıl Hacıyev**
***AMEA Naxçıvan Bölməsinin***
***sədri, akademik***

# GİRİŞ

1747-ci ildə Nadir şahın imperiyası dağıldıqdan sonra ölkəmizdə baş verən sosial-siyasi, hərbi münasibətlərin hərtərəfli araşdırılması Azərbaycan tarixşünaslığının qarşısında duran ciddi problemlərdən biridir.

Tarixin müəyyən mərhələlərində bu problem bir sıra araşdırıcılar tərəfindən tədqiqata cəlb edilsə də, elə məsələlər var ki, dövrün sosial-siyasi münasibətlərindən asılı olaraq dərindən araşdırılmamışdır.

XVIII əsrin ortalarından başlayaraq Qafqaz Rusiya, Türkiyə və İran arasında münaqişə, müharibə meydanına çevrilmişdi. Nadir şahın qurduğu hakimiyyət dağıldıqdan sonra ziddiyyətlər daha da dərinləşdi.

1747-ci ildən sonra Azərbaycan ərazisində yaranan feodal dövlətlərdən biri də Naxçıvan xanlığıdır. Digər xanlıqlar kimi, onun da tarixinin dərindən və hərtərəfli araşdırılması çox zəruridir. Azərbaycan ərazisində yaranmış xanlıqların yuxarıda adları çəkilən dövlətlərlə münasibətləri vacib məsələ olaraq ortalığa çıxdı.

Naxçıvan və İrəvan xanlıqları isə bu aramsız müharibələrin hamısının dəhşətlərini yaşamış, amma həmişə müstəqil, həmçinin azad yaşamaları üçün ölüm-dirim savaşları aparmışlar. Ona görə də Vətən tarixinin ən mühüm vəzifələrindən biri 1747-ci ildən müstəqil xanlıq kimi tanınan Naxçıvan xanlığının qazandığı böyük dövlətçilik təcrübəsinə malik olduğunu araşdırmaqdan ibarət olub. Bu təcrübənin Atabəylər hakimiyyəti illərində «intibah dövrünü» yaşadığını, istər indiki, istərsə də ötüb-keçən yüzilliklərin tarixi sənədləri Naxçıvan tarixinin həmişə diqqət mərkəzində olduğunu sübuta yetirir. Azərbaycan, rus, qərb və şərq tarixçilərinin bir çox nəsilləri bu haqda xeyli tədqiqat əsərləri, monoqrafiyalar yazmışlar.

Naxçıvan xanlığının qonşu dövlətlərlə yaratdığı hərbi, sosial-siyasi və digər diplomatik münasibətlərinin əhəmiyyətini nəzərə alan ümummilli lider Heydər Əliyev 12 avqust 2002-ci ildə Azərbaycan Milli Elmlər Akademiyasının Naxçıvan Bölməsinin yaradılmasına həsr olunmuş müşavirədə demişdir: «Məsələn, mən daha çox istərdim ki, Naxçıvan xanlığının tarixi çox gözəl yazılsın. Naxçıvan xanlığının çox böyük tarixi var. Bu xanlıq nə vaxt yaranıbdır, fəaliyyəti nədən ibarət olubdur? Axı, Naxçıvanı idarə ediblər. İrəvan xanlığı var. Naxçıvan xanlığı ilə İrəvan xanlığı bir-biri ilə çox bağlı idi. İndi ermənilər deyirlər ki, yox orada ermənilər olubdur. Amma həqiqətən İrəvan xanlığıdır. Naxçıvan xanlığını siz dərindən öyrənəndə, mütləq İrəvan xanlığına gedib çıxacaqsınız. İrəvan xanlığı haqqında Ermənistanda tapmadığınız materialları Rusiyanın arxivlərində, Sankt-Peterburqda, rus imperiyasının arxivlərində tapacaqsınız və görəcəksiniz ki, dünyada nələr var» (1, s. 27-28).

Azərbaycan tarixini vərəqləsək görərik ki, erməni etnosu Azərbaycan torpağında XIX əsrin birinci yarısında peyda olub. İki Rusiya-İran və Rusiya-Türkiyə (osmanlı) müharibələrinin, həmçinin 1828-ci ildə İran və Rusiya arasında bağlanan Türkmənçay müqaviləsinin, eləcə də 1829-cu ildə Rusiya ilə Osmanlı Türkiyəsi arasında bağlanan Adrianopol (Ədirnə) sülh müqaviləsinin şərtləri əsasında ermənilər İrandan, Türkiyədən Azərbaycan, o cümlədən Naxçıvan ərazilərinə köçürülmüşlər. Bu ərazilərə gələn ermənilər Azərbaycana qarşı torpaq iddiaları irəli sürməyə, «böyük Ermənistan» yaratmaq xülyasına düşmüşlər. Ona görə də ermənilərin Naxçıvan iddialarına da cavab verilməlidir.

Heydər Əliyev siyasi kursunu uğurla davam etdirən Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 2004-cü il fevralın 9-da «Naxçıvan Muxtar Respublikasının 80 illik yubileyinin keçirilməsi haqqında» imzaladığı sərəncamda bütövlükdə Naxçıvan tarixinin daha dərin, obyektiv olaraq araşdırılmasının zəruri olduğunu bildirmişdir: «Ermənistanın

apardığı təcavüzkarlıq siyasəti nəticəsində Azərbaycandan qismən təcrid olunmuş vəziyyətdə, blokada şəraitində yaşamaq məcburiyyətində qalan, tez-tez bədnam qonşuların ərazi iddiaları obyektinə çevrilən Naxçıvanın tarixinin hələ də tədqiq edilməyə ehtiyacı olan səhifələri açılmalı, Azərbaycanın qədim və zəngin tarixə, mədəniyyətə və çoxəsrlik dövlətçilik ənənələrinə malik olan bu diyarının tam dolğun, obyektiv tarixi xalqımıza, habelə dünya ictimaiyyətinə olduğu kimi çatdırılmalı, erməni siyasətçilərinin tarixi saxtalaşdırmaq cəhdlərinə tutarlı cavab verilməlidir» (43).

Təbii ki, Naxçıvan xanlığının apardığı daxili və xarici siyasətinin hərtərəfli araşdırılması dövlətçilik ənənələrinin öyrənilməsində xüsusi əhəmiyyətə malikdir. Problemin ciddiliyini nəzərə alan Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov Azərbaycan Respublikasının diplomatik xidmətinin 90 illiyi münasibəti ilə keçirilən konfransda Naxçıvan xanlığının apardığı xarici siyasət haqqında demişdir: «Naxçıvan xanlarından Heydərqulu xan, Abbasqulu xan və Cəfərqulu xan xanlığın xarici siyasətinə bilavasitə rəhbərlik etmiş, birinci Kalbalı xan isə on səkkizinci əsrin nüfuzlu siyasi lideri və diplomatı kimi məşhurlaşmışdır» (44).

Naxçıvan xanlığının tarixi-mədəni əlaqələrinin araşdırılması, ona aid sənəd və materialların toplanması, dövlətçilik irsinin qorunub saxlanılması və inkişafı sahəsində bir sıra tarixi əhəmiyyətli işlər görülmüşdür. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbovun 2010-cu il 23 oktyabr tarixli sərəncamı ilə «Xan Sarayı» Dövlət Tarix-Memarlıq Muzeyinin yaradılması (45) milli dövlətçilik tariximizə olan yüksək qayğının bariz nümunəsidir.

Təqdim olunan dissertasiyanın aktuallığı Naxçıvan xanlığının Qafqazda hərbi-siyasi əlaqələrinin və mövqeyinin ilk dəfə sistemli öyrənilməsindən ibarətdir.

# I FƏSİL

## NAXÇIVAN XANLIĞININ SİYASİ VƏZİYYƏTİ VƏ ƏLAQƏLƏRİ

### 1. 1. XVIII əsrin II yarısında Qafqazda siyasi vəziyyət və Naxçıvan xanlığı.

XVIII əsrin II yarısında Qafqazda baş verən proseslər Rusiyanın Cənubi Qafqazı işğal etməsi üçün zəmin yaratdı. Nədənsə Azərbaycan tarixşünaslığında ancaq Cənubi Qafqazda baş verən siyasi hadisələr araşdırılır. Araşdırmalar göstərir ki, Azərbaycan xanlıqları yaradıldığı illərdə Rusiyanın sərhəd xətti Kuban və Malka çaylarından şimalda idi. Hərbi dillə desək, Rusiyanın Qafqaz sərhəd xətti- kordon Kuban, Malka və Terek çayları sahilində, ön məntəqələr isə rus qoşunları tərəfindən tutulmuş Andi dağlarının şimal üzündə qərar tutmuşdu. Qafqaz sərhəd xəttində əsasən buraya köçürülmüş ruslar xidmət edirdilər. Bu sərhəd xətti XIX yüzilliyin 40-cı illərinin sonlarında və 50-ci illərin əvvəllərində sürətlə inkişaf etməyə başladı. Həmin xəttin məqsədləri aşağıdakılardan ibarət idi: 1) Cənubi Qafqazda (ilkin rus mənbələrində Qafqaz arxasında- M.Q.) məlumatların toplanması; 2) Cənub quberniyaları dağlıların hücumlarından qorumaq; İstila edilmiş ərazinin (diyarın) sakinlərinin həmişə itaətdə olmasını təmin etmək.

Qafqaz xəttinə nəzarət xüsusi rəis tərəfindən yerinə yetirilirdi. Kordon (sərhəd xətti) özü bir neçə hissələrə ayrılırdı: Qaradəniz kordon xətti, sağ cinah, mərkəz, sol cinah və Vladiqafqaz dairəsi (97, s. 813). Elə bu Qafqaz xəttindən Rusiya iki istiqamətdə- Xəzər dənizi sahili və Vladiqafqaz-Daryal yolu ilə Cənubi Qafqazı işğal etməyi qarşısına məqsəd qoymuşdu. Onu da deyək ki, ümumən Qafqazın özündə Azərbaycanın hərbi-siyasi mövqeyi

əsas yer tuturdu. Baxmayaraq ki, Azərbaycan ərazisində xırda feodal dövlətləri, həmçinin monarxiya şəklində xanlıqlar da yaranmışdı. Həm də bu xanlıqlar öz siyasi müstəqilliklərini qorumaq uğrunda artıq bacara bildikləri tədbirləri görürdülər. Qafqaz uğrunda üç böyük dövlət Osmanlı Türkiyəsi, Rusiya və Iran çox gərgin mübarizə aparırdılar. Elə Rusiyanın Qafqazın şimal hissələrinin işğalına Türkiyənin müəyyən qədər geri çəkilməyi əlverişli şərait yaratmışdı. Qafqaz uğrunda Rusiya-Türkiyə və Rusiya-İran münasibətlərindən yan keçməklə siyasi hadisələri ətraflı şəkildə şərh etmək çətindir. Çünki Rusiyanın Türkiyə ilə apardığı müharibələrdən 4-ü (1768-1774, 1787-1791, 1806-1812, 1828-1829-cu illərdə) Azərbaycan xanlıqlarının fəaliyyət göstərdiyi illərə təsadüf edir. Rusiyanın XVII-XIX əsrlərdə apardığı müharibələr Qara dənizə və ətrafına, həmçinin Qafqaza sahib olmaqdan ötrü idi.

Rusiya XIX əsrdə Cənubi Qafqaza sahib olmaq üçün İranla 1804-1813 və 1826-1828-ci illər müharibələr aparmışdır. (6, s. 227-230). Rusiya hökuməti Rəşt müqaviləsinə (1732), Gəncə traktatına (1735) əsasən Xəzərsahili vilayətləri İrana verdi. Bundan sonra Rusiya Qafqazda istehkam xətlərini tikməyə başladı. 1768-1774-cü illərdə baş verən müharibə nəticəsində Türkiyə Kabardanın Rusiya tərkibində qalmasına razılıq verməyə məcbur oldu. Bundan həvəslənən Rusiya Osetiyanın (Alaniyanın) şimal hissəsini öz imperiyasına zorla birləşdirdi. Rusiyanın sərhədi şimal-qərbi Qafqazda Yeya və Kuban çaylarına çatdı (3, s. 93). Rusiya imperiyası özünün nizami qoşunlarını, eləcə də kazaklardan təşkil olunmuş döyüşçü dəstələrini Qafqaz xəttində yerləşdirməkdə davam edirdi (97, s. 813).

Rusiya Cənubi Qafqazı işğal etmək üçün hərtərəfli hazırlıq aparırdı. Bunun üçün 1780-ci ildən başlayaraq özünün cənub sərhədlərini möhkəmləndirməyə başladı. Osmanlı Türkiyəsi və İranın gözlənilməz basqınlarının qarşısını almaq üçün tədbirlər həyata keçirirdi. Məhz bununla əlaqədar olaraq, Mozdokdan

tutmuş Azov dənizinin sahillərinə kimi istehkamlar inşa edildi. Şimali Qafqaza çoxlu kazak ailəsi köçürüldü. II Yekatirina arzu edən rus dvoryanlarına Kubanda geniş torpaq sahələri verdi, bu münasibətlə 1782-1784-cü illərdə dvoryanlara 600 min desyatin torpaq paylanılmışdı. Həmin tədbirlərlə II Yekaterina, həmçinin gələcəkdə Qafqazda öz müstəmləkəçilik niyyətlərini həyata keçirmək üçün zəmin yaradırdı. Rus qoşunlarının Türkiyə ilə aparılan son iki müharibədə qələbə çalmaları, Krımın və Azovun ələ keçirilməsi və 1791-ci ildə Anapanın alınması, nəhayət, Şimali Qafqazdan türk qoşunlarının sıxışdırılması - Rusiyanın cənuba doğru hərəkətini xeyli dərəcədə asanlaşdırdı (10, s. 30-31).

Artıq Qafqazın bir hissəsini işğal edən Rusiya sənədlərdə və kitablarda "Şimali Qafqaz" terminini tarixləşdirdi ki, gələcəkdə desinlər: bura tarixən Rusiyanın ərazisi olub. Qafqazı hissələrə ayırmadan, buradakı tayfalar və xanlıqlar arasında ədavət toxumu səpmədən bütövlükdə onu işğal etmək çətin məsələ idi. Çünki elə Qafqaz xəttində bufer zolağı kimi yerləşən Kabardada yaşayan çərkəzlər heç vəchlə Rusiyaya tabe olmaq istəmirdilər. 1778-ci ildə üsyan edən noqaylar və çərkəzləri məğlub edən Rusiya digər müsəlman xalqlara da divan tutmağa başladı. 1787-1791-ci ildə Rusiya-Türkiyə müharibəsində türklərin tərəfində vuruşan çərkəzlərin əleyhinə çar qoşunları əməliyyatlar aparırdı (3, s. 93).

Hələ Rusiya-Türkiyə müharibəsi başlamazdan əvvəl çariça II Yekaterina gürcü çarı II İrakli ilə sıx əlaqə yaratmağı məsləhət görürdü. 1783-cü ildə Krım Rusiyaya birləşdirildi. Həmin ilin yayında Kaxetiya-Kartli çarlığının Rusiya himayəsinə qəbul edilməsi barədə fərman verildi. 1783-cü ilin noyabrında Tiflisə rus qoşunu daxil oldu.

1783-cü ilin mayında ruslar Şimali Qafqazdan Gürcüstana gedən yolu düzəltməyə başladılar. 1784-cü ilin yazında bu yolun başlanğıcında Vladiqafqaz (Qafqaza yiyələnən) rəmzi adı verilən

qala inşa edildi. Bu cür əks tədbirlər Azərbaycanın ən güclü xanlıqlarından olan Qubanın xanı Fətəlini II İrakliyə qarşı çıxış etməkdən çəkindirdi. Üstəlik P.S.Potyomkinin tələbi ilə Aleksandrı rus komandanlığına təslim etdi (40, s. 150). Yeri gəlmişkən deyək ki, P.S.Potyomkin 1782-ci ilin 4 noyabrında Qafqaz xəttinə rəhbər təyin edilmişdi. O, Moskva Dövlət Universitetini bitirdikdən sonra Qazanda hərbi xidmətə başlamışdı. P.S.Potyomkin ziyalı adam olmaqla bərabər, ədəbi dairələrdə də tanınır, dram əsərlərini şeirlə yazırdı. O, A.Potyomkinin əmisi nəvəsi və həmdə onun Qafqazla bağlı məsələlərdə ən yaxın köməkçisi idi (119, s. 282).

Kartli-Kaxetiya çarlığının daxili işlərində müstəqil olan II İrakli xarici dövlətlərlə sərbəst əlaqə saxlaya bilməzdi. O ancaq Rusiya çarının göstərişlərini yerinə yetirməyə borclu idi. Çünki Gürcüstan artıq Rusiyanın protektoratı, necə deyərlər Cənubi Qafqazı işğal etmək üçün platsdram idi. Kartli-Kaxetiya çarı taxta çıxmazdan əvvəl Rusiya imperatoru tərəfindən təsdiq edilməli və ona and içməli, lazım gəldikdə isə o, bütün hərbi qüvvəsi ilə Rusiya tərəfinə keçməli idi. Rusiya dövləti də öz tərəfindən təntənəli surətdə söz vermişdi ki, Kartli-Kaxetiya dövlətini himayəsi altında saxlayacaq və həmişə onu müdafiə edəcəkdir (23, s. 33).

Qafqazda hadisələrin Rusiyanın xeyrinə dəyişdiyi bir zamanda Azərbaycanda yaranan xanlıqlar içərisində Naxçıvan xanlığı çox mühüm bir geosiyasi məkanda yerləşdiyindən yüksək hərbi-siyasi mövqe tuturdu. Heç təsadüfi deyil ki, Qafqazı istila etmək istəyən Rusiya imperiyası qoşunlarını Qafqaz xəttində toplamışdı ki, sağ, sol cinahlar üzrə və həm də mərkəzdən yürüş edib Qara dənizə, Xəzər dənizinə, Cənubi Qafqaza sahib ola bilsin.

Siyasi vəziyyətin belə mürəkkəbliyini görən Naxçıvan xanlığı yarandığı bir gündən Qarabağ, İrəvan, Maku, Qaradağ, Gəncə, Xoy xanlıqları və Kartli-Kaxetiya çarlığı ilə hərbi müttəfiqlik üçün addımlar atmışdı. Naxçıvan xanlığının qurucusu

Heydərqulu xan Kəngərli hakimiyyət başına gələn kimi Kartli-Kaxetiya çarlığı ilə diplomatik münasibət qurmuşdu. Heydərqulu xanın vəfatından sonra onu əvəz edən varisləri, xüsusilə Abbasqulu xan bu çarlıq ilə daha sıx dostluq, hərbi-siyasi münasibətlər yaratmışdı. Lakin xanlıq istəyirdi ki, bu hərbi müttəfiqliyi daha da ciddiləşdirsin. Buna digər iki xarici amilin də təsiri vardı. Birincisi, Naxçıvan xanlığında ağalıq etmək istəyən dövlətlərin emissarları hakimiyyət mübarizəsini qızışdırırdılar. İkincisi isə Naxçıvan xanlığının hərbi-müttəfiqlik etmək istədiyi qonşu xanlıqlardan bəziləri və gürcü çarlığı ikiüzlü siyasət aparıb, Naxçıvanı işğal etmək istəyirdilər. Hətta belə hərbi addım atanlar da oldu.

Naxçıvana sahib olmaq istəyən II İrakli çox ehtiyatla hərəkət edirdi. Məsələn, II İrakli və onun dostları olan İrəvanlı Hüseynəli xan, Qarabağlı İbrahimxəlil xan Abbasqulu xan Kəngərlini hakimiyyətə gətirmək üçün çalışdılar və XVIII əsrin 80-ci illərinin əvvəllərində buna nail oldular (39, s. 46).

Azərbaycanın çox xanlıqlarında gözü olan, onlarla münasibətləri vaxtından əvvəl kəskinləşdirmək istəməyən II İrakli Naxçıvan xanlığını Xoy xanı Əhməd xan Dünbülünün vasitəçiliyi ilə Abbasqulu xanla Cəfərqulu xan arasında bölüşdürməyi qərara almışdı.

Qarabağ xanı İbrahimxəlil xanın və onun dostu Kartli-Kaxetiya çarı II İraklinin çox ciddi cəhdlərinə, hücumlarına baxmayaraq, Naxçıvanın Kəngərli xanları onlara təslim olmadılar.

Naxçıvan xanlığında Heydərqulu xanın ölümündən sonra varislərin başları taxt-tac üstündə daxili çəkişmələrə qarışdığından xanlığa sahib çıxmaq istəyən xarici müdaxiləçilər də fəallaşmışdılar. Naxçıvan xanlığının müstəqilliyinin qorunması üçün iradəli, cəsarətli və qorxmaz bir hakimə ehtiyac var idi. Belə bir mürəkkəb şəraitdə Cəfərqulu xanın qardaşı (bəzi rus mənbələrində əmisi oğlu) I Kalbalı xan Abbasqulu xanı hakimiyyətdən devirərək 1787-ci ilin mayında özünü Naxçıvan xanlığının xanı elan etdi

(18, s. 60). I Kalbalı xanın hakimiyyətə gəlməsindən xəbər tutan II İrakli knyaz Baqrationu qoşunla Naxçıvana göndərdi və ona tapşırdı ki, Qarabağ xanına Naxçıvanı tutmağa imkan verməsin. Amma I Kalbalı xan gürcü knyazı Baqrationu Naxçıvan qalasına buraxmadı (184, v. 324).

Kartli-Kaxetiya çarlığının qoşunları ilə Qarabağ xanlığının qoşunları Naxçıvanı tutmaq üçün Sisiyan ətrafında döyüşdülər və hər iki qoşun kor-peşiman geri döndülər (18, s. 61).

I Kalbalı xan hakimiyyətdə olduğu ilk günlərdən xanlığın müdafiəsinə çox ciddi fikir verməyə başladı. Amma rus-gürcü blokunun və İran şahı Ağa Məhəmməd xan Qacarın 1791-ci ildən Azərbaycan xanlıqlarına yürüşə hazırlaşmaq planı Naxçıvan xanını məcbur edirdi ki, özünə güclü hərbi müttəfiq axtarsın.

Qeyd etmək lazımdır ki, rus-gürcü bloku gücləndikcə onların İrəvanı və Naxçıvanı tutmaq planları artıq reallaşırdı. Belə bir vəziyyət Azərbaycan xanlarının çox ciddi narahat edirdi. Bu arada Naxçıvan və Təbriz xanlığının başçıları qərara aldılar ki, Türkiyə sultanına müraciət etsinlər. Onlar müraciətlərində sultanı çağırırdılar ki, baş verə biləcək təhlükənin qarşısını alsınlar. Hər iki xanlıq bir neçə dəfə müraciət etsələr də onların istədikləri cavab alınmadı. Türkiyə sultanı onlara bildirmişdi ki, ona müraciət edən xanlar düşmən hücumunun qarşısını almaq üçün öz qüvvələrini Xoylu Əhməd xanın hakimiyyəti altında birləşdirsinlər (50, s. 45).

Adı çəkilən xanlıqlar isə müstəqilliklərini itirmək istəmirdilər. Ona görə də türk sultanının dediyinə əməl etmədilər. Başqa bir mənbədə olan məlumata görə, Əhməd xan hələ 1785-ci ildə Türkiyənin hakim dairələrinə bildirirdi ki, Rusiya ilə İran arasında Azərbaycan torpaqlarının bölüşdürülməsi haqqında danışıqlar gedir. (91, s. 381). Hətta Azərbaycan xanları 1789-1790-cı illərdə də Osmanlı Türkiyəsinə müraciət etdilər (40, s. 229).

Vəziyyətin mürəkkəbliyini görən Xoy, Təbriz, Qaradağ, Qarabağ, Ərdəbil, Marağa və Naxçıvan xanlıqları özlərinin yaxın

adamlarını girov kimi Seyidabad adlanan Qacar düşərgəsinə göndərdilər. Əslində bu heç də Ağa Məhəmməd xan Qacarla Azərbaycan xanları arasında dini diplomatik münasibətlərin tamamilə bərqərar olması deyildi. Xanlıqlar girov kimi adamlarını buraya göndərməklə Ağa Məhəmməd xan Qacarın hərbi yürüşlərinə məruz qalmamaq üçün edirdilər. (25, s. 19).

Rusiyanın hərbi tarixçisi Butkovun yazdıqlarından məlum olur ki, Ağa Məhəmməd xan Qacar bu girovlara məhəl qoymamışdı. Buna görə də onun hakimiyyətini qəbul etmiş xanlıqlar üzərinə ağır vergilər qoydu (82, s. 320).

1792-ci ildə İbrahimxəlil xan qaynı Avar xanı Ömər xanla ittifaqa girərək Naxçıvana qarşı yürüş etdi. Birləşmiş qoşunların sayı 11 min nəfərə çatırdı. Naxçıvan xanlığının hərbi müttəfiqləri olan Xoy və İrəvan xanlıqlarının qoşunları I Kalbalı xanın köməyinə gəldilər. Naxçıvan xanı I Kalbalı xan bu xaincəsinə olan yürüşü igidliklə dəf etdi. Dostluqlarına xilaf çıxıb yürüş edən İbrahimxəlil xan və Ömər xan məğlub oldular. Çoxlu sayda muzdlu döyüşçülər həlak olan yer indi də "Ləzgiqıran (Ləzgiqırılan)" yer adlanır (18, s. 63).

Ağa Məhəmməd xan Qacar Şimali Azərbaycana 1795-ci ildə etdiyi yürüşdə Azərbaycanın məşhur sərkərdələrini də öz qoşunlarının tərkibində Tiflisə apardı. Onlardan biri də I Kalbalı xan idi. Gürcü tarixçisi Teymuraz Baqrationi "David Baqrationinin tarixi" kitabında yazır: "İranlılar Gürcüstanın qədim paytaxtı Msxetaya yaxınlaşdıqda Ağa Məhəmməd xanın qoşununun bir hissəsinin sərkərdəsi, Naxçıvan xanı Kalbalı xan Kəngərli şəhərin dağıdılmasına icazə vermədi; burada ibadətgahlar və padşahların məqbərələri var idi" (23, s. 22-28).

Yeri gəlmişkən qeyd edək ki, I Kalbalı xanı 1795-ci ildə Gürcüstanın qədim paytaxtı Msxetada göstərdiyi böyük hünər bəzi sovet tarixçiləri tərəfindən danılmışdır. Məsələn, sovet hakimiyyəti illərində gürcü tarixçilərindən G.Kikodze "II İrakli" kitabında Kalbalı xanın bu xeyirxah və risqli hərbi əmrini dəy-

işmişdir. O yazmışdır ki, guya, I Kalbalı xan əsgərlərə şəhəri dağıtmaq əmri vermişdir. (113,s.136-137). Lakin tarixi fakt həmişə öz qüvvəsini saxlayır. Tarix və tarixi həqiqət isə göz önündədir. Kalbalı xanın iradəsinin əsası qəti idi: hər şeyi Allaha və onun qüdrətinə söykənərək etmək. Elə həmin iman və inam işığında tarixin böyük bir hissəsini qoruyub saxlayan qədim Msxeta şəhəri dağıdılmadı. Bəlkə də bu məsələ qədim qıpçaq türk mədəniyyəti ilə də bağlıdır?!

Ümumiyyətlə, I Kalbalı xanın apardığı uğurlu diplomatiyanın paxıllığını çəkən Ağa Məhəmməd xan Qacar 1797-ci ildə I Kalbalı xanın gözlərini çıxartdırdı. Rus hərbi tarixçisi P.O.Butkov Kalbalı xanın gözlərinin 1797-ci ildə Ağa Məhəmməd şahın Şimali Azərbaycan xanlıqlarına ikinci yürüşü zamanı çıxarıldığını qeyd edir: "Rus ordusunun qəflətən geri çəkilməsi ilə əlaqədar olaraq 1797-ci ilin yazında qəddarlıq və amansızlıqla hücum edən Ağa Məhəmməd camaatı qırırdı. Onun məqsədi şuşalı İbrahim xanı darmadağın etdikdən sonra yenidən Gürcüstana getmək idi. O istəyirdi ki, vaxtilə Şah Abbas şamaxılılara, naxçıvanlılara, talışlara, gürcülərə və başqalarına divan tutaraq Mazandaran və Astarabada köçürdüyü kimi, o da əhalini doğma yurdlarından ayırıb sürgün etsin. Naxçıvana göndərilmiş sərdara göstəriş verilmişdi ki, Naxçıvan əhalisini zorla İrana köçürsün, kəndləri isə viran etsin. Naxçıvan xanı qərara aldı ki, özü şəxsən Ağa Məhəmməd xandan xahiş etsin ki, əhaliyə divan tutmasın. Lakin özü birinci olaraq Ağa Məhəmməd xanın qəzəbinə düçar oldu (82, s. 427-428). Bundan sonra I Kalbalı xanı Tehran həbsxanasına göndərdi. Ağa Məhəmməd xanın qətlə yetirilməsindən sonra İrana şahlıq edən Fətəli şah (Ağa Məhəmməd xanın qardaşı oğlu) I Kalbalı xanı azad etdi. Ancaq ona Naxçıvanda yox, İrəvanda yaşamağa icazə verdi.

Beləliklə, XVIII yüzilliyin ikinci yarısında Azərbaycanda olan xanlıqların siyasi-hərbi vəziyyəti Qafqazda gedən proseslərlə çox bağlı idi. Rusiya Cənubi Qafqazın mühüm bölgələrini ələ

keçirəndən sonra qəti surətdə Azərbaycanı işğal etməyə hazırlaşırdı. II İraklinin yerinə böyük oğlu Georgi keçdi. Öz dövrünün görkəmli dövlət xadimi II İraklini əvəz edən XII Georgi hakimiyyəti idarə edə bilmirdi. Çünki mürtəce knyazlar ona işləməyə imkan vermirdilər. Hakimiyyət uğrunda kəskin mübarizə gedirdi. Cənubi Qafqazda daxili vəziyyət olduqca mürəkkəbləşdi (8, s. 570). XII Georginin şahzadə qardaşları da onunla mübarizəyə başladılar. Onun qardaşı Aleksandr kömək üçün İrana müraciət etdi (23, s. 37).

Kartli-Kaxetiya çarlığında vəziyyət elə pisləşdi ki, XII Georgi Rusiyaya müraciət etməli oldu. O, Rusiya çarından xahiş etdi ki, Kartli-Kaxetiya çarlığını rəsmi şəkildə Rusiyaya birləşdirsin (66, s. 502).

1800-cü il dekabrın 22-də Gürcüstanın Rusiya himayəsinə keçməsi barədə manifest imzalandı. 6 gün sonra XII Georgi qəflətən vəfat etdi. Rusiya isə özünün Qafqaz siyasətini fəallaşdırdı. Artıq qarşısında duran əsas məsələ İrəvan və Naxçıvan xanlıqlarını istila etmək idi. İranın vassalı olan bu iki xanlığın vəziyyəti heç də ürəkaçan deyildi. Belə bir vəziyyət isə onları işğal etmək istəyən böyük dövlətlərə sərf edirdi. Araşdırmalar göstərir ki, İrəvan və Naxçıvan xanlıqları Rusiya Qafqaz xəttində olarkən diqqət mərkəzində olub. Hətta həmin illərdə Rusiya ordusunda hərbi xidmətdə olan P.Zubov yazırdı: "Qafqaz adlanan diyar cənubdan Araz çayı, İranla və Türkiyə ilə, Şimaldan Don qoşunlarının torpağı, Şərqdən Xəzər, Qərbdən isə Qara dənizlə həmsərhəddir. 1800-cü ilin yanvarında çoxlu ayrı məmləkətlərə bölünüb və onların arasında siyasi əlaqələr zəifdir (101, s. 15). Ona görə də bu xanlıqların siyasi tarixindən danışarkən heç də Cənubi Qafqazda baş verən proseslərlə kifayətlənmək olmaz. Çünki Qafqazın tamamilə istila edilməsi İrəvan qalasının və Naxçıvandakı Abbasabad qalasının tutulması ilə başa çatdı. Bunu 1828-ci ildə Peterburqdan rus komandanlığına gələn qəti bir rəsmi tapşırıq da təsdiqləyir. Rəsmi tapşırıq belə idi ki, Ab-

basabad qalası kimi İrəvanı da tutun, bu Türkiyə ilə başlayacaq müharibənin əməliyyat xəttinin son nöqtəsi olmalıdır (158, s. 84-85).

XVIII yüzilliyin axırlarında bütövlükdə Qafqazda-həm Şimali, həm də Cənubi Qafqazda ictimai və siyasi vəziyyət çox mürəkkəb idi. Azərbaycan xanlıqlarının bir-birləri ilə apardıqları rəqabət və bəzi hallarda düşmənçilik regionda marağı olan böyük dövlətlərin Cənubi Qafqazı işğal etmək planlarını daha da fəallaşdırdı. 1780-ci ildə artıq Rusiyanın xarici siyasətində "Cənubi Qafqaz" məsələsi gündəlikdə duran əsas məsələyə çevrildi.

XVIII əsrin sonunda Qafqazda baş verən siyasi hadisələr Naxçıvan xanlığının da xarici siyasətində istiqamətini dəyişməyə təsir göstərdi.

## 1.2. Naxçıvan xanlığının siyasi inzibati vahidləri və idarəçilik sistemi

Naxçıvan xanlığı tarixinin tədqiq edilməsi Naxçıvanın Azərbaycanın qədim iqtisadi, siyasi və mədəni mərkəzlərindən biri olduğunu təsdiqləyir. Naxçıvan xanlığı müstəqil mövcud olduğu illərdə (1747-1797-ci illər) özünün daxili və xarici siyasəti ilə qonşu xanlıqların rəğbətini qazanmışdır. Araşdırmalar göstərir ki, Naxçıvan xanlığı onun əsasını qoyan Heydərqulu xanın, sonralar isə I Kalbalı xanın hakimiyyəti dövründə özünün apardığı siyasi diplomatiyası ilə həmişə fərqlənmişdir. Naxçıvan xanlığının ərazisi, qoşunu, işlətdiyi pul vahidi, özünəməxsus xarici, daxili siyasəti, müstəqil dövlətə məxsus atributları olmuşdur.

Naxçıvan diyarı XVI əsrdən XVIII əsrin 30-cu illərinədək Azərbaycan Səfəvilər dövlətinin tərkibində olmuşdur. Amma buna baxmayaraq Naxçıvan ayrılıqda inzibati-ərazi vahidi kimi əvvəlcə Təbriz bəylərbəyliyinin, XVII əsrin sonunda isə Çuxur-Səd bəylərbəyliyinin bir hissəsini təşkil etmişdir. Naxçıvan bu zaman aralığında Osmanlı imperiyası tərəfindən iki dəfə işğal olunmuşdur. Ona görə də inzibati-ərazi bölgüsündə də müəyyən

dəyişiklər olmuşdu. 1736-1747-ci illərdə, yəni Nadir şahın hakimiyyəti dövründə Naxçıvan yeni yaradılan Azərbaycan vilayətinin tərkibinə daxil edilmişdir.

1747-ci ildə yaranan müstəqil Naxçıvan xanlığı yenidən ərazi və xarici sərhəd dəyişmələrinə məruz qalmışdır. Naxçıvan diyarı və onun inzibati ərazi bölgüsü haqqında məlumat verən mənbə "Təzkirət əl-mülk" (1725) əsəridir. Bu mənbədə Naxçıvan diyarının inzibati ərazi vahidi haqqında məlumat verilmişdir. Mənbələrin biri də, "Naxçıvan xanlığının müfəssəl dəftəri"dir. Həmin dəftərdə Naxçıvan diyarının inzibati-ərazi bölgüsü haqqında da məlumatlar toplanmışdır (46, s. 37-38, 287). Naxçıvan diyarının tarixi coğrafiyası əsaslı şəkildə S.Budaqova tərəfindən tədqiq edilmişdir (13, s. 8).

Naxçıvan tarixi coğrafiyasının bir çox problemləri ilə yanaşı, həm də onun siyasi inzibati vahidləri haqqında Naxçıvan xanlığı Rusiya tərəfindən işğal edildiyi və ondan sonrakı dövrlərdə rus müəllifləri tərəfindən qələmə alınmış əsərlərdə məlumat verilmişdir. Xanlıq ləğv edildikdən sonra yazılan kitablarda da Naxçıvan xanlığı haqqında ətraflı məlumata rast gəlinir. V.N.Qriqoryevin (88), İ.Şopenin (142; 143), A.S.Qriboyedovun (86; 87), P.Q.Butkovun (82), N.F.Dubrovinin (92; 93), K.A.Nikitinin (125), S.P.Zelinskinin (100), N.A.Engelqardtın (98), İ. P. Petruşevskinin (131; 132), R.Məmmədovun (32) və s. əsərlərində Naxçıvan xanlığının siyasi-inzibati vahidləri haqqında məlumat verilmişdir. Naxçıvan xanlığının tarixi demoqrafik vəziyyəti tədqiqatçı alim İbrahim Kazımbəyli tərəfindən ətraflı tədqiq edilmişdir (28). Azərbaycan tarixşünaslığında ilk dəfə olaraq Naxçıvan xanlığının əhalisi tarixi demoqrafik baxımdan kompleks şəkildə tədqiqatçı alim Nuru Quliyev tərəfindən araşdırılmışdır. Müəllif yazır ki, 1807-ci ildə Naxçıvan xanlığında 12.000 ailə, 30.000 kişi cinsindən olan əhali, 1828-ci ildə isə müvafiq olaraq 4.600 və 12.000 sayda əhali olmuşdur (31, s. 8).

Akademik İsmayıl Hacıyevin rəhbərliyi altında Naxçıvan

xanlığının iki dövr üçün (1747-1797; 1797-1828-ci illər) xəritəsi işlənmişdir. Çoxlu arxiv materialları, rəsmi sənədlər, Paskeviçin fondundan əldə edilmiş xəritələr, həmçinin rus hərbi tarixçisi V.A.Pottonun "Qafqaz müharibəsi" (5 cilddə) (130) kitabında da olan məlumatlar imkan verdi ki, Naxçıvan xanlığının 1747-1797 və 1798-1828-ci illərə aid xəritəsini tərtib edib hər iki dövr üçün sahəsini hesablayaq. Hesablamalar göstərdi ki, 1747-1797-ci illərdə Naxçıvan xanlığının ərazisi 9428,71 kv.km, 1797-1828-ci illərdə isə 4642,83 kv.km. olmuşdur. Naxçıvan xanlığını yaradan və idarə edən Kəngərli xanlarının müstəqil yaşamaları və apardıqları uzaqgörən diplomatiya bölgədə marağı olan dövlətləri razı salmamışdır. Elə bu səbəbdən Fətəli şah Naxçıvan xanlarını cəzalandırmaq üçün Qapan və Mehri mahallarını Qarabağ xanlığına bağışlamışdır. Həm də bununla Qarabağ xanlığı ilə Naxçıvan xanlığını düşmən etmək istəmişlər. Ancaq Naxçıvan xanı I Kalbalı xan ən yaxın müttəfiqi İbrahim Xəlil xanla dostluq münasibətlərini pozmamış, əksinə, bu münasibətləri daha da möhkəmləndirmişdir. Naxçıvan xanlığının 1827-ci ilədək özünəməxsus bayrağı olmuşdur. Bu bayraq haqqında dəqiq məlumatı 2006-cı ildə Tbilisidə Gürcüstan Milli Arxivində axtarışlar apararkən əldə etdik. Yeri gəlmişkən qeyd edək ki, xanlığın digər bayraqları da ola bilər. 1827-ci ildən əvvəldə də Naxçıvan xanlığının bayraqlarının tapılması istiqamətində axtarışlar aparılır. Bir vaxtlar çar Rusiyasında ən məşhur hərbi muzeylərdən biri də "Qafqaz" muzeyi olub. Həmin muzeyin "Bələdçi" kitabı (304 səhifəlik) 1907-ci ildə Qafqaz Hərbi Dairəsinin nəşriyyatında çap edilib. Həmin kitabın verdiyi məlumata görə "Qafqaz" hərbi tarix muzeyinin "sağ salonunda" 1920-ci ilədək Naxçıvan xanlığının bayrağı 77 №-li bölmədə saxlanılıb. Bu kitabda Naxçıvan xanlığının bayrağının təsviri aşağıdakı kimidir: qırmızı mahud parçadan ibarət olan bayraq bir ucludur. Uzununa tərəfləri saçaqlıdır və hər iki tərəfdən mahud parça üzərində rəngli parçalarla Şir və Günəş təsviri tikilmişdir. Dəstəyi

ağacdandır (139, s. 45).

Naxçıvan xanlığının və İrəvan xanlığının son illərdəki bayrağı çox oxşar idi. İrəvan xanlığının bayrağında şirdən yuxarıda iki Quran ayəsi yazılmışdır.

Abbasabad qalası çar Rusiyası tərəfindən işğal ediləndən sonra bayraq bir daha Kəngərli xanlarının varislərinə göstərilməmişdir.

Onu da qeyd edək ki, "Şir və Günəş" qədim türk simvoludur. Bu, Azərbaycan Atabəyləri dövlətinin istifadə etdiyi simvoldur (112, s. 20).

1922-ci ildə V.Tsixinski adlı bir müəllif "Kavkazskiy qerbovnik" əlyazmasında Kəngərli xanlarının nəsil gerbinin təsvirini vermişdir. O qeyd etmişdir ki, bu gerb general-adyutant Hüseyn xan Naxçıvanskinin sənədləri arasından tapılmışdır. Müəllif əlyazmasında yazmışdır: "Naxçıvanskilər nəsli Naxçıvan xanlığından başlanır. Xan Hüseyn Rusiya ordusunun general-leytenantı olub və 1920-ci ildə Petroqradda vəfat edib. Rusiya imperiyasında knyaz tituluna layiq görülüb." V.Tsixinski tapdığı materialları senatın Heraldika Departamentinin Gerb şöbəsinə və Dövlət Şurasının arxivinə göndərmişdir (91, s. 84-86) .

Naxçıvan xanlığında dövriyyədə əsasən Azərbaycan və İran pul vahidləri işlədilirdi: "tümən", "yarım tümən", "sahibqıran", "pənahabad", "şahı", "yarım şahı", "para", "mahmudiyyə", "səksənlik" və "yüzlük" xanlıqda işlədilən pul vahidləri idi. Axtarışlar zamanı Naxçıvan xanlığında pul vahidinin zərbləndiyi də məlum oldu. Naxçıvan xanlığının milli geyimli süvari qoşunları var idi. Hətta həmin süvari qoşunların milli geyimlərinin təsvirini əks etdirən sənəd də əldə edilmişdir (174, v. 139-144).

Naxçıvan xanlarının hakimiyyət rəmzi kimi buncukları da olmuşdur. Buncuk (türk dilində tuğ və ya qotaz) ilk dəfə Osmanlı ordularında istifadə edilmişdir. Buncuk at və ya Tibet öküzünün quyruğu olub, 2-2,5 metr uzunluğunda bəzədilmiş ağacın ucuna keçirilir, qızılı rəngli mis və ya sümük sonluqla qurtarırdı.

Buncuk Polşa və Ukraynanaya da Türkiyədən keçmişdir. Getman və ya atamanın hakimiyyət rəmzi, sonralar isə Rusiyada Don kazaklarının hakimiyyət göstəricisi olmuşdur. Yürüşdən əvvəl buncuk hərbi sərkərdələrin başının üstündə qaldırılır, düşərgədə onun çadırının qarşısına qoyulurdu. 1706-cı ildə I Pyotr sədaqətli xidmət etdiklərinə görə Don kazaklarına buncuk vermişdir. Buncukun təsviri 1803-cü ildə Çerkask şəhərinin gerbində də verilmişdir (12, s. 104-107). Azərbaycan xanlıqlarında, o cümlədən Naxçıvan xanlığında olan buncuklar 1828-ci ildən sonra Qafqaz hərbi tarix muzeyinə–Tiflisə aparılmış, 1920-ci ilədək orada saxlanılmışdır.

Rusiya, İran və Osmanlı imperiyası, o cümlədən Qərbi Avropa dövlətləri Qafqaz uğrunda mübarizə apardıqları illərdə mahir sərkərdə I Kalbalı xan Naxçıvan xanlığının müstəqilliyini qorumaq üçün ən çətin diplomatik danışıqlar aparırdı. Onun təkcə bir müqəddəs vəzifəsi var idi: Naxçıvan xanlığının müstəqilliyini qorumaq. Ümumiyyətlə Naxçıvan xanlığının tarixini beş mərhələyə bölmək olar:

I mərhələ Naxçıvan xanlığının banisi Heydərqulu xanın hakimiyyəti və fəaliyyəti (1747-1763\64-cü illər).

II mərhələ–1764-1787-ci illər. Hakimiyyət uğrunda çəkişmələr dövrü.

III mərhələ–I Kalbalı xanın 1787-1797-ci illərdə hakimiyyəti və fəaliyyəti. Bu illəri Naxçıvan xanlığının intibah dövrü adlandırmaq doğru olardı. Bu illərdə xanlığın müstəqilliyinin qorunması üçün aparılan mübarizə böyük məharət tələb edirdi və Naxçıvan xanlığı digər Azərbaycan xanlıqlarının əksəriyyəti ilə çox yaxın dostluq münasibətləri saxlayırdı.

IV mərhələ–1797-1828-ci illərə aiddir. Bu dövrdə Naxçıvan xanlığının tənəzzülü başlayır. Hakimiyyət əldən-ələ keçir.

V mərhələ–Naxçıvan xanlığının süqutu dövrü. Naxçıvan və İrəvan xanlıqlarının ərazisində qondarma erməni vilayətinin yaradılması ilə əlaqədar olaraq Naxçıvan xanlığının dövlətçilik

prinsiplərinə böyük zərbə vurulur. Həmçinin ərazisi Rusiya tərəfindən işğal olunur. Amma Naxçıvan xanlığını Azərbaycanın digər xanlıqlarından fərqləndirən bir cəhət var: formal olaraq Naxçıvan xanlığı 1840-cı ilədək fəaliyyət göstərir (131, s. 8). Kəngərli tayfasına və süvarilərinə Don kazaklarına verilən imtiyazlar şamil olunur.

1828-ci ildən 1840-cı ilədək I Ehsan xan I Kalbalı xan oğlu Naxçıvanın naibi olur. Getdikcə bütün səlahiyyətləri əlindən alınan I Ehsan xan etiraz əlaməti olaraq öz ərizəsi ilə naiblikdən əl çəkir və Naxçıvan Kəngərli süvarilərinin atamanı təyin edilir (136, s. 189, 278).

1823-cü ildə I Kalbalı xanın, 1846-cı ildə onun oğlu I Ehsan xanın müəmmalı ölümü Rusiya tərəfindən açıq şəkildə himayə edilən ermənilərə Naxçıvanın ərazisini zəbt etməyə və qədim tarixini saxtalaşdırmağa şərait yaradır.

Naxçıvan xanlığının müstəqilliyinin və ərazi bütövlüyünün itirilməsinə əsasən aşağıdakılar səbəb olmuşdur:

1. Ağa Məhəmməd şah Qacarın Naxçıvana və onu idarə edən I Kalbalı xana qarşı qisasçılıq siyasəti;

2. Rus-İran müharibələri və Türkmənçay müqaviləsi.

Naxçıvan xanlığı müstəqil olduğu illərdə (1747-1797) özünün daxili və xarici siyasətində sərbəst fəaliyyət göstərirdi. Müstəqil dövlət qurumu olan xanlığın ali hakimi xan özü idi. Naxçıvan xanlığı yarandığı gündən onu Naxçıvanın çox qədim sakinləri olan Kəngərli xanları idarə edirdilər.

Səfəvi imperiyası zamanında da Naxçıvanda yerli Kəngərli tayfasından Rzaəddin xan (1647), Şərif xan (1678), Məmmədrza xan (1691) hakimlik etmişlər. Qədim oğuz türklərindən olan Kəngərlilərin soy mənşəyi haqqında tədqiqatçı İ.Kəngərli sanballı bir monoqrafiya yazmışdır (29).

Kəngərlilər sərbəst, müstəqil yaşamağı və öz dövlət qurumlarını- Naxçıvan xanlığını müdafiə etməyi yaxşı bacarırdılar. Naxçıvan xanlığında Kəngərli tayfasının məşhur qolları yaşayırdı.

Yurdçu, Cəmşidli, Xalxallı, Qaraxanbəyli, Ağabəyli, Cığataylı, Qaraçalı, Bilici, Qaradolaqlar, Kəclər, Sarvanlar, Şahbanlılar, Əlixanlı, Ərəfsəlilər, Salahılar, Qızıllı, Pirhəsənli, Qızılqışlaq, Kəlfir və Qarabağlar (88, s. 32).

Deməm olar ki,"Xan tam müstəqil şəxs idi" (79, s. 49). Xanlıqda xandan sonra sultanlar və bəylər yüksək mövqe sahibi idilər. (74, s. 135)

Görkəmli alim A.Ş.Milman Azərbaycan xanlıqlarının inzibati quruluşu haqqında yazdığı əsərdə ətraflı məlumat vermişdir (120, s. 40).

Naxçıvan xanlığı onun yaradıcısı Heydərqulu xan Kəngərlinin hakimiyyəti dövründə sürətli inkişaf yolu keçmiş, ancaq onun vəfatından sonra yağıların tapdağına çevrilmişdir. Müəyyən səbəblər ucbatından tez-tez hakimlərin dəyişildiyi Naxçıvan xanlığı 1787-ci ildən 1797-ci ilədək intibah dövrünü yaşayıb. Bu 10 il ərzində xanlığa ağıllı və cəsur adam olan I Kalbalı xan xanlıq edirdi. O, Qafqazın ən güclü hökmdarlarından olan Gürcüstan çarı İraklinin çox ehtiram bəslədiyi bir sərkərdə idi (88, s. 49).

Naxçıvan xanlığı İran tərəfindən işğal edildikdən sonra xanlığın müstəqil idarəetmə sistemində tamamilə başqa bir vəziyyət yarandı. Naxçıvan xanlığı və İrəvan xanlığı Cənubi Azərbaycan xanlıqlarının sıralarına daxil edildilər. İran hökmdarı Fətəli şahın oğlu şahzadə Abbas Mirzə Cənubi Azərbaycanı idarə etməyə başladı. Rusiyanın diplomatı və məmuru V.Qriqoryevin bu haqda yazdıqları həmin dövrdə Naxçıvan xanlığına, həmçinin Kəngərli xanlarına Abbas Mirzənin tutduğu qərəzli mövqeni daha dəqiq xarakterizə edir. O, yazır: "Başqa xanlıqlarda olduğu kimi Naxçıvan xanlığında da ilkin ödənci kim daha böyük məbləğdə ödəyirdisə, xanlıq da ona verilirdi" (88, s. 51).

Aparılan araşdırmalar göstərir ki, xanlar heç də xalqdan uzaq deyildilər, onların taleyinə də biganə deyildilər: "Xanlar şəriətin əsas qanunlarını, xalqın adət-ənənəsini pozmaq hüququna

malik deyildi" (75, s. 142-143).

Naxçıvan xanlığının siyasi quruluşu və idarəçilik sistemi haqqında söhbət açarkən qeyd edək ki, Nadir şah (Təhmasibqulu xan) 1747-ci il iyun ayının 20-də sui-qəsd nəticəsində öldürüldü (24, s. 27). Onun hərbi qüvvə ilə yaratdığı dövlət dağıldı. "Vergi ödəyən zümrənin və kəndlilərin üsyanı, xalq-azadlıq hərəkatı qəti olaraq İran dövlətinin dayaqlarını laxlatdı və digər səbəblərlə birlikdə onun dağılmasına gətirib çıxartmaqla çox da böyük olmayan feodal dövlətlərin (xanlıqların) yaranmasına tarixi şərait yaratdı" (64, s. 84-85).

İyun ayının sonlarında yaranan Naxçıvan xanlığı rus şərqşünası və dövlət məmuru, həm də şairi V.Qriqoryevin yazdığına görə həmin vaxtlar, 1797-ci ilədək Naxçıvan, Ordubad, Mehri və Qapan dairələrindən ibarət olmuşdur.

Rusiya ilə İran dövlətləri arasında bağlanan Gülüstan müqaviləsindən sonra Naxçıvan tüməni 4 mahala bölünmüşdü: Naxçıvan, Əlincə, Xok, Dərələyəz, Ordubad tüməni isə Ordubad, Əylis, Dəstə, Çənnəb və Biləv (88, s.49). Qeyd edək ki, V.N.Qriqoryev "Qafqaz arxasında Rusiya mülklərinin icmalı"na həsr edilmiş əsərində Naxçıvan əyalətinə aid hissəni də yazmışdır (126).

Naxçıvan xanlığının belə bir inzibati-ərazi bölgüsü digər tədqiqatçıların əsərlərində öz əksini tapmadığından, onlar xanlığın ərazisinin Zəngəzur dağlarından başlandığını yazmışlar (18, s. 78). V.Qriqoryevin yazdığı istiqamətlərdə aparılan araşdırmalar zamanı məlum oldu ki, Naxçıvan xanlığının ərazisi Zəngəzur sıra dağlarından xeyli şimalda olan Kəngərli çayından başlanır. Rusiya qoşunlarının tərkibində Naxçıvan xanlığına yürüş edən knyaz Şerbatovun kitabında qraf Paşkeviçin tərtib etdirdiyi dəqiq hərbi xəritələr də verilmişdir (140, s. 8). Bunlar da yuxarıdakı araşdırmalarımızın doğruluğunu təsdiqləyir. Naxçıvan xanlığı ilə bağlı tədqiqat əsərləri yazan müəlliflərdən heç biri 1747-1797-ci illərdə xanlığın mahallarını göstərməmişlər. Buna əsas səbəb o dövrə aid sənədlərin olmamasıdır və onların yazdıqları

mahal adları 1797-ci ildən sonraya aiddir. Xanlıq dövrünün tədqiqatçıları ehtimal olaraq Naxçıvan xanlığının 1747-1797-ci illərdə mahal adlarını göstərmişlər.

Rus hərbi şərqşünası İ.Şopen isə inzibati-ərazi bölgüsündə göstərirdi ki, xanlıq Naxçıvan, Dərələyəz və Azadçiran (Ordubad) dairələrinə bölünüb. Naxçıvanın Əlincəçay, Naxçıvan, Məvazixatun, Xok və Dərələyəz mahallarından, Ordubad dairəsi isə Ordubad, Əylis, Dəstə, Biləv və Çənnəb mahallarından ibarətdir (142, s. 446-448).

XVII-XVIII əsrin birinci yarısında Osmanlı dövləti fasilələrlə Azərbaycanı ələ keçirmək üçün bu ölkəyə yürüşlər etmişdir (28, s. 17). Osmanlıların hakimiyyəti zamanında Naxçıvan diyarının inzibati ərazi bölgüsü nahiyələrə bölünməzdən əvvəl “sancaq” adlandırılıb və Naxçıvan sancağı 16 nahiyyəyə bölünmüşdür (13, s. 18).

Naxçıvan xanlığının mahallara bölünməsi ilə bağlı məsələni bir qədər də ətraflı izah etmək istərdik. Naxçıvan xanlığının müstəqil olduğu illərdə idarə orqanları, inzibati təşkilatları, eləcə də mövcud olan dövlət vəzifələri haqqında konkret və hərtərəfli məlumat verən ilkin mənbələrə hələlik təsadüf edilməmişdir. İstifadə edilən mənbələr əsasən rus məmurlarının XIX yüzillikdə yazdıqları kitablardır. Onlarda da yazılanlar əsasən Naxçıvan xanlığı İranın vassalı olduğu illərdə idarəetmə sistemi haqqındadır. Bütün bunlara baxmayaraq, bu yazılanlar və digər elmi əsərlər Naxçıvan xanlığının 1747-1797-ci illərdəki idarə orqanları və onların fəaliyyəti haqqında fikir söyləməyə imkan verir.

Ümumiyyətlə, Azərbaycanın şimal və cənub xanlıqlarına aid olan mənbələrdə məlumatlar və xəbərlər imkan yaradır ki, müqayisəli və dərin təhlil aparaq. Araşdırmalardan belə nəticəyə gəlmək olar ki, Naxçıvan xanlığının da dövlət aparatı digər Azərbaycan xanlıqları kimi Səfəvi dövlət aparatının sadələşmiş sxemi əsasında qurulmuşdur ( 15, s. 30). Amma xanlıqlar müstəqil olduqlarından elə də geniş ərazilərə malik deyildilər.

Ona görə də xanlıqda idarəetmə sistemi üçün lazım olmayan bəzi orqanlar ləğv edilmiş, yaxud da yenisi ilə əvəz edilmişdir (132, s. 89-90). Qeyd edək ki, Naxçıvan xanlığında bəzi hallarda ərazi-inzibati bölgüsündə dəyişiklik aparılsa da, xan məmurlarının idarəçilikdə olan imtiyazları əvvəlki dövrdə olduğu kimi qalırdı. Naxçıvan xanlığı İranın işğalına məruz qalandan sonra, yəni 1797-ci ildən sonra Cənubi Azərbaycana hakim təyin edilmiş şahzadə Abbas Mirzə Naxçıvan xanlığını Naxçıvan və Ordubad dairələrinə bölmüşdü. Həmin dairələr isə öz növbəsində mahallara bölünürdü. Naxçıvan dairəsinə Əlincə, Xok və Dərələyəz mahalları daxil edilmişdi. Ordubad dairəsi isə bu mahallardan ibarət idi: Ordubad, Əylis, Dəstə, Çalanapek və Bəlləv (18, s. 23). Rus hərbi şərqşünasları Çənnəb mahalını səhvən "Çalanapek" və Biləvi isə "Bəlləv" kimi yazmışlar.

Naxçıvan xanlığı müstəqil olduğu illər ərzində xanlığın daxili işlərinə və xarici siyasətinə xan özü başçılıq etsə də, 1797-ci ildən sonra Naxçıvan xanlığı İrandan asılı vəziyyətə düşdüyündən, xanları İran şahı təyin edirdi. Məsələn, Abbas Mirzənin xanları təyinetmə prosesini rus diplomatı Qriqoryev belə təsvir edir: "Abbas Mirzə hər dəfə xanı təyin edərkən ona qızıl suyuna çəkilmiş və platinlə bəzədilmiş yəhər bağışlayırdı. Bundan başqa xan şahın iradəsini yerinə yetirdisə, o zaman əlavə olaraq şah hər bayramda ona təzə xələt və qiymətli kəmər bağışlayırdı" (88, s. 52). Əgər əvvəllər Naxçıvan xanı "hakimi-mütləq" hesab edilirdisə, indi İran şahından asılı idi. O, yerli orqanlara özünün yaxın adamlarını təyin etsə də, hökmən şahın tapşırıqlarını nəzərə almalıydı. Xanlıq taxtında əyləşən xanlar öz xəzinələrini əhalidən toplanan vergilərə əsasən doldururdular. Naxçıvan xanları vergilərdən topladıqları gəlirdən əlavə, eyni zamanda vəzifəli şəxslərə çox nadir hallarda xəzinədən maaş verirdilər .

Naxçıvan xanlığını idarə etmək üçün əksər hallarda Kəngərli tayfalarından olan iki nəfər feodal təyin olunurdu. Onlardan biri

xanlığın iqtisadiyyatını təyin edən əsas sima, digəri isə xanlığın qanunlarına rəhbərlik edir, tayfanın və ordunun rəisi hesab olunurdu (18, s. 22).

Naxçıvanın XVII-XIX əsrlər tarixinə dair "qiymətli mənbə" adlandırılan "Naxçıvan əlyazma sənədləri" bir çox məsələlərin açılmasına daha dərindən öyrənilməsinə köməklik göstərir. Bu kitab sovet hakimiyyəti illərində Naxçıvandan Tiflisə aparılan "Kəngərli arxivi"nin 25 sənədi əsasında yazılmışdır (129).

Ömrünün çoxunu şərq tarixinin, o cümlədən Naxçıvan tarixinin öyrənilməsinə, tədqiqinə sərf edən rus şərqşünaslarından biri də Konstantin Nikolayeviç Smirnovdur.

K.N.Smirnov XX yüzilliyin otuzuncu illərinin ortalarında Naxçıvana uzunmüddətli ezamiyyətə gəlmiş və 500 illik tarixi olan Kəngərli arxivini Tiflisə aparmışdır. Konstantin Nikolayeviç Smirnovun şəxsi arxivi olan fondda (№39) Naxçıvan tarixi ilə bağlı təxminən 200 səhifəyə yaxın iş saxlanılır. Naxçıvandan qayıdan alim şərqşünasın verdiyi məlumata görə gətirdiyi sənədlər (300-dən çox) çox qiymətlidir. O qeyd edir ki, bu sənədlər əsasında Naxçıvan ölkəsinin xarici, daxili siyasətini, onun inzibati ərazi vahidləri və idarə sistemi, hərbi qüvvələri, Kəngərli tayfasının Şeyx Səfidən başlayaraq bu günədək olan tarixindən və Naxçıvan diyarının idarə edilməsindən və sair haqqında geniş elmi-tədqiqat işləri aparmaq mümkündür. Onun şəxsi arxivində "XVII-XIX əsrlərdə Naxçıvanın əlyazma sənədləri" mövzusunda məruzəsi saxlanılır. O, Naxçıvandan qayıdandan sonra işlədiyi institutun rəhbər şəxsləri qarşısında məruzə edib və bu haqda akt da var.

Konstantin Nikolayeviç Smirnovun apardığı sənədlər Naxçıvanın nəinki tarixi, həm mədəniyyət, həm də ədəbiyyat tarixi baxımından da çox əvəzsiz mənbələrdir. O, özü apardığı sənədlər haqqında yazdığı iki monoqrafiyada da bu barədə dönə-dönə məlumat vermişdir.

Onun yazdığı 141 səhifədən ibarət olan "Ön Asiya sənədlərdə

Naxçıvanın əlyazmalar abidələri" ( I kitab) 1936-cı ildə çap edilib. Həmin kitab bu gün də bizim üçün çox qiymətlidir (çünki 25 sənəddəki mətnlərin fotosurətləri də verilib (129).

Lütfəli Sultanın atası Məhəmmədkərim Sultan 1760-1780-ci illərdə Naxçıvan xanlığının vəkili olub. Daha doğrusu xanlığı idarə edən Kəngərli tayfasının ağsaqqalı (mətndə rişsefidi) kimi fəaliyyət göstərmişdir (129, s. 52-53). Məhəmmədkərim Sultanın atası Əliməmməd bəy də 1749-1759-cu illərdə Naxçıvan xanlığında Kəngərli tayfasının vəkili olub (129, s. 44). Ümumiyyətlə, Əliməmməd bəydən 5 arxa nəsil babalarının da Kəngərli tayfasının vəkili olduğunu təsdiqləyən arxiv sənədləri və ədəbiyyatlar vardır (143).

Qeyd edək ki, Astrabad ölkəsinin bəylərbəyi Mürtəzaqulu xan Kəngərlinin böyük oğlu Səfiqulu xan (o da Naxçıvanın hakimi olub) Lütfəli Sultanın qaynatası idi. Səfiqulu xanın qızlığı Mələknisa xanım isə Lütfəli Sultanın həyat yoldaşı olub (51, s. 144). Belə bir qohumluq dərəcəsi Lütfəli Sultanın Naxçıvan xanlığında tutduğu yüksək mövqenin çox əhatəli olduğunu göstərir.

Naxçıvan xanlığının bölündüyü hər bir mahalı mirbölüklər idarə edirdilər. Onların əsas vəzifələri xanın əmrlərini yerinə yetirmək idi. Həmin əmrlər əsasən kənd təsərrüfatı ilə əlaqədar məsələlərdən və vergilərin yığılması ilə bağlı olurdu. Mirbölüklər idarə etdikləri mahalın kəndlərinin kəndxudalarını yanlarına çağıraraq onlara nə etmək lazım olduğunu izah edirdilər. Mirbölüklər "kənd təsərrüfatı işlərinə rəhbərlik etdikləri üçün aldıqları maaşdan başqa hər il 20 tüməndən 50 tümənə qədər pul və 5 xalvardan 10 xalvara qədər taxıl, habelə toy mərasimləri dövründə isə müxtəlif hədiyyələr alırdılar" (88, s. 53).

Azərbaycan xanlıqlarının çoxunda mirbölüklər mirzəbəyilər yaxud mirzələr kimi də adlanırdı (18, s. 23). Kəndxudaları kənd icması seçirdi, xan isə təsdiqləyirdi. Onlar hər il 10 tümən maaş alırdılar. Kəndxudalardan yazılı iltizam alırdılar ki, baş vermiş

hadisə və yeniliklər haqqında ardıcıl olaraq xan divanına məlumat versinlər. Bu məlumatlar əsasən kəndə gələn yeni işçi qüvvələrinin və gənclik yaşına çatmış yeniyetmələrin siyahıya alınmasından ibarət idi.

İşində səhlənkarlığa görə kəndxuda gümüş pulla yüz manatdan iki yüz manata qədər cərimə verirdi. Bəzi hallarda fələqqa cəzasına da məruz qalırdı (88, s. 54). Xan xəzinəsinə vergi yığılması işinə sərkarlar başçılıq edirdilər. Onlara mahal naibləri (mirbölüklər, mirzəbəyilər) və kəndxudalar köməklik göstərirdilər. Vergini vaxtında yığmayan sərkarları xan yenisi ilə əvəz edirdi (63, s. 65). Tədqiq olunan dövrdə Naxçıvan xanlığında əsasən iki şəhər- Naxçıvan və Ordubad şəhərləri vardı (18, s. 35). Bu şəhərlərdə qalalar olduğundan şəhəri idarə edənlər qalabəyilər və kələntərlər adlanırdı. Səfəvilər dövründən başlayaraq şəhərlərdə məhəllə başçılarına və sənətkarların ağsaqqallarına başçılıq edən adamlara kələntər deyilirdi (42, s. 39). Kələntər isə şah tərəfindən təyin edilirdi (32, s. 18). Papazyanın yazdığına görə kələntərlər adətən ən zəngin tacirlər və xacələr içərisindən seçilirdi (128, s. 231).

Araşdırmalar zamanı məlum oldu ki, Naxçıvan xanlığı müstəqil olduğu illərdə də, Naxçıvan şəhərinin kələntəri olub. Hicri 1191-ci (miladi 1777, dekabr) ilin 29 zilhəcceyi-həram ayında yazılmış bir sənəddə Mirzə Məhəmməd Kələntərin və hicri 1205-ci (miladi 1790, avqust) ilin şəbanül-müəzzəm ayında yazılan sənəddə isə kələntər Mirzə Rəhimin adı çəkilir (51, s. 99, 75)

Qalabəyilər qala divarları içərisində yerləşən xan sarayının və şəhər qapılarının açarları üçün məsuliyyət daşıyırdılar. Hətta hərbi məqsədlər üçün tikilən qalaların da qalabəyisi var idi. Naxçıvan xanlığında belə hərbi qalalardan biri 1810-cu ildə tikilmiş Abbasabad qalası idi (102, s. 131).

Rus ordusunun mayoru Matuşeviçin yazdığına görə 1803-cü ildə Naxçıvan qalası 6 qülləsi ilə durürmuş və burada müdafiə

üçün 4 top qoyulubmuş (134, s. 371).

Xanlıqda polis idarəsi 2 nəfərə etibar edilirdi: darğaya və əsasbaşına.

Darğa gündüzlər qayda-qanun yaradır, bazarda qiymətlərə nəzarət edir və baş verən dava-dalaşları yatırdırdı. Xan xəzinəsindən darğalara maaş verilmədiyindən onlar hər ay nəzarət etdikləri dükanların hər birindən 15 qəpik gümüş pul alırdılar. Özləri üçün ərzağı bazardan pulsuz götürürdülər. Əsasbaşılar isə gecə vaxtı əmin-amanlığa cavabdeh olduqları üçün xüsusi dəstələr saxlayırdılar. Onlar da maaş əvəzinə dükanların hər birindən 15 qəpik gümüş pul alırdılar. Əsasbaşılar gözətçiləri də həmin pula təmin edirdilər. Onlar nəinki gecə vaxtı əhalinin təhlükəsizliyini, hətta onların bazarlardakı mallarını da qoruyurdular (95, s. 257). Onbaşılar və yüzbaşılar da darğaya tabe idilər.

Xanın mülkü və polis işçiləri ilə bağlı işlərini eşikağası həyata keçirirdi. O, xanın ən yaxın köməkçisi idi. Xan divanına gələnləri əvvəlcə eşikağası qəbul edir və məsləhət bildikdə xanın qəbuluna aparırdı.

Xanlıqda daxili idarəetmə vəzifəli şəxslərdən biri də mirablar idi. Onlar xanlıq ərazisində olan kəndlərdə və 2 şəhərdə suyun bölüşdürülməsinə nəzarət edirdilər. Mirablar maaş əvəzinə sudan istifadə edənlərdən 15 batman taxıl və ya yarım batman pambıq alırdılar. V.Qriqoryevin yazdığından məlum olur ki, Naxçıvan çayından çəkilən arxın suyundan istifadə edən ətraf kəndlərin əhalisi miraba "hədiyyə" kimi ya heyvan, ya taxıl və yaxud başqa məhsullar verirdilər (88, s. 55).

Xanlıqda xandan sonra ikinci adam vəzir sayılırdı. O, əsasən xanlığın daxili və xarici siyasəti ilə bağlı işləri yerinə yetirirdi. Başqa xanlıqlarda olduğu kimi Naxçıvan xanlığında da məhkəmənin üç forması fəaliyyət göstərirdi: divan- dövlət əhəmiyyətli və vacib cinayət tərkibli işlərə baxırdı. Bu işi əsasən xan özü həll edirdi. Çətin anlarda birinci olaraq axundun fikrini soruşurdu.

Şəriət məhkəməsi varislik, nigah, əmlak və digər məsələləri həll edirdi. Naxçıvanda üç axund fəaliyyət göstərirdi. Şeyxülislam, Qazı və Pişnamaz. Bunlar xana tabe deyildilər, özlərinin ruhani hakimiyyəti var idi (88, s. 58).

Üçüncü məhkəmə forması sənətkarların şikayətlərini həll edir və əsnaf adlanırdı (63, s. 66).

Naxçıvan xanlığının da siyasi-inzibati quruluşu digər Azərbaycan xanlıqlarında olduğu kimidir. Naxçıvan xanlığı özünün bütün rəsmi atributları ilə müstəqil dövlət olmuşdur. Bu müstəqilliyi təsdiqləyən əsas amillərdən biri Naxçıvan xanlarının hamısının Kəngərli tayfasından olmaları və xanlıqda hakimiyyətə tam sahiblik etmələridir. Onların müstəqil apardığı daxili və xarici siyasət, xanlığın ərazisi, bayrağı və paytaxtı, inzibati-ərazi bölgüsü, pulu və qoşunu müstəqil dövlətə xas olan əsas atributlardır.

## 1.3. Naxçıvan xanlığında ordu quruculuğu

Azərbaycan xanlıqlarının, o cümlədən bu xanlıqlardan biri olan Naxçıvan xanlığının yaranması və fəaliyyət göstərməsi problemini araşdırarkən hərbi işin öndə olduğu apaydın görünür. Çünki xanlığın müstəqil yaşaması, iqtisadi-siyasi inkişafı güclü hazırlıqlı döyüşçüləri olan ordudan çox asılıdır. Müstəqilliyi qorumaqla bərabər xanlıq qoşunları daxildə sakitliyi bərpa edir, həm də xarici müdaxiləçilərlə yeri gələndə döyüşürdülər. Elə bu səbəbdən də hərbi qüvvələrə göstərilən qayğı xanlığın başlıca vəzifəsi hesab olunurdu (117, s. 40).

Naxçıvan xanlığı yarandığı ilk gündən Heydərqulu xan hərbi qoşunun yaradılmasına ciddi fikir verirdi. Ancaq Naxçıvan xanlığında olan hərb sənəti dərindən öyrənilmədiyi üçün nəşr edilən monoqrafiyalarda da bu haqda səthi məlumat verilmişdir. Buna əsas səbəb Naxçıvan xanlığının hərb sənətinin tədqiqat mövzusu olmaması olub desək, heç də yanılmarıq. Çünki xanlıq mövcud olana qədər Naxçıvan hərbiçiləri, o illərin dili ilə desək,

“Naxçıvan səvariləri (süvariləri)” adı altında şərq ölkələrində məşhur idilər.

Naxçıvan xanlığının hərbi dəstələri haqqında ilk dəfə rus diplomatı V.N.Qriqoryev “Naxçıvan əyalətinin statistik təsviri.” (88) əsərində məlumat vermişdir. Onun yazdığından belə məlum olur ki, Naxçıvan xanlığının qoşunu 800 nəfər piyadadan və 200 süvaridən ibarət olub. Sıravi döyüşçülər, 1797-ci ildən sonra sərbazlar (piyada dəstələri) əsasən Naxçıvan və Ordubad mahallarından yığılırdı. Xana tabe olsalar da əsasən şahzadə Abbas Mirzənin əmrlərini yerinə yetirirdi. V.Qriqoryev göstərir ki, yaradılan hərbi dəstələrə sərhəng (polkovnik) hərbi rütbəsini daşıyan şəxs komandirlik edirdi. Bu komandir hökmən xanın hərbiçi qohumlarından olmalı idi.

“Təsvirlər” də Naxçıvan xanlığının ordusunda sərhəngdən savayı digər hərbi rütbələr də göstərilib: yaqover (podpolkovnik), sultan, naib. Hətta orada onların sayı da yazılıb: 8 sultan (yüzbaşılar), 16 naib (əlli onbaşılar), bir-neçə yüzbaşılar (onbaşılar) (88, s. 60-61).

Abbas Mirzənin Naxçıvan xanlarına əmr verdiyi illərdə Naxçıvan xanlığı tənəzzül dövrünü yaşayırdı. Artıq burada hər şey Fətəli şahın və onun oğlu Abbas Mirzənin zövqünə uyğun formalaşdırılırdı. Biz xanlığın müstəqillik illərinə aid bir sənəddə yazılanları təsvir etsək, onda V.Qriqoryevin yanıldığını görə bilərik. Hicri 1191-ci ildə (miladi 1777) Naxçıvanda hakimlik üsulu idarəsi Astrabad ölkəsinin bəylərbəyi Mürtəzaqulu xan Kəngərlinin nəvəsi Şükrulla xanın şəxsiyyətində cəmləşmişdi.

Naxçıvan ölkəsinin hakimi Şükrulla xan Kəngərli (Allah onun uca iqbalını daim eləsin) Kəngərli tayfalarından təşkil edilmiş atlı qoşun hissələrinin tərkibində təkmilləşdirmə işi həyata keçirilməsi üçün hicri 1194-cü ildə (miladi 1780) göstəriş vermişdir. Onun 10.000 atlı qüvvəsi çıxara bilən bir ərazi hakimi kimi həmin qüvvələrə sərkərdəlik etməsi faktı da fikrimizi bir daha təsdiq edir (51, s. 108).

Qeyd edək ki, göstərilən qoşun sayı həmin illərdə Naxçıvan xanlığının ərazisinin geniş olduğunu da təsdiqləyir. "Təsvirlər"dəki məlumata görə sərbazlar yürüş vaxtı 2 manat 50 qəpik gümüş pulla əmək haqqı və 2 batman çörək payı alırdılar. Onlar səxsi vergidən azad idilər. Müharibə qurtaran kimi sərbazlar gəldikləri mahallara geri dönür və yaşadıqları kəndlərdə təsərrüfatla məşğul olurdular.

V.Qriqoryev yazır ki, əvvəllər Naxçıvan xanlığında daimi qoşunlar yox idi, ancaq lazım olanda tüfəngçiləri bir yerə yığırdılar. Bunlar da mühafizə polisi rolunu oynayırdılar. Süvari dəstələr isə ancaq kəngərlilərdən ibarət idi. Baş rəisdən başqa, qalanları xanın qohumlarından seçilən 2 sultan, 4 naib, tələb edilən sayda yüzbaşılar hərbi süvari dəstəsini təşkil edirdi. Hər bir süvariyə ayda 40 manat gümüş pul və 2,5 batman çörək verirdilər. Atlar üçün ancaq qış zamanı hər aya 50 batman yem verirdilər. Bütün kəngərlilər şəxsi vergilərdən azad idilər. 300 nəfər süvarinin içərisindən seçilmiş 30 nəfər həmişə xanın yanında olurdu. Onlar hamısı xüsusi rəis Qullarağasıyevin idarəçiliyinə tabe idilər. Yaxşı xidmətləri üçün xan onlara yaşadığı kəndlərdə əkin sahələri verirdi (88, s. 60-61).

Qullarağası hələ Səfəvilərin hakimiyyəti zamanında yaradılmış bir hərbi vəzifə idi. Şəxsən xan sarayına məxsus bu qoşun hissələri Qafqazın Gürcüstan və s. məntəqələrindən tutulub qul kimi İrana aparılmış gənclərdən və eləcə də İranda doğulmuş qeyri-müsəlman millətlərdən təşkil olunurdu (51, s. 195).

Kəngərlilərdən bu qoşun növünə hərbi rəis təyin edirdilər. Sonralar xanlıq dövründə belə qoşun növü yox idi. Amma həmin vəzifəni daşıyanların varisləri, əsasən 1800-cü ildən etibarən Qullarağasıyevlər (kəngərlidirlər-M.Q.) familiyasını daşıyırdılar. Yeri gəlmişkən, yazıçı Eynalı Sultanovun atası və babaları da Qullarağasıyev soyadını daşıyıblar. Eynalı bəy isə ulu babası Kərim Sultanın şərəfinə Sultanov soyadını işlədib.

V.Qriqoryevin faktları maraqlı olsa da, xanlıq dövrünün,

ümumiyyətlə, XIX yüzilliyə kimi Naxçıvan hərb sənəti haqqında bəsit təsəvvür yaradır. Çünki çox qədim zamanlardan bəri Naxçıvanın olduqca maraqlı hərb tarixi vardır. Kəngərli süvari dəstələri birdən-birə yaradıla bilməzdi və onlar belə məharətlə, müxtəlif döyüş fəndləri ilə döyüşə bilməzdilər. Naxçıvan süvarilərinin keçdiyi orijinal bir hərb tarixi olan inkişaf yolu var. Məşhur "Kəngərli arxivi"ndəki sənədlərə görə, Naxçıvan uzun müddət Səfəvi dövlətinin xidmətinə "Naxçıvan səvariləri" adı altında Kəngərli tayfalarından yığma atlı dəstələr göndərirdi . Kəngərli süvariləri heç zaman piyada əsgər dəstələri kimi "sərbaz" adlandırılmayıb (129, s. 10, 54).

Burada bir məsələyə toxunmağı çox vacib sayırıq. V.Qriqoryevin yazdıqlarından belə çıxır ki, guya Naxçıvan xanlığının hazırlıqlı daimi qoşunları olmayıb və s. Hətta o yazır ki, sərbaz polkları Abbas Mirzə tərəfindən yaradılmışdır.

Digər xanlıqlarda daimi silahlı dəstələr muzdlu döyüşçülərdən ibarət olsalar da, Naxçıvan xanlığında bu iş tamam fərqli şəkildə idi. Yəni atlı dəstələr ancaq kəngərlilərdən təşkil olunurdu. Qeyri-nizami qoşun sayılsa da, çox hazırlıqlı idilər. Məsələn, Rusiya hərbi tarixçisi və yürüş iştirakçısı Platon Zubov yazır: "...Onlar haqqında fikir demək üçün gərək o qoşunları döyüş vaxtı müşahidə edəsən. Bunlar elə bil ki, qəzəblənmiş Allahın odu və ildırımıdırlar. Döyüş vaxtı göydən düşmənlərin lap mərkəzinə düşürlər, ölüm və dəhşət səpələyirlər. Elə o vaxtdan mənim gözlərim önündə baş verən müsəlman qoşunların möcüzəli igidliklərini sevinclə xatırlayıram" (103, s. 92).

Naxçıvan xanlığında atlı dəstənin-Kəngərli süvarilərinin vahid forma və xüsusi geyimləri olmuşdur. Hətta atların başlarına bağladıqları kaporlar-qırmızı parçalar onları digər döyüşçülərdən fərqləndirirdi. Kaporlar əla növ ipəklərdən- qanovuzdan yaxud atlazdan hazırlanırdı. Hamısının da döyüş qılıncları yanlarında olurdu. Hətta tüfənglər və digər silahlar istehsal olunandan sonra da süvarinin qılıncı yanında olurdu. Əyani olaraq XIX yüzilliyin

axırlarında çəkilən foto şəkillərdə bunu görmək mümkündür. Kəngərli süvarilərinin xüsusi geyimləri haqqında Tiflis arxivlərində rast gəldiyimiz bir sənəd də dediklərimizi təsdiqləyir (174, s. 139-144). Belə qeyri- nizami döyüşçü dəstələrinə çəriklər də deyilirdi (15, s. 76).

Naxçıvan xanlığına aid sənədlərdə maafların da adlarına rast gəlinir. Vergi və mükəlləfiyyətlərdən azad olunmuş maaflar da təhlükəli günlərdə, çərik döyüşçülər kimi xanın tələb etdiyi yerlərdə hazır olmalı idilər (15, s. 77). Amma Naxçıvan xanlığında sərhədlərin ən sədaqətli və etibarlı keşikçiləri Kəngərli süvariləri sayılırdı. Buna əsas səbəb isə Naxçıvan xanlığının əhalisinin əksəriyyətinin Kəngərli tayfasından ibarət olması idi. Qafqaz Aktlarında I Kalbalı xanın qoşunlarının sayının 12 min döyüşçüdən ibarət olması da qeyd edilib (66, s. 625-627).

Naxçıvan xanlığında artıq XVIII yüzilliyin axırlarında süvarilər odlu silahlardan istifadə edirmişlər. Naxçıvan xanlığında silah istehsalı ilə bağlı başlıca olaraq Naxçıvan və Ordubad şəhərlərində məşğul olurdular. Adları çəkilən şəhərlərin hər birində üç adam tüfəng, üç adam isə tüfəng qundağı hazırlayırdılar (147, v. 15, v. 16).

İstər xanlıq dövründə, istərsə də Naxçıvan xanlığının Rusiya tərəfindən işğalından sonra da Kəngərli süvariləri əvvəlki döyüş hünərlərini qoruyub saxlamışlar.

1829-cu ildən başlayaraq Rusiya hökuməti Kəngərli süvarilərini Şərqi Avropa ölkələrinə hərbi xidmətə də aparmışdır. Rusiya ərazisində, Polşada və Macarıstanda hərbi xidmətdə olan Naxçıvanın Kəngərli süvarilərinə aid saxlanılan arxiv materialları onların xanlıq dövründəki fəaliyyətlərini öyrənməyə əla mənbə sayıla bilər.

Qədim oğuz türklərinin aparıcı qollarından olan kəngərlərin tarixən müqəddəs bildikləri ana vətənləri Naxçıvan olub. Tarixin bütün mərhələlərində Azərbaycanın ayrılmaz tərkib hissəsi olan Naxçıvan Çuxur-Səd bəylərbəyliyinin tərkibində də xüsusi statusa

malik idi. Buna əsas səbəblərdən biri onun sakinlərinin əksəriyyətinin əla, çevik döyüşçü olmaları ilə əlaqəlidir.

Tanınmış alim Q.Voroşil yazır ki, Naxçıvan, Ermənistan və Cənubi Azərbaycan ərazisində ta qədimdən sabirlər, onoqurlar, ağhunlar və başqa türkdilli tayfalarla yanaşı, artıq V əsrdə sasani imperiyasını qorxuya salan güclü kəngər tayfa birlikləri də yaşamışlar. Bir sıra tədqiqatçılar kəngərlilərin hunlarla, yəni qədim türklərin büyük bir qolu ilə bağlayırlar.

VI əsr Suriya alimi I Mir Aba göstərir ki, Xosrov Ənuşirəvanın (531-579) başçılıq etdiyi fars qoşunları «542-ci ildə hun tayfalarından biri olan kəngərli ilə müharibə etmişdir» (26, s. 21).

Qafqaz müsəlman süvarilərinin döyüşlərini görən məşhur rus yazıçısı L.N.Tolstoy yazırdı: "Həqiqətən bu sərt diyarda iki əksqütblü şeylər-müharibə və azadlıq, qorxulu, həm də şairanə şəkildə birləşirlər" (118, s. 10).

Bu faktlar Kəngərli süvarilərinin öz igidlikləri ilə qədim zamanlardan şöhrət tapdığından xəbər verir. Qafqazın ən qədim sakinləri olan azərbaycanlılar əla at sürməyi, döyüş bacarıqları, sədaqətləri və digər yüksək əxlaqi keyfiyyətləri zaman-zaman hökmdarların nəzərindən yayınmamışdır. Naxçıvanın Kəngərli süvarilərinin keçdiyi tarixi hərbi yol tədqiqatçı alim F.Səfərli tərəfindən maraqlı, yeni faktlarla qələmə alınmış və onların hünəri önə zəkilmişdir (54).

Naxçıvan xanlığı Rusiya imperiyası tərəfindən işğal ediləndən sonra da Naxçıvan süvarilərinin cəsurluğu həmin dövlətin hökm - darlarının- çar hərbi dairələrinin diqqət mərkəzində olmuşdur. 1828-ci ildən sonra çar Rusiyası Azərbaycanda nizamlı süvari qoşunları-atlı dəstələri yaratmaq işinə ciddi cəhdlə girişməyə başladı. Çünki bu alayların döyüş hünərlərinə çar süvarilərinin özləri belə həsəd aparırdılar. Dağlıq yerlərdə Kəngərli süvariləri qorxmadan, özü də çox çevik döyüşlər nümayiş etdirirdilər. XIX əsrdə Rusiyanın Avropada apardığı müharibələrdə iştirak etmiş Kəngərli süvarilərinin qəhrəmanlıqları haqqında bu gün

də həmin ölkələrdə söhbət açanlar var.

Süvari qoşunlara çox ehtiyacı olan çar Rusiyası buna görə Naxçıvan süvarilərinə xüsusi imtiyazlar verir, onları özündən incik salmaq istəmirdi. Çünki rus hərbiçiləri bilirdilər ki, Kəngərli süvarilərinin 1828-ci ildə Fətəli şah Qacardan inciklikləri olmasaydı, onlar Abbasabad döyüşlərini udmayacaqdılar. Bunu qraf Paskeviçin özü lap əla bilirdi. Elə bu səbəbdən də o, ömrünün axırına kimi çalışırdı ki, çar hökuməti azad, sərbəst, müstəqil yaşamağı sevən Kəngərli süvarilərinin hüquqlarını, torpaqlarını əllərindən almasın. Paskeviç Naxçıvanda bir neçə müddət olmuşdu. Unutmamışdı ki, Şərqdə ən çevik, cəsur döyüş bacarığına malik bu insanlar Naxçıvanı həmişə gözəlliklər və maarif-mədəniyyət içində görmək əzmilə Rusiyanın apardığı müharibələrdə igidliklə vuruşurlar. Kəngərli süvariləri ilə bağlı məsələlərin araşdırılmasında diqqət veriləcək xüsusi sahələrdən biri onların geyimləri və silahlarının formasıdır. Kəngərli süvarilərinin hərbi geyimləri və silahları haqqında əlimizə gəlib çatan mənbələr əsasən XIX yüzilliyə aiddir. Bəs, görəsən onların əvvəllər hərbi geyimləri necə olub?

XVII-XVIII əsrdə yaşamış müəlliflər az da olsa bu haqda məlumatlar veriblər. Hələ digər vacib mənbələrə əsasən Kəngərli süvarilərinin qədim silahları haqqında yazmaq mümkündür. Bunun üçün köhnə qəbirüstü təsvirlər, arxeoloji qazıntılar zamanı tapılan şəxsi əşyalar və silahlar, həmçinin toplanılan etnoqrafik söhbətlər köməyə çata bilər.

XVIII əsrdə Rusiyanın artilleriya kapitanı Herber Qafqazda olan xanlıqların hamısında süvari qoşunların odlu silahlarla silahlandığı haqqında yazırdı. O, qeyd edirdi ki, süvarilərin atları çox qəşəng və iti sürətlidir, həmçinin hamısının odlu silahı və qılıncı var, bir az qismində isə ox- kamana rast gəlmək olur (84, s. 232).

Gürcüstan Milli Arxivinin fondlarında qorunan qalın bir qovluqda ancaq müsəlman atlı dəstələri-süvariləri haqqında

geniş və maraqlı məlumatlar var. Burada əsasən Dağıstan və Azərbaycanda təşkil edilmiş atlı alayları haqqında bilgilər üstünlük təşkil edir. Arxivdə Naxçıvan süvariləri, onların geyimləri (sadə və bayram geyimləri), silahları, döyüş atları haqqında sənədlər toplusu da vardır. Həmin sənəd 1841-ci ildə Naxçıvandan Varşavaya göndərilən Kəngərli süvariləri haqqındadır. Sənədlərdə süvarilərin Kəngərli tayfasının hansı qoluna mənsubluğu, yaşı, geyimi, atı, silahı və yaşadığı ünvanı haqqındakı məlumatlar çox incə mətləblərdən xəbər verir. Orada Naxçıvandan Tiflisə, sonra isə Varşavaya müsəlman atlı alayına göndəriləcək Kəngərli süvarilərinin 18 aprel 1841-ci ildə yazılmış geniş siyahısı verilmişdir.

Varşavaya gedən süvarilərə ümumi rəhbərliyi I Kalbalı xanın oğlu İskəndər xan edirdi. Arxiv sənədinə görə atlı dəstəsinin rəhbərliyi aşağıdakı tərkibdə idi: 1 nəfər sultan, bir nəfər naib və iki nəfər vəkil. Bu atlı dəstəsi ümumilikdə 40 nəfərdən ibarət olub. Burada dəstəyə qulluq edən 6 xidmətçi də Kəngərlidir. Bu sənəddə hələ rus komandanlığı altında təşkil edilməyən milli süvarilərimiz, onların hərbi geyimləri və digər maraqlı məsələlər haqqında geniş məlumat vardır (174, s. 139-144). Çünki sonralar süvari dəstələri rus kazaklarının dəstələri şəklində təşkil olunub.

Varşavaya göndərilən süvarilərin hərbi geyimlərinə gəlincə qeyd edək ki, bu, onların bayram və hərbi parad geyimləridir: tünd yaşıl rəngli zərif mahud çuxa. Bu çuxanın astarı, qolları da daxil olmaqla qırmızı qanovuzdandır. Şalvarları yarımipəkdir. Köynəkləri qırmızı şilədən, döş hissəsi isə qanovuzdandır. Alt paltarları göy rəngli çitdən, geydikləri uzunboğaz çəkmələr çox yüngüldür. Bu çəkmələrə "Qarabağ çəkmələri" deyirlər. Çiyinlərinə saldıqları yapıncı qara rənglidir. Dağıstanın qara mahudundan tikilmiş başlıqları da var. Papaqları da bayramsayağıdır .

Döyüş atları Qarabağ kəhərləridir. Sənədlərdə atların rəngi, nişanələri, boylarının hündürlüyü, hətta bəzəkləri haqqında ətraflı məlumatlar yazılıb. Orada deyilir ki, atların yüyənləri və

sinəsindəki bəzəklər təmiz gümüşdəndir. Hətta atın sahiblərinin, yəni süvarilərin çiyinlərindəki aşırmadakı patrondaş (patron qabı da deyilir) gümüşlə bəzədilib. Aşırmanın üzü də təmiz gümüşdən hazırlanır. Süvarilərin çiyinlərinə asdıqları tüfənglər yüngül və gödək lüləlidir, qundağında gümüşlə bəzəklər işlənmişdir. Onların tapançaları "Danisxa" markalıdır (174, s. 139-144). Deməli, onlar üçün silahlar xüsusi hazırlanmışdır.

Kəngərli süvarilərinin milli hərbi geyimləri və silahları bütün Avropanı heyrətə gətirirdi. Naxçıvandan Tiflisə, oradan da Varşavaya gedən Naxçıvan süvariləri həmişə diqqət mərkəzində saxlanılırdı. Bu süvarilərin özünəməxsus döyüş taktikaları var idi. Həmin süvari dəstəsindən düşmən üzərinə qəflətən hücum etmək, düşməni mühasirəyə almaq, döyüş zamanı düşmən arxasına keçib gözlənilmədən zərbə endirmək üçün istifadə olunurdu.

Kəngərli süvarilərinin hərbiçi varisləri Azərbaycanda və Rusiyada, eləcə də Türkiyə və İranda da hərb sənətinin inkişafında böyük rol oynamışlar.

## 1.4 Naxçıvan xanlığının qonşu xanlıqlarla siyasi əlaqələri

Naxçıvan xanlığının qonşu xanlıqlarla siyasi əlaqəsinin izahını vermək üçün xanlığın mövcud olduğu dövrü iki yerə ayırırıq: 1747-1797; 1798-1828.

1747-1797-ci illərdə Naxçıvan xanlığı müstəqil olduğundan daxili və xarici siyasətini özü müəyyənləşdirirdi. 1798-1828-ci illərdə Naxçıvan xanlığı yarımmüstəqil olduğu dövrdə öz siyasətini müstəqil apara bilmirdi. Ona görə ki, İranın vassalı idi.

Araşdırmalar göstərir ki, Naxçıvan xanlığı Qarabağ, İrəvan, Xoy, Maku, Qaradağ və Gəncə xanlığı ilə hələ Heydərqulu xan Kəngərlinin vaxtında yaxın dostluq münasibətləri yaratmışdı.

Qarabağ xanı Pənahəli xan 1751-ci ildə Pənahabad qalasının tikilməsində Naxçıvandan da memarlar dəvət etmişdi. Bu haqda Qarabağ xanlığının tədqiqatçıları yazırlar: "Qalanı Naxçıvandan,

Təbrizdən və Ərdəbildən dəvət edilmiş ən yaxşı ustalar tikdilər. Qalanın iki qapısı vardı: İrəvan və Gəncə" (62, s. 52).

Mirzə Adıgözəl bəy "Qarabağnamə"də yazır: "Məhəmmədhəsən xan (Qarabağdan) qayıtdıqdan sonra, Pənah xan, qaradağlı Kazım xan, naxçıvanlı Heydərqulu xan və gəncəli Şahverdi xan məsləhət məclisi qurdular" (34, s. 42). Buradan görünür ki, Naxçıvan xanlığı yarandığı ilk gündən onun yaradıcısı Heydərqulu xan xanlığın müstəqilliyini qorumaq üçün özünə hərbi müttəfiqlər axtarmışdır. Naxçıvan xanlığı hələ Heydərqulu xanın hakimiyyəti dövründə Qarabağ xanı Pənahəli xanla hərbi siyasi ittifaqa girdi (117, s. 123).

Adları yuxarıda çəkilən xanlıqların xanları və bütün Şirvan ölkəsinin hakimi, Şəki xanı Hacı Çələbinin onların ərazilərinə hücumundan ehtiyat edirdilər. Çünki o vaxtlar Quba xanlığı, Şəki xanlığı, Qarabağ xanlığı və Xoy xanlığı hərbi cəhətdən güclü xanlıqlar hesab edilirdi.

Pənah xan, Kazım xan, Heydərqulu və Şahverdi xan o zamanlar Cənubi Qafqazda hərbi cəhətdən güclü olan Kartli-Kaxetiya çarı II İrakliyə kömək üçün müraciət etdilər və onlar Gəncənin yaxınlığındakı Qızılqayada görüşməyi qərara aldılar. 1752-ci il martın 21-də xanlar II İrakli ilə görüşdülər (123, s. 37). Ancaq II İrakli onlara tələ qurduğundan xanların danışıqları alınmadı. II İrakli hiylə işlədərək onları həbs etdirdi (37, s. 42). Bu əhvəlatdan xəbər tutan Hacı Çələbi xan II İraklinin dəstəsinə hücum edərək Azərbaycan xanlarını əsirlikdən qurtardı (34, s. 42-43).

Heydərqulu xanın vəfatından sonra İranda hakimiyyətdə olan Kərim xan Zənd onun oğlu Hacı Məhəmməd xanı aldadaraq Şiraza aparıb həbs etdirmişdi. Kərim Zənd istəyirdi ki, Naxçıvan xanlığı öz siyasətini Zəndlər sülaləsinin siyasətinə uyğun aparsın. Belə bir təklif Naxçıvan xanlarını razı salmadı.

Qeyd edək ki, XVIII əsrin 60-80-ci illərində cənubda Xoy, şimal-şərqdə Quba və şimal-qərbdə Qarabağ xanlıqları ən güclü

və qüdrətli xanlıqlar idi (15, s. 128)

Araşdırmalar zamanı əldə edilən bir sənəddə Qubalı Fətəli xanın 1782-ci ildə Rusiya çariçası II Yekaterinaya yazdığı məktubda Naxçıvan xanlığı haqqında da məlumata rast gəldik. Bu səbəbdən ehtimal edirik ki, Naxçıvan xanlığının Quba xanlığı ilə də münasibətləri olmuşdur. Məktubun mətnini verməzdən əvvəl qeyd edək ki, bu ehtimal həqiqətə çox yaxındır. Çünki Naxçıvan xanlığına müttəfiq olan xanlıqların bəzilərini Quba xanı Fətəli xan özündən asılı vəziyyətə salmışdı (38, s. 151-153). Onun Naxçıvan xanlığına bəslədiyi münasibət haqda heç nə deyə bilmərik. Amma Fətəli xanın şiə təriqətində olması mövcud münasibətləri təsdiqləyən şərtlərdəndir: “Hər iki müttəfiq-Qarabağ xanı İbrahim xan və Kartli-Kaxetiya çarı II İrakli, Mustafaqulu xana, Gəncə xanı Məhəmmədhəsən xana və onların hakimiyyəti altında olanlara qarşı qəddarcasına hərəkət edir, onların tabeliyində ərazini iki yerə bölüb vergi toplayırlar. Müttəfiqlərin bu hərəkəti gələcəkdə Naxçıvan, Təbriz və bütün Azərbaycanı tutmaq təhlükəsi törədə bilər” (179; 65, s. 180).

Naxçıvan xanlığının siyasi tarixini xronoloji ardıcıllıqla izləsək görərik ki, Abbasqulu xan Kəngərli (sonralar Naxçıvanski) hakimiyyətdə olduğu illərdə qonşu xanlıqlardan İrəvan, Qarabağ, Xoy xanlıqları və Kartli-Kaxetiya çarlığı, yəni Gürcüstanla çox yaxın münasibətlər yaratmışdır. Heç təsadüfi deyil ki, XVIII əsrin 80-ci illərində o, İrəvan xanı Hüseynəli xanın, Qarabağ xanı İbrahimxəlil xanın, Kartli-Kaxetiya çarı II İraklinin köməkliyi ilə Naxçıvan xanlığına hakim olmuşdu (18, s. 49). Hətta İrəvan xanı Hüseynəli xan ölümündən əvvəl II İraklinın göstərişi ilə Naxçıvan Kəngərlilərinin ağsaqqalı II Kərim Sultana və xanlığın əyanlarına, şəhərin ağsaqqallarına məktub yazaraq bildirirdi ki, Abbasqulu xanın Naxçıvana xan təyin olunması məsləhət görülür (154, s. 53).

Hələ 1783-cü ildə İsfahanlı Əlimurad xan Naxçıvan xanlığını devirmişdi. Buna görə də Abbasqulu xan Qarabağ xanlığına

pənah aparmış və orada sığınacaq tapmışdı. Həmin vaxt Xoylu Əhməd xan öz müttəfiqi İbrahimxəlil xana söz vermişdi ki, Abbasqulu xanın hakimiyyətini bərpa edə bilər, amma bu şərtlə ki, Təbrizin alınmasında İbrahim xan yaxından hərbiköməklik göstərsin. Naxçıvan xanlığında gözü olan Qarabağ xanı istəyirdi ki, Naxçıvan xanlığı Qarabağ xanlığından asılı olsun (82, s. 177).

Lakin hadisələr İbrahim xanın istədiyi kimi olmadı. Təbrizi şəhərin varlı təbəqəsinin köməkliyi ilə ələ keçirən Əhməd xan əldə etdiyi qənimətdən müttəfiqi İbrahim xana heç nə vermədi. Bundan başqa naxçıvanlı Abbasqulu xanı öz himayəsi altına aldıqdan sonra onun adına fərman verdi. Həmin fərmana görə, Abbasqulu xan Əhməd xan tərəfindən Naxçıvan xanı (hakimi) təyin edildi. Fərmanda Əhməd xan Abbasqulu xanı özünün oğulluğu kimi qeyd edir və naxçıvanlıların kiçikdən böyüyə qədər ona tabe olmasını tələb edirdi (15, s. 129).

Qeyd edək ki, Azərbaycan xanlarını idarə edən xanlar öz şəxsi mənafeləri naminə tez-tez xarici siyasətlərini tənəzzülə doğru aparırdılar. Naxçıvan xanlığının ən yaxın müttəfiqlərindən olan Xoy xanlığını idarə edən Əhməd xanın hərbi sahədə qazandığı uğurlar onu Azərbaycanın hər yerində hörmət və böyük nüfuz qazandırmışdı (81, s. 2).

Qarabağ xanı İbrahimxəlil xanın və Xoy xanı Əhməd xanın Naxçıvan xanlığını işğal etmələri polkovnik Burnaşevi də çox narahat edirdi. Qeyd edək ki, polkovnik S.D.Burnaşev Rusiyanın Kartli-Kaxetiya dövlətindəki nümayəndəsi idi. O, Gürcüstanda 1783-1787-ci illərdə hərbi diplomatik fəaliyyətdə olmuşdur. Burnaşevin ulu babaları Krım xanları olan Gireylər nəslindən idi. Onun atası Menqli Girey rus çarı İvan Qroznının hakimiyyəti illərində Rusiya təbəəliyini qəbul etmişdi. S.D.Burnaşev Qafqazda hərbi xidmətdə olarkən tarixi-etnoqrafik oçerklər yazmışdır. Onun Qafqaz haqqında coğrafi, daha doğrusu, kartoqrafik işləri çox qiymətli olsa da, tədqiqatçılar arasında öyrənilməmiş qalmışdır. Burnaşev (8 oktyabr 1743-31 mart 1824) 82 yaşında

Kurskda vəfat etmiş və orada dəfn edilmişdir (144, s. 233).

S.D.Burnaşev Qafqazın hərbi rəislərindən biri olan P.S.Potyomkinə yazdığı raportda xəbər verirdi ki, iyun ayının 12-də Naxçıvan xanlığından II İraklinin sarayına gəlmiş nümayəndə İbrahimxəlil xana qarşı kömək etməyi xahiş etmişdir. Burnaşev raportu 1786-cı il iyul ayının 20-də imzalamışdı . Ona görə də polkovnik Burnaşev Xoy və Urmiya xanlarına yazdığı məktubda onlardan tələb edirdi ki, Naxçıvan xanlığını müdafiə etsinlər (18, s. 59).

Əhməd xan Naxçıvan xanlığının müttəfiqi idi. Urmiya xanlığını isə onun kürəkəni Məhəmmədqulu xan idarə edirdi (82, s. 195)

Xoy xanı Əhməd xan Rusiya dövlətinə dərin rəğbət bəsləyirdi. Əslində o Rusiya ilə müttəfiq olmaq istəyirdi ki, İran-Türkiyə hücumlarının qarşısı alınsın və xanlığın müstəqilliyini saxlaya bilsin (82, s.176).

P.Q.Butkovun yazdığına görə, II Yekaterina 1784-cü ildə iyunun 21-də knyaz Potyomkinə bu haqda xüsusi tapşırıq vermişdi (82, s. 176).

Xoy xanlığının hakimi Əhməd xan Cəfərqulu xan Kəngərliyə də hakimiyyətə gəlməsinəköməklik edirdi. Bu baxımdan rus hərbi tarixçisi P.Q.Butkovun yazdıqları maraqlıdır: "…lakin Naxçıvan xanı Cəfərqulu xanı öz himayəsinə götürüb. …onun işlərinə qarışmağa ixtiyarı yoxdur. Çünki sahib olmaq üçün İsfahanın hakimi tərəfindən fərman Cəfərqulu xana verilmişdir" (82, s. 177).

Xoylu Əhməd xan öz qardaşı uşaqlarının qəsdi nəticəsində 1786-cı ilin fevralında həlak oldu. Onun yerinə qardaşı Şahbaz xanın oğlu Cəfərqulu xan keçdi. Cəsarət və şücaətdə məşhur olan Cəfərqulu xan qısa bir müddətdə böyük qoşun toplayaraq qisas almaq və xanlığı xilas etmək üçün müharibəyə başladı (15, s. 133). Ona Marağalı Əhməd xan, Urmiyalı Məhəmmədqulu xan (Əhməd xanın kürəkəni) yardım edirdilər (82, s. 195).

Gürcü çarı II İrakli Cəfərqulu xanın rəğbətini qazanmaq və Xoy xanlığı ilə Kartli-Kaxetiya çarlığı arasında münasibətləri yaxınlaşdırmaq məqsədilə Cəfərqulu xanın qulluğuna 800 nəfər bacarıqlı döyüşçü də göndərdi. Əhməd xanın asılı saxladığı xanlıqlar, onun ölümündən sonra yenidən öz müstəqilliklərini bərpa etdilər.

1787-ci ildə I Kalbalı xan Naxçıvan xanlığının xarici siyasət kursunu müstəqil müəyyənləşdirdiyi üçün Qacarlar onu sevmirdilər. Çünki onun hakimiyyəti illərində Naxçıvan xanlığı tam müstəqilliyini yenidən bərpa etmişdi. I Kalbalı xan Ehsan xan oğlu bir vaxtlar Naxçıvana hakimlik etmiş Murad xanın varisi idi.

Naxçıvan xanlığının hərb tarixini dərindən öyrəndikcə həmin illərdə aparılan diplomatiyanın və müdafiə döyüşlərinin aktuallığı daha aydın nəzərə çarpır.

Bir sıra tədqiqatçılar yazırlar ki, dövlət qurumlarını xatırladan xanlıqlar ancaq bir-biriləri ilə dava-dalaş aparmaqla məşğul olublar və s. Bu fikir heç də tamamilə doğru deyildir. Çünki yeni sənədlər tapıldıqca aşkar olur ki, xanlıqlarda nəinki hərbi iş, həm də iqtisadiyyat, maarifçilik, quruculuq işləri sürətlə inkişaf edib. Həmin illərdə Azərbaycan xanlığının qazandığı müstəqilliyi ancaq döyüşməklə qorumaq olardı. Bir neçə güclü xanlıqlar birləşərək, digərlərini işğal etmək məqsədini güdürdülər. Tədqiqatlar göstərir ki, digər xanlıqlar öz aralarında hərbi, iqtisadi əlaqələri gücləndirməklə belə işğallara son qoymaq arzusu ilə müttəfiqlik yaradırdılar.

Naxçıvan xanlığının ilk müttəfiqlərindən biri, qədim tarixə malik Qaradağ xanlığı idi. Səfəvilərin hakimiyyəti zamanında Qaradağlılar da Kəngərlilərlə birlikdə hərbi fəaliyyətdə olmuşlar.

Nadir şah Əfşar hakimiyyət başına gəldikdən sonra ona tabe olmayan Kazım xan Qaradağlının gözləri çıxarılmışdır. Ancaq 1747-ci ildə o, Qaradağ xanlığının əsasını qoymuş və 1747-1752-ci illərdə xanlığı idarə etmişdir (15, s 21). Naxçıvan xanı Heydərqulu xanın yaxın müttəfiqlərindən biri olmuşdur.

Naxçıvan xanlığının sıx diplomatik münasibətlər saxladığı müttəfiqlərindən biri Maku xanlığı idi. Maku xanlığının (1747-1778) əsasını qoyan Əhməd Sultan Bayat tayfasındandır. Hələ Şah Abbas Maku qalasını Mahmudi kürt tayfalarından qorumaq üçün Bayat türk tayfalarını qalaya köçürmüşdü. Sonralar Şah Sultan Hüseyin 1705-1706- cı illərdə (hicri 1117-ci ildə) İrəvan ətrafında yaşayan bayatların üç yüzə yaxın ailəsini buraya köçürtdü. Bayatlar Maku xanlığının iqtisadi və siyasi hakimiyyətinə hakim olduqlarından müstəqil siyasət aparırdılar.(15, s 24, 25). Bu səbəbdən də Naxçıvan xanlığı ilə möhkəm münasibətləri yaranmışdı. Sonralar I Kalbalı xan öz qızını Makulu Əli xana ərə vermişdi. Belə qohumluq bu iki xanlığı daha da sıx tellərlə bir-birinə bağlayırdı. Hətta dostluq münasibətləri xanlıqdan sonrakı dövrlərdə də qırılmamış və 1920-ci ilədək davam etmişdir.

Naxçıvan xanlığının daha sıx əlaqə, müttəfiqlik yaratdığı İrəvan və Xoy xanlığı idi. Bu xanlaqları çox yaxın qonşu olmaqlarından savayı, həm də qohumluq telləri bağlayırdı. Naxçıvan xanlığı yarandığı bir gündən İrəvan xanlığı ilə müttəfiq olmuşdur. Naxçıvan xanlığının ən yaxın müttəfiqlərindən biri olan İrəvan xanlığına aid Tiflis arxivlərindən tapılmış yeni sənədlər, aparılmış diplomatik yazışmalardan məlum olur ki, İrəvan xanları da Azərbaycanın müstəqilliyi uğrunda böyük işlər görmüşlər. Qeyd etmək yerinə düşər ki, I Kalbalı xanın hakimiyyəti illərində Naxçıvan xanlığının ən yaxın hərbi müttəfiqi İrəvan xanlığı olmuşdur. Çox qədimlərdən oğuz türklərinin vətəni olan İrəvan tarixi necə varsa dərindən araşdırılıb yazılarsa, onda ermənilərin yazdıqlarının hay-küydən ibarət olduğu görünər. XIX əsrin sonlarında İrəvan şəhərində azərbaycanlılar əhalinin say tərkibi etibarilə, habelə ticarətdə və kiçik sənaye müəssisələrində üstün mövqelərini qoruyub saxlaya bilmişdir. İrəvan şəhəri XX əsrə doğru Azərbaycan şəhəri kimi addımlamaqda davam edirdi (21, s. 4-5).

1807-ci ildən sonra bu müttəfiqlik əvvəlki gücdə olmayıb.

O, bu illərdə İrəvan xanlarının apardığı siyasəti dəstəkləmirdi. Bunun bir çox səbəbləri var. O səbəblərdən biri İrəvan qalasını Paskeviçə təslim etdi. Bu səbəbi erməni tarixçiləri 1972-ci ildə İrəvanda nəşr etdikləri sənədlər toplusunda yazıblar. Onların yazdıqlarında məlum olur ki, Hüseynqulu xanın ən yaxın adamlarından biri İrəvan məliyi Abrahamın oğlu Məlik Ağamalıyan Saak olmuşdur. Qeyd edirlər ki, İrəvan xanı ermənilərdən ibarət piyada qoşun dəstəsi yaratmışdı və adını yuxarıda çəkdiyimiz məliyi komandir təyin etmişdi. Müəlliflərin həmin piyada qoşun dəstələri haqqında yazdıqlarını olduğu kimi veririk: "1826-1828-ci illərdə Rusiya-İran müharibəsində rus ordusuna çox böyük xidmətlər göstərmişlər" (134, s. 659). Bəzi tədqiqatçıların səbəbi Abbasabadda axtarmaları doğru deyil. Çünki I Kalbalı xan və oğlu I Ehsan xan belə erməni qoşun birləşmələrinin əleyhinə idilər. Müstəqilliyi əldə edən xalq ancaq özü onu qorumaq sədaqətində olar. Əldə etdiyimiz sənədlərə görə, Kəngərli süvariləri ancaq və ancaq özləri Naxçıvan uğrunda döyüşmüşlər.

İrəvan xanlığının apardığı diplomatiyanı əks etdirən məktublar külliyatı haqqında bir az ətraflı danışmağı məqsədəuyğun sayırıq.

1747-ci ildə Azərbaycanda yaranan xanlıqlardan biri də İrəvan xanlığı olub. Əsasən Dəvəli (Ziyadoğlu) Qacarların idarə etdiyi İrəvan xanlığı da Naxçıvan xanlığının siyasi taleyini yaşamışdır. O da Naxçıvan xanlığı kimi 1747-1797-ci illərdə müstəqil dövlət olmuş, 1797-1828-ci illərdə isə burada Fətəli şahın hakimiyyəti hökm sürmüşdür. Tarixən qədim Azərbaycan torpaqlarını əhatə edən İrəvan xanlığı mürəkkəb və uzun tarixi yol keçmişdir. Sovet hakimiyyəti illərində erməni tarixşünasları İrəvan xanlığının yaranması, ictimai-iqtisadi vəziyyəti və siyasi tarixi haqqında arxiv sənədlərini öz xeyirlərinə dəyişmiş, uydurma kitablar yazmışlar. Bu azmış kimi İrəvan və Naxçıvan xanlıqlarının tarixini şərqi Ermənistanın tarixi kimi yazıb ictimaiyyəti aldatmışlar. Bu sırada M.Q. Nersesyanın, Q.A. Ezovun, B.M. Arutunyanın, V.R.Qriqoryanın yazdıqlarında olan kobud səhvləri, uydurmaları

İrəvan xanlığı haqqında tədqiqat aparan alimlərimiz elmi faktlarla, ilkin mənbə olan arxiv sənədləri ilə təkzib etmişlər. Ciddi tədqiqat əsərlərindən Fuad Əliyevin, Urfan Həsənovun "İrəvan xanlığı" (17) və "İrəvan xanlığı"(27) monoqrafiyalarını qeyd etmək yerinə düşər.

Eləcə də Naxçıvan xanlığının tarixinə dair yazılmış monoqrafiyalarda İrəvan xanlığı ilə bağlı xeyli məsələlərə toxunulmuşdur. Akademik İsa Həbibbəylinin "İrəvan şəhəri necə varsa" (21) adlı elmi məqaləsi tariximizdə mühüm hadisədir. Çünki müəllif bu məqaləsində İrəvan şəhərinin tarixinə aktual yanaşmış və saxtakar ermənişünaslara layiqli cavab vermişdir.

Hər bir xanlığın tarixində olduğu kimi, İrəvan xanlığının keçdiyi inkişaf yolunda onun xarici siyasəti əsas yer tutur. Gürcüstanın paytaxtı Tiflis şəhərindəki Milli Əlyazmalar Mərkəzində görkəmli rus şərqşünası K.N.Smirnovun 39 nömrəli fondunda XVIII əsrdə İrəvan xanlarının qonşu dövlətlərlə yazışmaları (Məktublar külliyyatı) saxlanılır (154).

İrəvan xanlarının məktubları (təxminən 197 məktub) 1936-cı ildə mütəxəssis alim K.N.Smirnov tərəfindən kitab kimi nəşrə hazırlansa da, bu günədək nəşr olunmamışdur .

Alimin "Giriş"də yazdıqlarından məlum olur ki, o, ərəbşünas C.Qayıbovla birlikdə İrəvana yaradıcılıq ezamiyyətinə getmişdir. K.N.Smirnovun yazdığına görə, məktubların orijinalı Ermənistanın Ədəbiyyat Muzeyində saxlanılır. Məktubların əksəriyyəti fars dilində, bir neçəsinin isə ərəbcə olduğunu qeyd edən tərcüməçi daha sonra bildirir ki, diplomatik yazışmaların hamısının fotosurətini çıxartmış və gətirib Tiflisdə Gürcüstan Milli Tarix Muzeyinə təqdim etmişdir (157)

Maraqlı haldır ki, şərqşünas Smirnov İrəvan xanlarının diplomatik məktublarını olduqca səmimi bir dillə oxuculara təqdim edir. O, bu məktublarla tanış olandan sonra Rusiya hərbiçilərinin Azərbaycan xanlıqları, o cümlədən İrəvan xanlığı haqqında olan bəsit fikirlərini kəskin tənqid etmişdir. Hətta

göstərir ki, bu diplomatik yazışmalara ancaq qibtə etmək olar. Məqamındaca deyək ki, Məhəmməd xanın hakimiyyəti dövründə İrəvan xanlığının diplomatiyasının çox orijinal olduğunu önə çəkən müəllif yazır ki, görəsən, gənc xanın apardığı siyasətin arxasında kim dayanırdı.

Müəllif belə bir maraqlı sual verir: Bəzən deyirlər ki, onun anası əsas diplomatik yazışmaların sahibidir. Belə ağıllı bir siyasəti istiqamətləndirən İrəvan Taleyranı kimdir? Sonra alim davam edərək deyir: "Gənc xan belə yüksək səviyyədə hərəkət edə bilməzdi, ola bilər, bəlkə bu onun Şadlı tayfasından olan anasıdır?"

Amma bu doğru deyil. Aparılan araşdırmalar göstərir ki, 1802-1804-cü illərdə İrəvan xanlığını Dəvəli Qacarların kürəkəni, Məhəmməd xanın bacısının əri Naxçıvanlı I Kalbalı xan idarə etmişdir (34). Ona görə də cəsarətlə söyləmək olar ki, bu dövrdə aparılan xarici siyasətin arxasında I Kalbalı xan dayanırdı. Deməli, K.N.Smirnovu heyrətləndirən İrəvan taleyranı naxçıvanlı I Kalbalı xan olmuşdur. Əslində dolayısı yolla alim bu suala elə belə bir sualla da cavab verib:

Aparılan araşdırmalar göstərir ki, həmin illərdə İrəvan xanlığını idarə edən İrəvan Taleyranı naxçıvanlı I Kalbalı xan idi.

K.N.Smirnov qeyd edir ki, məktublar külliyyatı nəfis xətlə yazılıb. Elə şairanə dildə yazılıb ki, bəzi yerləri tərcümə etməkdə çətinlik çəkirdik. Bu məktublarda İrəvan xanlığının münşisi (katibi) Mirzə Məhəmməd Müslüm (ədəbi ləqəbi Əl-Qüdsi) haqqında da ətraflı məlumat vardır. İrəvan xanlığının məktublar külliyyatını nəfis, orijinal və diplomatik dillə nəşrə hazırlayan da Qüdsidir.

Smirnov Qüdsi və onun yazı üslubu haqqında danışmaqla bərabər, həm də qeyd edir ki, Qüdsinin özü belə yazı formasına təxminən 40 səhifə ithaf etmişdir. Münşinin üslubu haqqında Smirnov yazır: "Qüdsinin üslub nümunələri göstərir ki, ruslar

Cənubi Qafqazın əyalətlərini tutmazdan əvvəl yuxarı təbəqənin mədəniyyət səviyyəsi işğalçıların fikirləşdiyi qədər köhnə, bəsit olmayıb. Xanlar utanırdılar ki, təhsilli insanlarda elmi yarımçıqlıq hiss olunsun (153, s.20).

Bu isə K.N.Smirnov kimi çox bilikli və nüfuzlu hərbi şərqşünasın "Məktublar külliyyatı"na verdiyi qiymətdir. Bunu Naxçıvan xanlığının da diplomatik məktublarına şamil etmək olar. Heç də əbəs yerə çar Rusiyası kimi böyük hərbi gücə malik olan dövlət Naxçıvanın cəsur xan sərkərdələri I Kalbalı xana və I Ehsan xana diqqət ayırmazdı. Naxçıvan ölkəsinə aid yazdığı kitablarda K. N. Smirnov müəyyən qədər ermənipərəst mövqe tutsa da, İrəvan xanlarının məktublarından vəcdə gəldiyini gizlətməmişdir. Və bu çapa hazır kitablarda Yermolovu, Qriboyedovu və Sisiyanovu tənqid atəşinə tutub. Məktublar külliyyatı olmadan İrəvan və Naxçıvan xanlıqları haqqında ətraflı, doğru-dürüst söhbət açmaq, yazmaq mümkündürmü? Əlbəttə ki, yox! Külliyyatda Türkiyə hökuməti ilə 13 məktub, o cümlədən Həsənəli xanın (Sarı Aslanın) 3 məktubu aşkar edildi. Dağıstan ləzgilərinə ərəb dilində 6 maraqlı məktub və gürcülərlə, ruslarla diplomatik yazışmalar xanlıqlar dövründə aparılan xarici siyasət bəzi tədqiqatçıların yazdıqları ilə üst-üstə düşmür.

Burada bir haşiyə çıxmaq yerinə düşərdi. Smirnov yazır: "1936-cı ilin əvvəlində 564 sənədi (12 qovluqda) Tiflisə gətirdim. Onlar əsasən fars və türk, bir neçəsi isə ərəb dillərində idi. Ən köhnə sənədlər XVI əsrə aiddir"(153,s.2). Əlbəttə alim sənədlərin orijinalını yox, fotosurətini dövlətin tapşırığı ilə Tiflisə gətirib. Onun yazdığına görə Qafqazda "Şərq dillərində olan sənədlərin kolleksiyası" Gürcüstan Milli Tarix Muzeyində olub (152,s.2).

K. N. Smirnovun şəxsi arxivində 13 səhifəlik bir əlyazma da saxlanılır. "Cənubi Qafqazın İran xanlıqları XVI-XIX əsrin sənədlərində". Burada Naxçıvan xanlığından da ətraflı söhbət açılır (152).

Həmçinin 50 səhifəlik "Eçmiədzin İrəvan sənədləri" (Üçk-

ilsədəki arxivdən gətirilən) bizim tariximizi əks etdirir (152). Bu arxivdə İrəvan xanının münşisinin naxçıvanlı naşir Molla Məhəmmədə yazılan məktubları vardır (153,s.53).

Hələ xanlıq yaranmazdan əvvəllər də Naxçıvan xanlarının ulu əcdadları olan Kəngərlilərin zəngin tarixləri vardı (154). Bu tarixin çox səhifələrini azadlıq uğrunda aparılan döyüşlər təşkil edir. Buna görə də 1747-ci ildən sonra hakimiyyət uğrunda mübarizə aparanlar həmin sərkərdələrin varisləri idilər. Amma tarixi siyasi şərait elə vəziyyət almışdı ki, ancaq və ancaq güclü, qorxmaz, cəsur və iradəli hərbiçilər Naxçıvanın müstəqilliyini qoruya bilərdilər. Bu baxımdan 1783-1784, 1787-ci illərdə Naxçıvana xanlıq etmiş Cəfərqulu xanın ulu babası Murad xan da vaxtı ilə Naxçıvanın hakimi olmuşdu. Naxçıvan xanlığının işğalçılara qismət ola biləcəyindən ehtiyat edən Cəfərqulu xan hakimiyyəti qardaşı I Kalbalı xana təhvil verdi. Özü isə Xoy xanlığına köçüb Əhməd xanın yanında yaşamalı oldu. O vaxtlar Xoy xanlığını idarə edən Əhməd xan (1786-cı ilin fevralında vəfat edib) Azərbaycanda olan bir çox xanlıqları, o cümlədən Naxçıvan xanlığını da özündən asılı vəziyyətə salmışdı (15, s. 128). Əhməd xan İrəvan xanları və Axalsıx paşası Süleymanla da yaxın dostluq münasibətləri saxlayırdı (82, s. 177).

Əhməd xan sui-qəsd nəticəsində həlak ediləndən sonra hakimiyyət taxtında onun qardaşı Şahbazın oğlanları oturmaq üçün mübarizəyə girişdilər. Elə başqalarının təhriki ilə sui-qəsdin təşkilatçısı da onlar idi. Mənbələrin yazdığına görə qəsdçilər hakimiyyətə gələ bilmədilər. Çünki onların öldürə bilmədikləri Cəfərqulu xan (Əhməd xanın qardaşı oğlu) çox cəsarətli və döyüşkən bir hərbiçi idi. Hadisələrin çox gərgin bir vaxtında o, çoxlu sayda döyüşçü toplaya bildi və Xoy xanlığına sadiq müttəfiqlərindən də yardım istədi (15, s. 133). Çünki müstəqil yaşamaq istəyində olan Xoy xanlığını məhv etmək istəyənlər əslində kənarda dayanan böyük qüvvələr idi. Cəfərqulu xana Marağalı Əhməd xan, İrəvan və Naxçıvan xanları, həmçinin

Kartli-Kaxetiya çarı II İrakli də yardım etdi (82, s. 195). Əlbəttə, II İrakli bu köməyində həmişə olduğu kimi, ikitərəfli diplomatik oyun oynayırdı. Onun həmişə ən ümdə arzısı Naxçıvan və İrəvan xanlıqlarının ərazisinə sahib olmaq idi. Buradaca bir haşiyə çıxmaq yerinə düşər və sonra toxunacağımız bir mətləbə də aydınlıq gətirmək üçün ipucu olardı. Arxiv sənədlərindən məlum olur ki, I Kalbalı xanın qardaşı Cəfərqulu xan xoylu Əhməd xanın ən yaxın silahdaşlarından olmuşdur (18, s. 60). Məhəmməd xanın bacısı Səltənət xanımı Əhməd xan, Tükəzban xanımı isə I Kalbalı xan almışdır. Bu səbəbdən hər iki xanlıq arasında etibarlı bir əlaqə vardı. Hər dəfə hakimiyyəti əlindən alınan Cəfərqulu xan Xoy xanlığına, Əhməd xanın yanına sığınmalı olmuşdu. II İraklinin şirnikləndirici təhriki ilə Qarabağ xanı İbrahimxəlil xan bir neçə dəfə Naxçıvan xanlığına yürüş də planlaşdırmışdı. Məqamındaca qeyd edək ki, hələ Pənahəli xan Nadir şahın onu izlədiyi illərdə Zəngəzurda Qara Murtuza bəyə məxsus yaylaqda məskunlaşmışdı. Öz tərəfdaşlarından dəstələr düzəldərək Gəncə, Naxçıvan və Şəki şəhərlərinə basqınlar edirdi (9, s. 406). Azərbaycanın əksər xanlıqlarında öz adamlarını yerləşdirən Qarabağ xanının yolunda əngəl olan Naxçıvan xanlığı, daha doğrusu xanlığı idarə edən kəngərlilər idi. Baxmayaraq ki, Abbasqulu xan onun dediklərini eləyirdi. Amma bu tayfanın digər söz sahibləri olduğunu anlayan Ibrahimxəlil xan xoylu Əhməd xanı da bu yürüşə qoşmaq istəyirdi. Bütün bu prosesləri diqqətlə izləyən rus komandanlığının Qafqazdakı xüsusi səlahiyyətli nümayəndəsi polkovnik S.D.Burnaşev P.S.Potyomkinə məlumat verirdi. S.D.Burnaşev Qarabağ xanına mane olmaq üçün Xoy və Urmiya xanlarına müraciət etdi ki, Naxçıvana köməklik etsinlər. Hadisələr o qədər gərgin vəziyyət almışdı ki, Naxçıvan xanlığı kömək üçün Rusiyaya müraciət etməli oldu (18, s. 59).

Cəfərqulu xanın zəifliyi ucbatından 1787-ci il mayın əvvəllərində İbrahimxəlil xan Naxçıvan qalasını tutdu və öz adamı olan Abbasqulu xanı hakimiyyətə gətirdi (18, s. 60). Bu prosesləri

diqqətlə izləyən I Kalbalı xan Naxçıvanı xilas etmək üçün öz tərəfdarlarını ətrafına topladı və bütün kənar qüvvələri məharətlə xanlığın ərazisindən çıxarda bildi. O qədər cəsarət göstərdi ki, II İrakli ilə İbrahimxəlil xanın Naxçıvanı mənimsəmək niyyətlərini tez bir zamanda puç elədi. Artıq bu vaxtlar Əhməd xan vəfat etmişdi (15, s. 133). Xoy xanlığına Hüseynqulu xan (Cəfərqulu xanın böyük qardaşı), sonralar cəsarətdə I Kalbalı xandan geri qalmayan Cəfərqulu xan Xoyski başçılıq edirdi. Qeyd edək ki, gizlində Naxçıvanı tutmaq uğrunda Xoy, İrəvan, Qarabağ və Kartli-Kaxetiya çarlığı arasında mübarizə gedirdi. Doğrudur, Cəfərqulu xan Xoyskinin hakimiyyəti illərində I Kalbalı xan bunu əsl dostluğa çevirə bildi. Ancaq ilk əvvəllər bu məsələ olduqca mürəkkəb idi. I Kalbalı xan hakimiyyətə gələn kimi onların hər biri ilə gizli danışıqlar apardı və vaxt qazanmaq üçün bunlarla müvəqqəti müqavilələr bağladı (123, s. 19-20).

Qafqazın ən böyük tacirləri, sonralar İbrahimxəlil xanın başağrısına çevrilən Qarabağ məlikləri I Kalbalı xanın cəsarəti və hünəri önündə, necə deyərlər, əmrə müntəzər idilər. Dağıstan xanlarında, camaatlığında və sultanlıqlarda, hətta gürcü çarlığında onunla hesablaşmalı olurdular. Artıq Naxçıvan xanlığı yeni inkişaf mərhələsinə qədəm qoymuşdu. Lakin 1792-ci ilin yanvarında Qarabağ xanı öz vədinə xilaf çıxaraq yenidən Naxçıvana hərbi yürüşə başladı (18, s. 63). Həmin ilin sərt qışında İbrahimxəlil xan öz qaynı Avar xanlığının hakimi Ömər xanla 11 min sayda qoşun toplayaraq Xan dikindəki Naxçıvan qalasını mühasirəyə aldılar. Naxçıvan xanlığını Kəngərli süvariləri igidliklə 6 gün müdafiə etdilər və bu vaxt I Kalbalı xan da onlarla birlikdə döyüşürdü. Onun göstərişi ilə döyüşçülər yeraltı lağımlarla qaladan kənara çıxıb əlbəyaxa döyüşlərə başladılar (123, s. 20). Həmişə Qafqazda özlərindən başqa məharətlə döyüşən tanımayan dağlı qoşunları Kəngərli süvarilərinin döyüşlərini görəndə çaxnaşmaya düşdülər. Bu vaxt Naxçıvanın müdafiəsində döyüşənlər arasında Cəfərqulu xan Xoyski öz qoşunu ilə, həmçinin Məhəmməd

xan öz döyüşçüləri ilə əsl sədaqət göstərirdilər (123, s. 19). Məhəmməd xan onlardan gənc olsa da, çalışırdı ki, düşmənə onlar kimi zərbə vursun. Çoxlu sayda qurban verən işğalçı qoşunlar qaçmağa üz qoydular. Tarixi mənbələr yazır ki, düşmən tərəf 1000 nəfər döyüşçü itirmişdi. Naxçıvan camaatı qalanın müdafiəsində şəhid olmuş hər üç-Naxçıvan, İrəvan və Xoy xanlıqlarının döyüşçülərini dərin ehtiramla torpağa tapşırdılar (18, s. 63; 123, s. 21).

Buna baxmayaraq Naxçıvana hərbi yürüş, İbrahimxəlil xanın Kalbalı xanla dostluğunun bünövrəsini qoydu (36, s. 82).

Sonralar Cəfərqulu xan və I Kalbalı xan daha yaxın müttəfiq kimi fəaliyyət göstərdilər. Hətta hər ikisi 1795-ci ildə Ağaməhəmməd şah Qacarın Tiflis üzərində qanlı yürüşündə məcburən iştirak etmişdilər. O, sonralar Rusiyalı general-leytenant Knorrinqə yazırdı "…mən canı-dildən Ağa Məhəmməd şaha xidmət etmişəm, onun çox yerləri işğal etməsində köməyimə görə günahkaram… " (66, s. 676-677).

Həmin ildə Cəfərqulu xan səfərdə olarkən, Abbas Mirzə Xoy qalasına hücum edərək onun qardaşını, arvadını və oğlunu girov götürdü (37, s. 69). Bundan sonra Cəfərqulu xan öz qoşunu ilə Maku qalasına çəkildi. Yaxın qohumu Bəyazid paşasının köməyi ilə qalanı müdafiə etdi. Abbas Mirzəyə təslim etmədi (66, s. 107, 111). Təhlükəsizlik məqsədi ilə sonralar qaynı Məhəmməd xan İrəvanskinin dəvəti ilə Koroğlu qalasında qalmalı oldu. Artıq o, bu vaxtlar Rusiya sərdarı Sisiyanovla danışıq aparırdı. I Kalbalı xan isə onu dilə tutmağa çalışırdı ki, Rusiya təbəəliyinə getməsin, onun ailəsini girovluqdan xilas edəcək. Xoy xanlığı və ona məxsus olan xəzinənin əlindən çıxdığını görən Cəfərqulu xan öz fikrində qəti idi (68, s. 340). Qafqaz aktlarında deyilir ki, elə 1804-cü ildə Cəfərqulu xan Rusiyaya sədaqət andı içir (67, s. 858).

1802-ci ildə Rusiya çarı I Aleksandr knyaz Pavel Dmitriyeviç Sisianovu (Sisiaşvilini) Qafqazın sərdarı təyin etdi. Qafqazın, o

cümlədən Azərbaycan xanlıqlarının işğal olunmasında ad çıxaran Sisiyanov gürcü knyazlarının nəslindən idi və 19 sentyabr 1754-cü ildə Moskvada doğulmuşdu. Mükəmməl hərbi təhsil alan Sisianov 1786-cı ildə polk komandiri təyin olunmuş, 1787-1791-ci illərdəki Rusiya-Türkiyə müharibəsində iştirak etmişdi. 1794-cü ildə Polşa üsyanının amansızlıqla yatırılmasında iştirak edən Sisianov Rusiya qoşunlarının Qafqaza yürüşü zamanı V.A.Zubovun köməkçisi işləmişdi. 1796-1797-ci illərdə Bakı qalasının komendantı (qalabəyisi) olan knyaz I Pavelin hakimiyyəti zamanında istefaya çıxmışdı. Ancaq adı amansızların siyahısında ön yerdə olan Sisianov yenidən 1802-ci ildə Qafqaza baş rəis, yəni sərdar təyin edilmiş, həm də Hacı Tərxanın (Həştarxanın) general-qubernatoru (hakimi) olmuşdur. O, Qafqazda olduğu müddətdə işğalçılıq planlarını sürətləndirmiş və bu yöndə ən amansız üsullardan, vasitələrdən istifadə etmişdir. 1802-ci ildə Rusiya dövləti adından Dağıstan feodallarını məcburi sazişə razı salmış, 1803-cü ildə Car-Balakəni, 1804-cü ildə Gəncə xanlığını işğal etmişdi. Necə deyərlər, uğurlu işğalçılıq siyasəti, amansız lovğalığı, iddiaları və güclülər qarşısında yaltaqlığı ilə ad qazanan Sisianovu İrəvanı, sonra isə Naxçıvanı işğal etmək planı lap əldən salmışdı (6, s.460). Xəfiyyələr (həm rus, həm yerli) ona məlumat vermişdilər ki, burada əsas maneə I Kalbalı xandır, əgər onu özünə tərəf çəkə bilsən, səssiz aradan götürərsən, necə ki, mayor Lisaneviçin gülləsi ilə Cavad xanı məhv etdin. Bu həmin Lisaneviçdir ki, sonralar Qarabağ xanı İbrahimxəlil xanı ailəliklə məhv etdi.

I Kalbalı xan yenə də Naxçıvanın müdafiəsi üçün diplomatik manevrləri sürətləndirmişdi. Qafqaz Aktlarının II cildində onun baş sərdar Sisianova yazdığı məktubun tərcüməsi verilib: "... Mən onları (söhbət Qacar şahlarından gedir–M.Q.) yaxşı tanıyıram. Onlara çox qulluq etdim, ancaq onlar bunun müqabilində gözlərimi çıxartdılar. Əgər bilsəm ki, Rusiya qoşunları bu yerlərdən qayıdıb getməsə, necə ki, qraf Zubovun qoşunları geri

döndü və bizim evlərimizi düşmənlərimiz dağıtdılar, onda Rusiyaya xidmət edərəm. Knyaz Sisiyanovu mənə pis adam kimi məlumatlandırıblar. əgər ruslar Gürcüstanda qərar tutarlarsa, onda mən sizin hökmdarınıza xidmət edərəm: Ayın 28-də (fevral ayında–M.Q.) İrana şahın yanına yola düşəcəyəm ki, patriarx Danili Naxçıvana gətirim".

I Kalbalı xan bu məktubu 6 fevral 1803-cü ildə yazıb (67, s. 633). Məlumat üçün deyək ki, Osmanlı imperiyasında yaşayan ermənilər istəyirdilər ki, Üçmüəzzindəki (Üçkilsədə) Danil patriarx olsun, David yox. Buna görə də Rusiya tərəfi İrəvan xanı Məhəmməd xandan və Naxçıvan xanı I Kalbalı xandan tələb edirdi ki, Danilin Tehrandan qayıtmasını təmin etsinlər, onda işğaldan kənarda qalarlar (134, s. 127-128).

Əlbəttə, Rusiya tərəfi də diplomatik hiylə işlədirdi. çünki ön planda Irəvan və Naxçıvan xanlıqlarını zəbt edib Rusiya imperiyasına qatmaq onların ən vacib planlarından biri idi.

Bölgədə vəziyyət gərginləşmişdi. Artıq 1804-cü ildə Rusiya və İran qoşunları döyüşməyə başladılar. Elə bu vaxt Fətəli şah I Kalbalı xana məktubla bildirirdi ki, ruslarla döyüşsün. Kəngərli arxivinə məxsus əlyazma sənədlərindəki məlumata görə I Kalbalı xan cavab verir ki, naxçıvanlılar rus qoşunları ilə döyüşməyəcəklər (129, s. 22-27).

1804-cü ilin mart ayında Fətəli şahın əmri ilə Pirqulu xanın qoşunları Naxçıvana hücum edir və Naxçıvan qalasını tuturlar (123, s. 31). Bu zaman artıq I Kalbalı xan döyüşçüləri ilə İrəvan qalasına çəkilmişdi. Mayor Montrezor 3 aprel 1804-cü ildə Qarakilsədən knyaz Sisianova göndərdiyi raportunda yazırdı ki, I Kalbalı xan Qacarlarla axıradək döyüşməyi qərara alıb (67, s. 806). Fətəli şahın oğlu Abbas Mirzə 60 min qoşun toplayaraq II İraklinin oğlu şahzadə Aleksandrla birgə İrəvan qalasına tələsirdi (123, s. 31).

Öz müstəqillikləri uğrunda döyüşmək üçün İrəvan qalasına sığınan I Kalbalı xana və irəvanlı Məhəmməd xana Fətəli şah

hədələyici məktublar göndərərək yazırdı ki, Irəvan qalasını onlara təslim etməsələr, girovluqda olan oğullarını öldürəcək (67, s. 611-612).

1804-cü il mayın 5-də knyaz Sisiyanov I Kalbalı xana məktub göndərmiş, tələblərini bildirmiş və həvəslə istifadə etdiyi "hədələmə" üsulunu da unutmamışdı: "çox razıyam ki, siz alicənablıq göstərərək Rusiyanın tərəfini saxlayırsınız. Nə vaxt iş uğurla nəticələnsə, Allaha and içirəm ki, siz–mənim dostum, Naxçıvan xanlığının taxtında oturacaqsınız". Knyaz Sisiyanov hər iki xanlıqdan tələb edirdi: 1) Peterburqa xeyirli olan Danili Üçmüəzzinə patriarx təyin etmək; 2) İrəvana rus qoşunlarını buraxmaq; 3) Rusiya çarına sədaqət andı içmək; 4) hər il 80 min rubl bac-xərac vermək. Knyaz Rusiya hökuməti adından I Kalbalı xana bildirirdi: 1) Bütün bunların əvəzində siz əvvəlki hüquqlarınızı saxlayacaqsınız, ancaq edam etməkdən başqa; 2) Xanlıq titulu veriləcək sizə; 3) İranda olan və əmanat saxlanılan yaxınlarınızı sizə qaytaracağıq. Məktubun sonundakı hədə isə knyaz Sisiyanovun işğalçı niyyətlərini apaydın ortaya gətirirdi: "Allaha and olsun ki, əgər mənim yürüşüm dəyişilsə, onda gərək günəş qərbdən-şərqə hərəkət etsin, Xəzər dənizində gərək bir damla su qalmasın. Fərq ondadır ki, ya oraya xilas edən kimi gələcəyəm, ya da əgər imperatorun iradəsinin əleyhinə getsəniz sizi Gəncəli Cavad xan kimi cəzalandıracağam" (67, s. 634).

Knyaz Sisiyanovun hədələyəci məktubu I Kalbalı xanı çox qəzəbləndirdi. çünki Gəncə xanlığı hələ 1752-ci ildən Naxçıvan xanlığının yaxın müttəfiqlərindən biri idi. Ona görə də I Kalbalı xan əmr verdi ki, İrəvan qalası müdafiə üçün var gücü ilə döyüşəcək. Sisianov xanların cavablarını gözləyə bilmədi. General-mayor Leontyevə əmr verdi ki, iki piyada batalyonu ilə və 5 topla Pəmbəkə doğru yürüş etsinlər (123, s. 32).

Artıq iyunun 1-də hücum yürüşü reallaşdı. 19 iyunda Sisiyanovun qoşunları Üçmüəzzinin yaxınlığında dayanmışdı (67, s. 615).

Mirzə Adıgözəl bəy "Qarabağnamə"də yazır: "Bu zaman Naxçıvan hakimi Kalbalı xan da İrəvanda idi. Doğrudur, Məmməd xan İrəvanın müstəqil hakimi idi, lakin o, məmləkəti idarə etmək, yaxın və uzağın mühüm işlərini nizama salmaqda Kalbalı xanın rəyinə tabe idi... " (34, s. 67).

1804-cü il iyun ayının axırında Rusiya qoşunları knyaz Sisiyanovun rəhbərliyi altında İrəvan qalasına yaxınlaşdılar. Çünki knyazın irəvanlı Məmməd xana ünvanlanan 318 nömrəli məktubu 26 iyun 1804-cü ildə yazılmışdır. Qafqaz Aktlarının II cildində bu haqda da məlumat vardır (67). Məktubun mətni aktlarda verilmişdir. I Kalbalı xan qaynı Məhəmməd xanla qərara aldılar ki, Qacarlarla və Sisianovun qoşunları ilə son nəfəsədək döyüşəcəklər. Knyaz Sisiyanov çar II İraklinin ocağını, yurdunu-yuvasını dağıtmışdı. II İraklinin gəlini Məryəm erməni mənşəli general Lazarevi xəncərlə öldürmüşdü. Çünki Lazarev İraklinin varislərini zorla Rusiyaya deportasiya edirdi. Sisiyanov istəyirdi ki, hakimiyyətdə marağı olan varislərdən biri belə qalmasın. Məryəm Kartli-Kaxetiyanın axırıncı çarı, II İraklinin oğlu XII Georginin həyat yoldaşı idi. Sisiyanovun qohumu olsa da, onu Voronejə aparıb, Beloqorsk monastrına saldılar (123, s. 33). Çar II İraklinin dul arvadı Darecanı isə Moskvaya apardılar (134, s. 652). Darecanı dəfələrlə azərbaycanlılar ölümün caynağından qurtarmışdılar. Onun oğlanlarından yalnız Teymuraz qaçıb dağlarda gizlənmişdi. O biri oğlu Aleksandr isə müsəlmanlığı qəbul etmiş və Fətəli şahın yanında qalmışdı. Ona sığınacaq verib uzun müddət Naxçıvanda gizlədən I Kalbalı xan olmuşdu (82,s.545).

Bütün bunlara görə I Kalbalı xan Sisiyanova və Naxçıvanı dağıdan Fətəli şaha möhkəm dərs vermək qərarına gəldi. Bu döyüş həm də böyük risk idi, çünki naxçıvanlıların və irəvanlıların taleyi indi onların necə döyüşmələrindən çox asılı idi.

I Kalbalı xan və Məhəmməd xan birlikdə hərəkət etməyə qərar verirlər. Əslində Məhəmməd xanın buna böyük mənəvi

ehtiyacı vardı. Çünki 31 yaşlı Məhəmməd xan təcrübəli, cəsur, iradəli sərkərdə I Kalbalı xansız heç nə edə bilməzdi. İrəvan qalasının Rusiya və İran qoşunları tərəfindən birinci mühasirəsi zamanı qalanın qəhrəmancasına müdafiəsində bütün işlərə rəhbərliyi I Kalbalı xan edirdi. Döyüş əmrlərini də o verirdi. Vuruşma gedəndə orduya iki əmr verən olsa ordu məğlub olar. Bir çox tədqiqatçılar da təsdiq edirlər ki, Məhəmməd xan ömrünün sonunadək I Kalbalı xanın bir sözünü iki eləməyib.

Abbas Mirzənin yanındakı komandirlərdən ikisi naxçıvanlı idi: I Kalbalı xanın əmisi oğlu Abbasqulu xan və böyük oğlu Nəzərəli xan. Abbasqulu xan Naxçıvana hakim təyin edilmişdi (123, s. 33). Indi də I Kalbalı xanla döyüşməyə gəlmişdi. Abbas Mirzənin yanında Kəngərli polku da var idi. Tarixin qəribə bir səhifəsi yaranırdı. İrəvan qalasını müdafiə edən I Kalbalı xan və Məhəmməd xan öz doğmaları ilə döyüşməli idilər. I Kalbalı xan isə müstəqilliyi və azadlığı övladlarından da çox sevirdi. Ona görə də 2 iyul-3 sentyabr 1804-cü ildə baş verən və 64 gün davam edən bu döyüş tariximizdə qəhrəmanlıq səhifəsidir.

Sisiyanov Tiflisə kor peşiman döndü və çox itkilər versə də, İrəvan qalasını tuta bilmədi. O, indi Abbasqulu xanla yazışırdı. Amma I Kalbalı xan yenə də onu aldatmaqda davam edirdi. Onu İrəvana və Naxçıvana dəvət edirdi. Hətta bir rəsmi məktubunda yazmışdı: “Mən heç vaxt sənə vəd etməmişdim ki, qalanı təslim edəm, yazmışdım ki, həqiqi dostluq olarsa, həmişə xidmət etməyə hazıram” (123, s. 35). Sonrakı danışıqlarda xoylu Cəfərqulu xan (I Kalbalı xanın bacanağı) vasitəçilik edirdi. Sisianov Cəfərqulu xana yazmışdı ki, mən I Kalbalı xana inana bilmərəm. Gərək oğlanlarını amanat göndərsin yanıma (67, s. 860). I Kalbalı xanın isə amanat göndərməklə heç arası yoxdu. Ona görə də Sisianovla olan diplomatik danışıqlara nöqtə qoydu. Məğlub olan Sisianov təkrarən İrəvan və Naxçıvana ikinci yürüş etmədi. O, 1806-cı il fevralın 8-də Bakıda qətlə yetirildi (134, s. 655). İşğalçılıq həvəsi ona baha başa gəldi. I Kalbalı xan isə

Naxçıvanın və İrəvanın işğaldan kənarda qalması naminə yenidən diplomatik münasibətlər qurmaq üçün yollar arayırdı. Çünki o, azadlıq yolunun yolçusu idi və bu yolda diplomatik münasibətlər qurmalı; doğma vətəni uğrunda, yeri gələndə, müharibələr aparmalı idi.

Həmin ildə İrəvan qalasında məğlub olan Sisiyanov Tiflisə döndüyündən Cəfərqulu xan özünün 200 nəfər yaxın adamları ilə Pəmbək vadisində gizlənməli olur (67, s. 859). İrəvan qalasında döyüşü udan I Kalbalı xanın və Məhəmməd xanın yanına gedə bilmir. Sonralar I Kalbalı xanla əvvəlki münasibəti bərpa edə bilir. Çünki necə deyərlər, Fətəli şahın xalqa göstərdiyi zülmdən qəzəblənən I Kalbalı xan da Cəfərqulu xanın vasitəsilə rus generalları ilə gizli danışıqları təzələməli olmuşdu.

1806-cı ildə çar hökuməti Cəfərqulu xanı Şəki xanı təyin edir. Həmin ilin 10 dekabrında imperator I Aleksandr Cəfərqulu xana iki fərman verir. Ona general-leytenant hərbi rütbəsi verməklə bərabər, həm də Şəki və Nuxa xanı təyin edir (67, s. 271). Cəfərqulu xana almaz qələm və gerblə birlikdə bayraq da təqdim edir. Bütün bu hadisələr 12 yanvar 1807-ci ildə Tiflisdə olub. Cəsur sərkərdə az bir müddət içərisində birinci dərəcəli Müqəddəs Anna ordeni və qiymətli daş-qaşlarla bəzədilmiş qılıncla mükafatlandırılır. Ona həm də Şəkinsiki familiyasını daşımağa icazə verirlər (70 s. 273-274; 68, s. 273-274). Cəfərqulu xan 22 avqust 1814-cü ildə qızdırma xəstəliyindən vəfat edir (70, s. 553).

Qafqaz Aktlarının VI cildindəki (I hissə) məlumatlara əsasən Cəfərqulu xanın 3 həyat yoldaşı olub. Bəyazid paşasının qızı (yaxud bacısı) Şərəf Nisə bəyim, Məhəmməd xan İrəvanskinin bacısı Səltənət bəyim və İbrahimxəlil xanın qızı Gövhər Ağabəyim (70, s. 755).

Cəfərqulu xanın övladlarının anaları Şərəf Nisəbəyim olub. Gövhər Ağabəyimin övladı olmayıb. Səltənət bəyimdən isə bir oğulluğu olub: Kalbalı xan (112, s. 40).

Cəfərqulu xanın oğulluğa götürdüyü Kalbalı xan sənədlərdə Kiçik ağa, Kiçik Kalbalı xan, Kalbalı xan kimi qeyd edilib. Təxminən 1785-ci ildə doğulub, 29 iyul 1839-cu ildə vəfat edib (108).

Naxçıvanlı şair Qüdsi Vənəndi ən məşhur qəsidə mədhiyyələrindən birini onun oğlu İsgəndər xana ithaf edib. O da məşhur general olub və ADR-in yaradıcılarından biri olan Fətəli xan Xoyskinin atasıdır. Qafqaz Aktlarında bəzi yerlərdə o, Naxçıvanski familiyası ilə qeyd olunub. Bir sıra tədqiqatçılar yazırlar ki, Qüdsi Vənəndi qəsidəni naxçıvanlı İsgəndər xana ithaf edib. Araşdırmalar göstərir ki, bu fikir səhvdir. Qəsidə İsgəndər xan Xoyskiyə ithaf olunub (30).

Məşhur general Cəfərqulu xan Xoyskinin (Şəkinskinin) fəaliyyətini öyrənərkən aydın oldu ki, bəzi məqamları istisna etməklə, onun Naxçıvan xanlığına münasibəti ömrünün sonuna kimi sədaqətli olub. Hətta bu sədaqətlilik sonralar onun varisləri tərəfindən də qorunub saxlanılmışdır.

Qafqaz tarixində Kəngərlilərin (Naxçıvanskilərin), onların dost-doğmaca xalası uşaqları olan Xan Xoyskilərin (burada söhbət kiçik Kalbalı xan Xoyskinin oğlu İsgəndər xandan və oğlu Fətəli xan Xoyskidən gedir) yaratdıqları bir zəfərli tarix var (108, s. 49-54).

Azərbaycanın ayrılmaz tərkib hissəsi olan Naxçıvanın diplomatiya tarixində I Kalbalı xanın və onun oğlu I Ehsan xanın xüsusi yerləri vardır. Sözsüz ki, I Kalbalı xana qədər də aparılan diplomatiya var idi. Amma o, tamamilə başqa formada təşəkkül tapmışdı. I Kalbalı xan əvvəlki diplomatik irsdən imtina etməmiş, Naxçıvanın xeyrinə olanları həmişə diplomatik fəaliyyətində nəzərə almışdır. Amma çox incə, həssas bir məsələ var: I Kalbalı xan ağıllı və təcrübədən keçmiş diplomatik manevrlərə daha çox üstünlük vermişdir. Onun apardığı diplomatiya Qafqazda marağı olan 3 böyük dövlətin-Rusiyanın, Osmanlı Türkiyəsinin və İranın maraqlarını nəzərə almağa məcbur idi və hamının

gözü önündə Naxçıvan ümumqafqaz diplomatiyasının mərkəzlərindən biri kimi tarixdə öz sözünü deyirdi.

I Kalbalı xan 1796-cı ildən 1820-ci ilədək, yəni, 25 il (hakimiyyətdə olduğu və olmadığı vaxtlarda) Rusiya ilə gizli, bəzən aşkar diplomatik münasibətlərdə, daha doğrusu, manevrlərdə olmuşdur (10, s. 96).

I Kalbalı xanın məktublarının orijinalını hələlik tapa bilməmişik. Bu istiqamətdə axtarışlar aparılır. Yalnız onun məktublarının rusca olan variantı rus şərqşünası A.Berje tərəfindən Qafqaz Aktlarının I cildində, əsasən "Naxçıvan" bölməsində nəşr edilib. Rusiya ordusunun general-mayoru Lazarevin, polkovnik Karyaqinin I Kalbalı xana yazdığı məktublar 1801-1802-ci il İrəvanla və Naxçıvanla bağlı siyasi hadisələri dərindən izləməyə imkan verir (66, s. 625-627).

General-mayor Lazarevin məktublarından məlum olur ki, I Kalbalı xanın elçi sifəti ilə göndərdiyi məmurun adı Hacı bəydir (66, s. 624).

Qeyd edək ki, arxiv sənədlərinə görə I Kalbalı xan Rusiya qoşunlarının həm quruda, həm də suda Ali Baş Komandanı, general-mayor Qraf Valerian Zubovla 1795-ci ildən danışıqlar aparırdı (123, s. 23; 10, s. 96). Onun əsas məqsədi Naxçıvan xanlığının müstəqilliyini qorumaq idi. Araşdırmalar zamanı I Kalbalı xanın rus generlı Nesvyatevə yazdığı məktubu da tapa bildik (172). O, ardıcıl olaraq Rusiya ilə diplomatik manevrlər etmişdir. Valerian Zubov tabeliyində olan bütün komandirlərə tapşırmışdı ki, yerli əhali ilə çox mülayim rəftar etsinlər (10, s. 103-105).

Azərbaycan xanlıqlarının başçılarının əksəriyyəti mahir döyüşçülər idilər və onlar II İraklinin Cənubi Qafqazda apardığı ikiüzlü siyasətdən çox narazı olduqları üçün çoxu Ağa Məhəmməd şah Qacarın tərəfində ürəkdən vuruşurdular. Amma I Kalbalı xan bilirdi ki, bunun əhəmiyyəti yoxdur. Geri dönən Ağa Məhəmməd şah Qacar bütün xanlıqları, o cümlədən Naxçıvan xanlığını

tar-mar edəcək. Ona görə də I Kalbalı xan yaxın qohumu İrəvan xanı Məhəmməd xanla, Qarabağ xanı İbrahim xanla, Xoy xanı Cəfərqulu xanla, Talış xanı Mir Mustafa xanla, Şirvan xanı Mustafa xanla və digərləri ilə gizli diplomatik danışıqlar aparırdı.

Rus hərbi şərqşünaslarından P.Q.Butkov da I Kalbalı xanın güclü, ağıllı və iradəli dövlət xadimi olmasından dönə-dönə söhbət açır (82, s. 486). I Kalbalı xanı tanıyan Platon Zubov yazır ki, hakimiyyət başında olan Qacar sülaləsinə onun nifrəti o qədər güclü idi ki, onların heç bir mükafatını qəbul etmirdi və Naxçıvan onları hökmdar kimi tanımayıb xərac verməkdən imtina edirdi (101, s. 72). Əlbəttə, bütün bu işlərin başında I Kalbalı xan dayanırdı. Naxçıvan xanlığı hələ Cəfərqulu xanın hakimiyyəti illərində Osmanlı Türkiyəsi ilə sıx diplomatik münasibətlər qurmuşdu. Mənbələrdə Türkiyə sultanının Naxçıvan xanı Cəfərqulu xana qiymətli hədiyyə göndərməsi haqqında məlumat vardır (82, s. 515-516, 522).

I Kalbalı xanın da hakimiyyəti zamanı belə normal münasibət saxlanılması üçün diplomatik addımlar atılmışdır. Araşdırmalar göstərdi ki, I Kalbalı xan Axalsıx paşası Süleyman paşa və Bəyazid paşası Şərif paşa ilə yaxın dostluq münasibətləri saxlamışdır (66, s. 624-630). Tarixi mənbəələrdən məlumdur ki, I Kalbalı xan Qars paşası Neman paşa ilə birlikdə İrəvan qalasını qoruyub saxlamışlar. Eləcə də Pəmbəkin və Şuragölün yağılardan təmizlənməsində I Kalbalı xan diplomatik addımlar atmış və döyüşlər aparmışdır. Hətta bu zaman I Kalbalı xan Axalsıx Bəyazid paşalıqları ilə yaxın müttəfiqlik də yaradır. Amma Neman paşanı devirib yerinə keçən Məmməd paşa ilə onun sözləri düz gəlmir. Biz Məmməd paşanın rus hərbiçilərinə yazdıqları məktublarla tanış olduqca I Kalbalı xanın apardığı diplomatiyanın çox doğru olduğunun şahidi olduq (66, s. 710, 713). I Kalbalı xanın 26 may 1802-ci ildə polkovnik Karyaginə yazdığı məktubda onun diplomatiyasının şəxsi məqsədlər güdmədiyinin şahidi oluruq: “...Məmməd paşa bizim düşmənlərimizlə

dostluq edir, bizlə isə düşmən kimi davranır. Onun birinci günahı ondadır ki, İran dövlətinin Xoy xanlığını dağıdan kürdləri və onların başçısı Əli ağaya sığıncaq verib. Bəylərbəyi İran hökumətinin məktubunu ona versə də, o, Əli ağanı bizə verməkdən imtina etdi. Himayə edilən Əli ağa karvan yollarını kəsdi və bizim karvanları taladı. Bizim tacirlərin mallarını alıb Qarsda saxladılar və özlərini də döydülər. 1) Onun haqqı yoxdur ki, Türkiyə sultanlarının adından bizimlə düşmən kimi danışsın; 2) biz ona hörmət edib paşa kimi tanımışıq; 3) ancaq o isə bizim dövlətin düşməninə havadarlıq edir. Biz, Allahdan arzu edirik ki, həmin adamı cəzalandırsınlar. Bu həm Türkiyə sultanına həm də İran dövlətinə çox xeyirlidir" (66, s. 624-630).

Daha sonra I Kalbalı xan Rusiya ilə münasibətlərinə aydınlıq gətirərək yazır: "Sizin alıcənablılığınıza yaraşarmı ki, satqınların yalan sözlərinə inanasınız. Birinci Allaha, inamıma və qibləyə and içirəm, ikinci başda bizim bəylərbəyi olmaqla, bizim sizinlə dostluqdan və qonşuluqdan savayı heç bir işimiz yoxdur. Sizin torpağınızda da həmçinin. Sizə yaraşmır ki, bizim torpaqlara qoşunla gəlmisiniz. Xahiş edirəm ki, geriyə öz torpağınıza qayıdasınız. Əks halda biz düşmənimizlə özümüz haqq-hesab çəkməli olacağıq. Əgər siz qayıdıb öz torpağınıza getməsəniz onda aşkar görünür ki, siz bizimlə düşmənçilik edirsiniz. Və günlərin birində qəflətən biz sizin yanınıza gələcəyik. Allah necə istəsə, elə də yaxşıdır. Axırda bizi günahlandırmayın..." (66, s. 624-630).

Demək olar ki, I Kalbalı xan diplomatik məktublarında heç kimi təhqir etməmiş və göründüyü kimi Rusiya hərbiçiləri qarşısında ədalətli tələblər qoymuşdur.

Qars paşası Məmməd paşanın çox təkidli (Rusiya arxivlərində onun məktubları saxlanılır) məktublarından sonra general Knorrinqun göstərişi ilə polkovnik Karyagin təkrarən I Kalbalı xanla yazışır (66, s. 625-627). I Kalbalı xan təkrar cavab məktubunda yenə də çox qəti və diplomatik gedişlər edir. Hətta onun tələbləri də qətidir: "...Siz mənimlə Qars paşasını barışdırmaq istəyirsiniz,

mən ürəkdən razıyam. Amma barışmazdan əvvəl onlar mənə aşağıdakıları qaytarmalıdırlar:" 1) Mənim hakimiyyətim altında olan qarapapaq xalqını; 2) Üçmüəzzindən götürdükləri əşyaları; 3) mənim pərən-pərən salınmış təbəələrimi; 4) tacirlərdən mənim qarət etdikləri mallarımı; 5) və nəhayət onlar 10 kəndin meşəsini dağıdıblar və yandırıblar. Qoy gəlib öz əlləri ilə həmin kəndlərin evlərini tiksinlər, meşələri bərpa etsinlər, mənim onlarla heç bir işim yoxdur..." (66, s. 624-630).

Rus generalı Knorrinq Məmməd paşanın çox yaxın dostu olduğundan, o, birləşmiş qoşunun Qarsa yürüşünü dayandırır (18, s. 67).

Araşdırmalar zamanı I Kalbalı xanın apardığı diplomatiyada əsas yer tutan ümdə məsələlərdən biri sülh və əmin-amanlıqdır, kimsənin torpağına göz dikməməkdir. Belə bir nəticəyə gəlmək olur ki, I Kalbalı xana görə ağıllı diplomatiya məntiqsiz döyüşdən qat-qat yaxşıdır.

1796-cı ilin sonu 1797-ci ilin əvvəli Naxçıvan və İrəvan xanlıqlarının tarixində çox qarmaqarışıq və ziddiyyətli dövr idi. Buna əsas səbəblərdən biri Ağa Məhəmməd şah Qacarın bu xanlıqlara tutduğu mövqedən irəli gəlirdi. Naxçıvan xanı I Kalbalı xan "cəzalandırılıb" Tehrana həbsə aparıldıqdan sonra, onun qaynı Məhəmməd xanı (əsil adı Məhəmmədhüseyn xan) İrəvan xanlığından hakimiyyətdən uzaqlaşdırıb, yerinə Əliqulu xanı təyin etdilər. O, Ağa Məhəmməd şahın qardaşı idi. Şahın faciəli ölümündən sonra təcili geri çağrılır. Sakitliyi bərpa etmək üçün Məhəmməd xanı yenidən İrəvan xanlığına hakim göndərirlər (17, s. 105). Məhəmməd xanın fəallığı ilə I Kalbalı xan da Naxçıvana hakim təyin edilir (12,3 s. 35). Ancaq sonralar Fətəli şah (Babaxan) fikrini dəyişir. Məhəmməd xanı Pirqulu xanla, 1805-ci ildə isə onu Əhməd xan Marağalı ilə əvəz edir. 1806-cı ildə Hüseynqulu xanın İrəvan xanı olması haqqında şah fərmanı verilir. Bu fərman ilə Hüseynqulu xan Qacar həm də "Sərdar" titulunun sahibi olur. Yəni, Irəvan xanlığındakı şah qoşunlarının

başçısı vəzifəsini daşıyır. Naxçıvan xanlığının tarixi ilə bağlı əksər sənədlərin toplandığı "Qafqaz Aktları"nda xəbər verilir ki, Fətəli şah oğlu Abbas Mirzəyə əmr verdi ki, Naxçıvan xanlığını işğal etsin. I Kalbalı xan Naxçıvanda müdafiəni yaxşı təşkil etdiyindən şahzadə Abbas Mirzə Naxçıvanı tuta bilmədi. O, diplomatik hiylə işlətmək qərarına gəldi. Bu hiylədə Abbas Mirzə İrəvan xanı Hüseynqulu Qacardan istifadə etməyi qərarlaşdırdı. Çünki Hüseynqulu xan Qacarlardan idi. Tədqiqatçılar Hüseynqulu xanın I Kalbalı xan ilə qohum olduğunu yazsalar da, məsələyə aydınlıq gətirmirlər.

"Qafqaz Aktları"nın III cildinin 1025-ci sənədində verilən məlumata görə "…Şahzadənin Naxçıvanı təslim etmək haqqında Kalbalı xana verdiyi tələb uğur qazanmadı. Hüseynqulu xanın hiyləsi nəticəsində Kalbalı xan İrəvanda tutuldu. Deyilənlərə görə şahzadənin yanına aparacaqlar" (68, s. 599).

Şahzadə Abbas Mirzənin Naxçıvana hücum etməyə cəsarəti çatmadı. Bilirdi ki, naxçıvanlılar onu Naxçıvan qalasına buraxmayacaqlar. Hüseynqulu xana məsləhət gördü ki, onun xəyanətindən naxçıvanlıların hələ ki, xəbərləri yoxdu, qalaya daxil ola bilər. Hüseynqulu xan 300 atlı və 200 piyada ilə Naxçıvana gəldi. Onun qalaya daxil olmasına icazə verildi. Naxçıvan qalası Hüseynqulu xanın xəyanətinin qurbanı oldu (18, s. 78). Tədqiqatçılar qeyd edirlər ki, o, Kəngərlilərin qohumu imiş. Biz belə ehtimal edirik ki, Hüseynqulu xan I Kalbalı xanın həyat yoldaşı Tükəzban xanımın qohumu ola bilər. Kəngərli xanlarından olan I Kalbalı xan Qacarlarla Tükəzban xanıma görə qohum ola bilər. Çünki Tükəzban xanım İrəvan Qacarlarındandır.

İrəvan sərdarı Hüseynqulu xan 1740-cı ildə Məhəmməd xan Qacar Qəzvininin ailəsində doğulmuşdur. Məhəmməd şahın yaxın qohumu olan Hüseynqulu xanın atasının Qəzvini familiyası daşıması isə onun həmin şəhərdə doğulması ilə bağlıdır. Baba xanı, yəni Fətəli şahı hakimiyyətə gətirən fəal qüvvələrdən biri də Hüseynqulu xan olub. Buna görə də Fətəli şah Hüseynqulu

xanı yüksək vəzifəyə təyin etmiş və onun bacısı ilə evlənmişdir. Fətəli şah oğlu Abbas Mirzəyə Hüseynqulu xanın qızını almış, onun oğluna isə özünün 29-cu qızını vermişdir.

Hüseynqulu xan 1800-cü ildən 1802-ciilədək Qəzvində mərkəzi küçələrin mühafizəçisi vəzifəsində işləyib. 1802-ci ildə Fətəli şah onu Xorasan şəhərinə hakim təyin edib. O, Xorasanda işlədiyi 5 il ərzində baş verən üsyanların yatırılmasında fərqləndiyi üçün şahın və onun əyan-əşrəfinin dərin rəğbətini qazanır. Zəngin şəxs olan Hüseynqulu xan karvansaralar, məscidlər, hamamlar və dini məktəblər tikdirir. Onun qardaşı Həsənə (Sarı Aslana) də "xan" titulu verilir (112, s. 29, 31).

1807-ci ildə Fətəli şah onu İrəvana hakim təyin edir. Hüseynqulu xan qonşu xanlıqlarla sıx diplomatik münasibətlər qurmaq istəsə də alınmır. Çünki Qarabağ, Şirvan, Naxçıvan və digər xanlıqlar artıq Qacarların qətiyyən vassalı olmaq istəmirdilər. Hüseynqulu xan İrəvan şəhərini gözəlləşdirmək üçün xeyli işlər görüb. O, məşhur xan sarayını (rəssam Mirzə Qədim İrəvanı həmin sarayı bir rəsm əsərində əla təsvir edib), iki məscid, bir kilsə, mərmər hamamlar, bazar və inzibati binalar tikdirir. İrəvan qalasından qonşu xanlıqlara gedən yollar Təbriz və Şirvan qapılarından başlanırdı. Qalanın əhatəsində beş meydan yerləşirdi. Meydanları məhəllələr dövrəyə almışdı. Məşhur Göy məscidi onun qohumu Hüseynəli xan tikdirib. O, Irəvan qalasını almaq istəyən Rusiya imperiyasının qoşunları ilə dəfələrlə vuruşmuşdur. Doğrudur, bu döyüşlər bəzən uğursuz olsa da, hər halda onun İrəvan qalasını müdafiə etmək üçün çox fədakarlıq göstərməsindən xəbər verir (112, s. 33).

1826-1828-ci il müharibəsində general Paskeviçin qoşunları İrəvan qalasına hücum edirlər və 1827-ci ilin 2 oktyabrınadək qalanı alırlar. Hüseynqulu xan düşmən əlinə keçməkdən xilas olsa da, qardaşı Həsən xan (Sarı Aslan) ruslara əsir düşür və Tiflisə aparılır (96, s. 97).

Gürcüstan Milli Arxivində araşdırmalar apararkən Sərdar

Həsən xanın Ehsan xan və Şeyxəli xan qardaşlarına yazdığı məktubu da əldə etdik (176). Hüseynqulu xan və Həsən xan İrəvanski qardaşları Fətəli şah ilə çoxşaxəli qohumluq dərəcəsində olduqlarından 1826-1828-ci il hadisələrində də onun tərəfini saxlayırdılar. Yəni, onlar I Ehsan xanı da məcbur edirdilər ki, bütün Kəngərlilər İrana köçüb getsinlər. Sonradan birləşib Naxçıvanı və İrəvanı ruslardan geri alarlar. I Ehsan xan isə Hüseynqulu xanın Naxçıvana xəyanətindən və Fətəli şahın Naxçıvan xanlığına qərəzli münasibətlərindən yaxşı xəbərdar olduğundan onların təkliflərini rədd edir və Naxçıvanı xilas etmək üçün məcbur qalıb Rusiya təbəəliyini qəbul edir.

I Kalbalı xan və oğlu Ehsan xan tarixdə siyasi xadim kimi iz qoydular. I Ehsan xan atası I Kalbalı xanın apardığı bir missiyanı- Naxçıvan xanlığını tapdaqlar altında qalmaqdan qorumağı- şəraitə görə çox uğurla yerinə yetirə bildi. Az bir müddət içində, çarizmin apardığı müstəmləkəçilik siyasətinə baxmayaraq, Naxçıvan Qafqazın əsas mərkəzlərindən birinə çevrildi.

# II FƏSİL

## NAXÇIVAN XANLIĞININ QAFQAZ REGİONUNDA HƏRBİ MÖVQEYİ

### 2.1. Kəngərli xanları və Naxçıvan

Naxçıvan xanlığı görkəmli tarixçi Petruşevskiyə görə 93 il, yəni 1840-cı ilədək formal mövcud olmuşdur(131, s. 8). Aparılan tədqiqatlar rus tarixçisinin fikrini təsdiqləyir. Çünki Naxçıvan xanlığı 1828-ci ildə ləğv edilsə də, Rusiya çarı 1840-cı ilədək Naxçıvan xanlığına məxsus idarəçilik sistemini formal olaraq saxlamışdır. 81 il (Əksər tədqiqatçılar isə Naxçıvan xanlığının 1828-ci ilədək mövcud olduğunu qəbul etmişlər) Qafqazda orijinal siyasi yolu ilə seçilən Naxçıvan xanlığı haqqında çar Rusiyasında və digər xarici ölkələrdə xeyli elmi əsərlər yazılmışdır. Bəzi təhriflərə və səhvlərə baxmayaraq araşdırmalar göstərir ki, Rusiyanın hərbi şərqşünaslarının XVIII əsrin sonlarında və XIX yüzillikdə yazdıqları monoqrafiyalar həqiqəti daha çox təsvir edir. Çünki o kitabları yazanlar birbaşa işğal zamanı Naxçıvanda olmuşlar. Sovet hakimiyyəti illərində – o dövrün ictimai-siyasi şəraitinin doğurduğu tələblərdən ötrü Naxçıvan xanlığı haqqında yazmaq qadağan olunduğundan Naxçıvan xanlığı və onun yaradıcıları – idarə edənləri Kəngərli xanları haqqında (bu günün özündə də) bir-birinə zidd olan yazılar mətbuat səhifələrində görünür.

Naxçıvan xanlığı və Kəngərli tayfası haqqında indiki MDB məkanındakı bir çox arxivlərdə sənədlər vardır. Nəşr edilən kitabları və araşdırdığımız arxiv sənədlərini öyrəndikdən sonra Naxçıvan xanlarının-xan Kəngərlilərin hakimiyyət şəcərəsini hazırlamışıq. Naxçıvan xanlarının hakimiyyət şəcərələri aşağıdakı kimidir:

Naxçıvan xanlığının yaradıcısı Heydərqulu xan Mürtəzaqulu xan Kəngərlinin oğludur. Mürtəzaqulu xan isə Məhəmmədxanın oğludur (132-298). Erməni tarixçisi Zəkəriyyə Kənəkerlinin yazdıqları da bu fikri təsdiqləyir: “Məmmədrza xan Naxçıvanlının oğlu Murtuzaqulu xan 2 il Çuxur-sədd (İrəvan) bəylərbəyliyinin hakimi olmuşdur” (104, s. 219-224). Onun bu xronikası 1870-ci ildə erməni dilində, 1876-cı ildə isə fransızca nəşr edilmişdir. Sonralar Murtuzaqulu xanın adına İrəvanı idarə edənlərin siyahısında rast gəlinir. Bu siyahını yepiskop Şayxatunyans hazırlamışdır. Həmin hakimiyyət şəcərəsi sonralar S.P.Zelinskinin “İrəvan şəhəri”məqaləsində dərc edilmişdir. S.P.Zelinski yazmışdır: “Murtuzaqulu xan Məmmədrza xanın oğludur. O, İrəvanı iki il idarə etmişdi” (100, s. 4). Qeyd edək ki, tədqiqatçılar hamısı Z.Kənəkerliyə əsaslanmışlar. Murtuzaqulu xanın atası Məmmədrza xan Astrabad bəylərbəyliyindən əvvəl həm də İrəvanı idarə edənlərdən biri olmuşdur. Heydərqulu xan 1747-ci ildən 1763-64-cü ilədək Naxçıvan xanlığını idarə etmişdir.

1764-cü ildən, 1768-ci il istisna olmaqla, 1769-cu ilədək Heydərqulu xanın oğlanları Hacı Məhəmməd xan və Rəhim xan Naxçıvan xanı olmuşlar. 1768-ci ildə Heydərqulu xanın oğlu Şükrullah xan Naxçıvan xanlığını idarə etmiş və 1770-ci ildə yenidən hakimiyyəti ələ almışdır. Şükrullah xan 1768, 1771, 1779-cu illərədə də Naxçıvan xanlığının xanı olmuşdur. 1772-ci ildə Heydərqulu xanın qardaşı Əliqulu xan hakimiyyətə gəldi. 1773-cü ildə isə onun qardaşı Vəliqulu xan hakimiyyəti devirib Naxçıvanın xanı oldu. O, 1773-1776 və 1778-ci illərdə Naxçıvan xanlığını idarə etdi. 1777 və 1779-cu illərdə Şükrulla xan yenidən xanlıq taxtında oturdu. 1780-ci ildə Rəhim xanın oğlu Abbasqulu xanın hakimiyyətə gəlməsi tarixi sənədlərdə qeyd olunub. 1783-cü ildə Cəfərqulu xan (I Kalbalı xanın böyük qardaşı) hakimiyyətə sahib oldu və 1784-cü ilin sonunadək Naxçıvana xanlıq etdi. 1785-ci ildə Naxçıvan feodallarından biri olan Şükürəli xan hakimiyyəti öz əlinə keçirdi.

Naxçıvan xanlığının araşdırıcıları yazırlar ki, Şükürəli xanın hakimiyyəti haqqında Mərkəzi Dövlət Hərbi Tarix Arxivində (Moskva) hifz olunan 17 fevral 1785-ci il tarixli sənəddən başqa hələlik digər sənəd əldə edilməmişdir (18, s. 57). Müəlliflər Şükürəli xanın kimin varisi olması haqqında heç bir məlumat verməmişlər. Onun varisinin Qara xan olduğunu qeyd etmişlər. Farsdilli mənbələrdə Heydərqulu xanın oğlu Şükrulla(h) kimi qeyd olunmuşdur. 1768-ci ilə aid bir sənəddə (51) adı qeyd olunan Zülfüqar xan Kəngərlinin Şükürəli xan adlı oğlu olmuşdur (177). Bu sənəddə isə onun Qara xan adlı varisi qeyd olunmayıb. Ona görə də biz ehtimal edirik ki, 1785-ci ildə hakimiyyəti ələ keçirən Şükürəli xan elə Şükrullah xandır.

Naxçıvan xanlığı haqqında yazılan kitablarda adı az çəkilən, həyat və fəaliyyəti demək olar ki, öyrənilməyən Kəngərli xanlarından biri də Şükrulla xan Heydərqulu xan oğlu Kəngərlidir. Bəzi mənbələrdə onun adını Şükürəli kimi yazsalar da, çox yerdə, o cümlədən Kərim xan Zəndin hakimiyyəti dövrünə aid sənədlərdə də Şükrulla xan kimi qeyd edilmişdir.

Azərbaycan Milli Elmlər Akademiyasının M.Füzuli adına Əlyazmalar İnstitutunda maraqlı bir sənəd saxlanılır. Bu sənədin mətnini Kəngərlişünas Elmira xanım Seyidbəyli də öz kitabına daxil etmişdir. Orada deyilir: "Şükrulla xan Heydərqulu oğlu Kəngərli Kərim xan Zəndin 1768-ci il tarixli fərmanı üzrə "Müstəqil xan", yəni hakim tituluna layiq görülməklə yanaşı, bütün Kəngərli cəngavərlərinə, (süvarilərinə) sərkərdə təyin olunduğu müddətdən etibarən tümən hakimi kimi şöhrət tapmışdır" (51, s. 8).

Amma nədənsə tarixçilər Naxçıvan xanlığının hərb tarixində özünəməxsus iz qoyan, həmçinin Naxçıvanın abadlaşmasında ürəkaçan işlər görən Şükrulla xanı unutmuşlar. Elə Fuad və Mirabdulla Əliyevlərin "Naxçıvan xanlığı" kitabında da onun fəaliyyəti haqqında çox qısa məlumat verilib. Kitabda müəlliflərin bir qeydi isə daha çox maraq doğurur: "...Naxçıvan taxtının

sahibsiz qalmasından və hakim dairələrdəki qarışıqlıqdan istifadə edərək nüfuzlu Naxçıvan feodallarından biri olan Şükürəli xan 1785-ci ildə hakimiyyəti öz əlinə keçirdi. Naxçıvanda Şükürəli xanın hakimiyyəti haqqında (Mərkəzi Dövlət Hərbi Tarixi Arxivində, Moskva şəhəri) 17 fevral 1785-ci il tarixli sənəddən başqa hələlik digər sənəd əldə edilməmişdir. Şükrulla xan hakimiyyətdə uzun müddət qala bilmədi. İki ildən sonra o, Cəfərqulu xan tərəfindən devrildi" (18, s. 57). Bu qeydlərdən fərqli olaraq tarixi sənədlərdə 1770, 1771 və 1779-cu illərdə Şükrulla xan Naxçıvanın hakimi kimi təqdim edilir. Həmin sənədlərə istinadən demək olar ki, o, 1770, 1771, 1777 və 1779-cu ildən 1780, 1787-ci ilədək Naxçıvan xanlığının hakimi olub (51, s. 84-94). Onun xanlıqda hakimliyi fasilələrlə olmuşdur.

Maraqlıdır ki, bütün sənədlərdə Şükrulla xan xanlığın ən ali məqamlısı, "uca iqballı", xeyirxah hakim kimi qeyd olunur. 1770-ci ilin 27 mayında Əlimərdan bəyin qızları Xanımcan və Şərəf xanımların irsi əmlaklarına yiyələnmək iddiası barəsində yazılmış bir vəkalətnamə bu baxımdan çox maraq doğurur və yuxarıda deyilənləri təsdiqləyir. Vəkalətnamədə deyilir: "Rəhmətə getmiş mərhum Əlimərdan bəyin Böyükxanım və Balaxanım ləqəbi daşıyan izzətli və vəkalətli varisləri Xanımcan və Şərəf adlı mülklərini, kəndlərini və s. tərti-təsərrüflərinə almaq iddiası barəsində ən yüksək məqam sahibi Şükrulla xanı özlərinə müdafiəçi götürüblər" (51, s. 84).

Qeyd edək ki, burada adı çəkilən Əlimərdan Sultan Naxçıvan hakimi Cəfərqulu xanın oğludur. O, Naxçıvanın "Vəkili titulunu daşımışdır". Arxiv sənədlərində araşdırmalar aparılarkən məlum oldu ki, Şükrulla xan Naxçıvan xanlığının hakimi olduğu vaxtlarda çox uğurlar qazanmışdır. Bir arxiv sənədində yazılmışdır: "Şükrulla xan Kəngərli dövlət işlərində ən çox fayda verən və xanlığın ən çox təşəkkürünü qazanan bir hakim olmuşdur" (51, s. 159).

Y.N.Marrın xatirəsinə həsr olunmuş "Ön Asiya sənədlərdə"

kitabının "Naxçıvanın əlyazma sənədləri (XVII-XIX əsrlər)" adlanan birinci hissəsində göstərilir ki, Naxçıvan uzun illər Səfəvi dövlətinin xidmətinə Kəngərli süvarilərindən ibarət atlı dəstələri göndərib (129, s. 10-54). Həmçinin Azərbaycan MEA Əlyazmalar İnstitutunun "Arxeoqrafik və tarixi sənədlər" bölməsində mühafizə olunan bir sənəddə 1777-ci ildə Naxçıvanda hakimlik üsuli-idarəsinin Astrabad ölkəsinin bəylərbəyi Mürtəzaqulu xan Kəngərlinin nəvəsi Şükrulla xanın şəxsiyyətində cəmləşməsi (Hibənamənin mətni içərisindən çıxarıb yuxarı hissəsində salınmış qeyd belədir: Naxçıvan ölkəsinin hakimi Şükrulla xan Kəngərli. Allah onun uca iqbalını daimi etsin) faktı belə bir qənaət yaradır ki, o, (Şükrulla xan) Kəngərli tayfalarından təşkil edilmiş atlı qoşun hissələrinin tərkibində təkmilləşdirmə işi həyata keçirmək məqsədilə 1780-ci ildə həmin göstərişi verib. Şükrulla xan özü isə 10 min Kəngərli atlı dəstəsinə "Naxçıvan süvariləri"nin sərkərdəsi kimi başçılıq etmişdir. Bu işdə ona əmiləri Vəliqulu xan və Abbasqulu xan kömək etmişlər (51, s. 108). Sadalanan faktlara əsasən demək olar ki, Şükrulla xan Naxçıvan xanlığının tədbirli hakimi olmaqla yanaşı, mahir bir hərbiçi də olmuşdur.

Şükrulla xanın doğum və ölüm tarixi hələlik dəqiqləşdirilməyib. Məlumatlara əsasən demək olar ki, onun nəsil davamçıları sonralar Zülfüqarov familiyasını daşımışlar. Onun mülkləri və torpaqları Naxçıvanda Azadciranda və Qarabağlar kəndində olmuşdur.

İrəvanda Ermənistan Milli Arxivində onun nəsil davamçılarından birinin–Zülfüqar xanın İrəvan bəy komissiyasına yazdığı ərizə Zülfüqarxanovların Şükrulla xan nəslindən olduğunu xəbər verir: "Naxçıvan şəhərinin sakini Zülfüqar xan Şükrulla xan oğlu, 5 oktyabr tarixində Bəy Komissiyasına onunla eyni bir əcdaddan törəmiş ailələrin siyahısını və şəcərəsini təqdim edib. Zülfüqarxanov xahişnaməsində bildirir ki, onun ulubabası Heydərqulu xan və onun oğlu Şükrulla xan (Azadciran XIX əsrdə

Naxçıvandan şərqdə yerləşən torpaqların ərazisi-M.Q.) dairəsini idarə edib. Göstərilən şəxslərdən və əmisi oğlu Abbasqulu xanın İranda yaşayan vərəsələrindən başqa o heç kimi tanımır və babasının adı ilə bağlı olan Zülfüqarxanov soyadı götürmək istəyir. Təqdim olunmuş siyahıya əsasən göstərilən ailələrin tərkibi aşağıdakı kimidir: 1. Zülfüqar xan 38 yaşında, həyat yoldaşı Tükəzban xanım 30 yaşında, oğlu Humay xan 2 yaşında, Şükrulla xan 1 yaşında, qızları Gövhər xanım 8 yaşında, Hacı Bəyim 5 yaşında; 2. Cahangir xan 24 yaşında və s. 3. Əmir Aslan xan 15 yaşında. Siyahıda qeyd olunub ki, əvvəllər onların Naxçıvan və Ordubad qəzalarında çoxlu kəndləri olub, lakin həmin kəndlər kənar şəxslərə satılıb, indi isə Naxçıvan qəzasının Şıxmahmud kəndində 2 axça torpaqları var. Şəcərədə göstərir ki, xahiş edənin ulubabası Heydərqulu xan olub, onun isə iki oğlu olub: Rəhim xan, hansınınki vərəsələri İrandadırlar və Şükrulla xan. Ərizə ilə müraciət edən Zülfüqar xan Şükrulla xanın nəticəsi olub. 1859-cu ilin kameral siyahısına görə Naxçıvan şəhəri üzrə xan nəslindən olan ailələrin siyahısına xahiş edənin atası Şükrulla xan və onun 2 oğlu: Zülfüqar xan və Cahangir xan daxil edilirlər. Üçüncüsü Əmir Aslan xanın isə siyahıda adı yoxdur.

Bunları dinləyərək və siyahı ilə şəcərəni nəzərdən keçirərək iştirak edən üzvlər yekdilliklə bildirdilər ki, xahiş edən Zülfüqar xan və qardaşları Cahangir xan və Əmir Aslan xan, həqiqətən də, Heydərqulu xandan törəyiblər; xahiş edənin digər əcdadları İran hökuməti dövründə bəy adından istifadə ediblər, nə həmin vaxtlar nə də Rusiya hökuməti dövründə onlardan heç biri adından məhrum edilməyib. İrəvan bəy komissiyası Təlimatın 9, 14, 19, 21, 25-ci maddələrinə əsasən bu barədə protokol tərtib etmək niyyətindədir (188).

Bu sənəd 1859-cu ilə aiddir. İrəvan bəy komissiyası şikayətçinin ərizəsinə müsbət cavab verib. Onların xan nəslindən olduğunu təsdiqləyib. Sənəd Naxçıvan xanlığının nəsil şəcərəsinin

tərtibi zamanı çox dəqiqləşdirmələrə köməklik etdi. Bir daha təsdiqləndi ki, Zülfüqarxanovlar və Sovet dövründə Zülfüqarlı soyadlarını daşıyan şəxslər də Kəngərli xanlarından Şükrulla xanın nəslindən olanlardır. Atasının Naxçıvançay üzərində saldığı körpünü o, yenidən təmir etdirmişdir ki, həmin körpü son illərədək Şəkərabad kəndi yaxınlığında qalırdı. Eləcə də o, dünyanın ən möcüzəli ziyarət yerlərindən biri olan Əshabi-Kəhfə çox qayğı göstərmişdir. Əshabi-Kəhf ziyarətgahında bir neçə kitabə vardır. Tədqiqatçı Fəxrəddin Səfərlinin araşdırmalarından məlum olur ki, kitabənin üzərində "Qurani Kərim"in "Əl-Kəhf" surəsinin 9, 10, 11, 12, 17 və 18-ci ayələri həkk edilmiş mərmər lövhə təbii aşınma nəticəsində məhv olmaq təhlükəsində olduğu üçün Naxçıvan ölkəsinin hakimi Şükrulla xanın qərarı ilə onun üzü təzədən ayrı bir daşa yazılaraq əvvəlki yerinə qoyulmuşdur. Bu hadisə 1776-cı ildə olmuşdur (52, s. 25). Buradan məlum olur ki, Şükrulla xan 1776-cı ildə də Naxçıvanın xanı olmuşdur. Deməli, hələlik tapılan arxiv sənədlərinə əsasən Şükürulla xan səkkiz il Naxçıvan xanlığına xanlıq etmişdir.

1787-ci ildə hakimiyyəti Cəfərqulu xan yenidən idarə etdi. 1787-ci ilin mayın əvvəlində Abbasqulu xan ikinci dəfə xanlıq taxtına sahib olsa da, I Kalbalı xan elə həmin ayda əldən-ələ düşüb dağılmağa üz qoymuş Naxçıvan xanlığında xanlıq taxtına sahib çıxdı. 1797-ciilədək müstəqil Naxçıvan xanlığını məharətlə idarə etdi və xanlıq öz intibah dövrünü yaşadı.

1797-ci ildən 1801-ci ilədək Abbasqulu xan üçüncü dəfə yarım müstəqil xanlığını idarə etməyə müvəffəq oldu. 1802-ci ildən 1804-cü ilədək I Kalbalı xan, 1804-cü ildə Abbasqulu xan, 1805-ci ildən 1808-ci ilə qədər yenidən I Kalbalı xan Naxçıvan xanlığını idarə etdilər. 1808-ci ildə xanlıq taxtında ilin bir neçə ayını Abbasqulu xan, çoxunu isə I Kalbalı xan oturdu.

Aparılan araşdırmalar nəticəsində müəyyən olunmuşdur ki, I Kalbalı xan 1787-ci ildən 1796-cı ilədək müstəqil Naxçıvan

xanlığında hakimiyyətdə olmuşdur. 1801-1810, 1816-1820-ci illərdə isə Naxçıvan xanlığı İrandan asılı olmuşdur. 1801, 1804, 1808-ci illərdə Naxçıvan xanlığında bir neçə aylığa hakimiyyət dəyişikliyi olmuş, Abbasqulu xan I Kalbalı xanı əvəz etmişdir (123, s. 328). Amma apardığımız tədqiqat nəticəsində I Kalbalı xanın həmin illərdə hakimlik etdiyi müddət çox olduğundan o illəri də onun hakimiyyət şəcərəsinə yazdıq. Bu, tarixi qanunauyğunluqdur. Deməli, I Kalbalı xan təxminən 25 il Naxçıvan xanlığına rəhbərlik etmişdir. Təqribən XVIII əsrin 30-40-cı illərində doğulan I Kalbalı xan 1787-ci ildən 1823-cü ilədək, yəni, ömrünün sonunadək Naxçıvan xanlığının müstəqilliyinin qorunub saxlanılması üçün əlindən gələni əsirgəməmişdir. Bunun üçün o, diplomatik manevrələr etmiş və lazım gələndə kəngərlilərin süvari qoşunlarına başçılıq edərək döyüşmüşdür. Çox təəssüflər ki, I Kalbalı xanın həyatı və fəaliyyəti sovet dövründə olduqca cüzi öyrənilmişdir.

1811-ci ildə I Kalbalı xanın oğlu Nəzərəli xan hakimiyyətə gəldi və o, 1813-cü ilədək xanlığı idarə etdi. 1813-cü ildə Kərim xan Kəngərli hakimiyyətə yiyələndi (18, s. 48-70). O, 1816-cı ilin bir neçə ayı da əlavə edilməklə, Naxçıvan xanlığının hakimi oldu.

XVIII əsrin sonlarından bu günədək Kərim xanı bəzi tədqiqat əsərlərində I Kalbalı xanın qardaşı, qardaşı oğlu, gah da əmisi oğlu adlandırırlar (20, s. 90). Onun haqqında Tiflis arxivlərindən bir neçə maraqlı faktlar əldə etdik. Həmin sənədlərdən məlum olur ki, Kərim xanın oğlu İmamqulu xan Heydərqulu xanın nəvəsi Telli bəyim xanımla ailə qurub. Tellibəyim bir vaxtlar Naxçıvanın xanı olmuş Rəhim xanın qızıdır. Naxçıvan xanlığına aid yazılan kitablarda Cəfərqulu xanı da I Kalbalı xanın gah qardaşı, gah da əmisi oğlu yazırlar (18, s. 60, 62). Bizcə, rus tədqiqatçılarını belə çaş-baş salan Kəngərlilərin adətləri olub. Çünki vəfat edən qardaşın həyat yoldaşını o biri qardaş aldığından onların həm qardaş, həm də əmioğlu olduğunu yazırlar.

Araşdırdığımız sənədlərə əsasən demək olar ki, hakimiyyət uğrunda mübarizə aparan və uzun illər Naxçıvan xanı olan Abbasqulu xan Heydərqulu xanın nəvəsidir. Yəni, Heydərqulu xanın oğlu Rəhim xanın varisidir. A.Berje Qafqaz Aktlarının IV cildində də belə qeyd edib: "Abbasqulu xan Rəhim xanın oğludur"(69, s. 717, 998). Əgər Abbasqulu xan I Kalbalı xanın qardaşı olarsa, onda gərək atasının adı Ehsan xan olsun. Çünki artıq I Kalbalı xanın atasının adının Ehsan olduğunu təsdiqləyən sənəd (Tiflis arxivindən əldə etdiyimiz) vardır (173).

Abbasqulu xan I Kalbalı xanın qardaşı oğlu olarsa, onda gərək onun Rəhim xan adında qardaşı olsun. Hələ ki, sənədlərdə belə bir məlumata rast gəlməmişik. Bir ehtimal variant qalır ki, o da yuxarıda dediyimiz qaydada nikah ola bilər. I Kalbalı xanın nəsli haqqında rus tədqiqatçıları qarmaqarışıq vəziyyət yaratmışlar. Çox təəssüf ki, azərbaycanlı tədqiqatçılar da bu məsələdə bir ortaq məxrəcə gələ bilməmişlər. Ona görə də ulu babaların şəcərələrinin incələnməsinə böyük ehtiyac vardır.

1820-ci ildə I Kalbalı xan yerinə sevimli oğlu, atasının adını daşıdığından "Böyük Xan" dediyi I Ehsan xanı hakim təyin etmişdir. I Ehsan xan 1821-ci ilədək Naxçıvanın xanı olmuşdur. 1821-ci ildə onu böyük qardaşı Nəzərəli xan əvəz etmişdir (18, s. 94). 1822-ci ildə Hüseyn Mirzə Naxçıvanın hakimi təyin olunmuşdur (18, s. 48-70). Bəzi tədqiqatçılar Hüseyn Mirzəni Kəngərli yazırlar. Bu düzgün deyil, Qacarlar adlarından sonra "Mirzə" titulunu yazırdılar. Bu, şahın xüsusi fərmanı əsasında yazılıb "şahzadəlik" titulu sayılır. Kəngərlilərdə belə bir müraciət forması olmayıb.

1823-1827-ci ilədək Naxçıvanın axırıncı xanı Kərim xan olmuşdur (18, s. 94). Bəzən səhv olaraq Naxçıvanın axırıncı xanının I Ehsan xan olduğunu yazırlar, ancaq bunu təsdiqləyən sənəd yoxdur. Rusiyanın Naxçıvana hücumu vaxtı I Ehsan xan Abbasabad qalasında Kəngərli süvarilərinin komandiri vəzifəsini daşımışdır. Cavan olsa da, cəsurluğuna və iradəsinə görə söz

sahibi idi. 1826-cı ildə Abbas Mirzə Kərim xanı Məhəmməd Bağır xanla (ehtimal edilir ki, bu, Kəngərli tayfasındandır) əvəz edir. Amma bu şəxs xanlığı idarə edə bilmədiyi üçün Kərim xanı yenidən Abbas Mirzə hakimiyyətə qaytarır. Əsasən 1823-1827-ci illərdə (1826-cı ildən başqa) Naxçıvanın xanı Kərim xan olmuşdur. Deməli, Rusiya işğalına qədər Naxçıvanın axırıncı xanı Kərim xandır. 1828-ci ildən sonra Rusiya tabeliyində olan Naxçıvana I Ehsan xan naib təyin edilmişdir (28,s.105).

Naxçıvan xanları və onların ailə üzvlərinin, həmçinin varislərinin şəxsi möhürləri var idi. AMEA-nın M.Füzuli adına Əlyazmalar İnstitutunda saxlanılan Naxçıvan torpaq mülkiyyətinə aid XVII-XVIII əsr Kəngərli arxeoqrafik sənədlərində, Tiflisə aparılan Kəngərli arxivindəki əmrlərdə və Gürcüstan Milli Arxivinin 2, 11 və 16-cı fondlarında saxlanılan sənədlərdə Naxçıvan xanlarının, vəkil sultanların və onların varislərinin möhür izlərinə rast gəldik.

I Kalbalı xana məxsus möhür üzərində "Allahdan başqa Allah yoxdur. Sədaqətdə çox möhkəm Kalbalı xan", I Ehsan xana məxsus möhür üzərində "Allahın ən böyük kərəmi varsa o da doğru yol göstərməkdir", Şükrulla xana məxsus möhür üzərində "Allaha qul kimi pərəstiş edən Şükrulla, 1180", sözləri yazılmışdır.

Naxçıvan xanlığını müəyyən fasilələrlə idarə edənlərdən biri də Abbasqulu xandır. Araşdırmalar göstərir ki, o, 1781-1783-cü illərdə müstəqil Naxçıvan xanlığının xanı, 1797-1801, 1804, 1808-ci illərdə (fasilələrlə) hakimi olmuşdur (123, s. 328). 1804 və 1808-ci illərdə ilin bir neçə ayını Abbasqulu xan və qalan ayları isə I Kalbalı xan hakimiyyətdə olmuşdur (123, s. 31-46). XVIII yüzilliyin sonlarında Naxçıvan xanlığına maraq hakimiyyət uğrunda mübarizəni gücləndirmişdi. Irəvan xanı Hüseynəli xan, Qarabağ xanı İbrahimxəlil xan və Kartli-Kaxetiya çarı II İrakli istəyirdilər ki, onların dedikləri ilə hərəkət edən şəxs Naxçıvana xanlıq etsin. Onlar belə bir şəxsi Abbasqulu

xanın simasında görürdülər. Elə onların köməkliyi ilə Rəhim xanın oğlu Abbasqulu xan 1781-ci ildə xanlıq taxtına oturdu. Rəhim xan Heydərqulu xanın oğlu idi və qardaşı Hacı Məhəmməd xandan sonra Naxçıvanın xanı təyin edilmişdi. Xoy xanlığını idarə edən Əhməd xan bu üçlüyün namizədinə qarşı çıxdı. Həmin illərdə Xoy xanlığı güclü olduğundan regionda qarma-qarışıqlıq yarada bildi. Belə məqamda meydanda tək qalan Abbasqulu xan Naxçıvanı tərk edib Zəngəzurda yerləşən Sisianda sığınacaq tapdı (18, s. 49). İrəvan xanı Hüseynəli xanın qəti iradəsi ilə Əhməd xan Naxçıvandan geri çəkildi.

Tədqiqatçılar yazırlar ki, Hüseynəli xan hansı məqsədləsə burada qalmaq istəməyərək ordusunu Naxçıvandan geri çəkdi (18, s. 50). Əlbəttə, bu haqda Rusiya Dövlət Hərbi-Tarix Arxivinin 52-ci fondunda sənəd də vardır (184, v. 42). Amma Gürcüstan Milli Əlyazmalar Mərkəzində axtarışlar apararkən Abbasqulu xanla bağlı çox maraqlı bir sənəd əldə etdik. Bu sənəd İrəvan xanı Hüseynəli xanın naxçıvanlılara ünvanladığı bir məktubdur (154, s. 53). O, II İraklinin tapşırığı ilə bu məktubla müraciət edərək Abbasqulu xanı hakimiyyətdə görməyi arzulayırdı. Bu sənəddən aydın olur ki, nəyə görə Hüseynəli xan öz qoşunlarını Naxçıvandan geri çəkib. Abbasqulu xan Hüseynəli xanın köməyilə yenidən hakimiyyətə gəlsə də, xoylu Əhməd xan ona işləməyə imkan vermir. İradəcə zəif olsa da, Abbasqulu xan qonşu xanlıqlarla yaxşı diplomatik münasibətlər qurmağa çalışırdı. Hüseynəli xan vəfat etdiyindən o, Naxçıvanı tərk edərək Tiflisə, II İraklinin yanına gedir. Naxçıvan xanlığı ilə Kartli-Kaxetiya çarlığı arasında diplomatik münasibətlər, bəzi ziddiyyətlərə baxmayaraq, möhkəm olub. Əslində Rusiya dövləti istəyirdi ki, Azərbaycan xanlıqlarının hamısı Gürcüstanla sıx əlaqə saxlasınlar. Çünki Qafqazın cənub hissəsini tutmaq və Hind okeanına gedib çıxmaq üçün Gürcüstan onlar üçün əvəzsiz dayaq mərkəzi idi. II İrakli ilə yaxın dost olan Abbasqulu xan ətrafında toplaşan naxçıvanlılarla Tiflisdə qalmalı olur ki, gürcü çarının köməyi ilə

yenidən Naxçıvan xanlığında hakimiyyətini bərpa edə bilsin. (18, s. 52).

Mirzə Yusif Qarabağlı yazır ki, Qarabağ xanı Ibrahimxəlil xan birinci dəfə Naxçıvan xanlığına 1787-ci il may ayının əvvəllərində hücum edir. Naxçıvanı ələ keçirir və müttəfiqi II Iraklinin köməyi ilə Abbasqulu xanı hakimiyyətə gətirir (36, s. 25).Kalbalı xan hakimiyyətə gələn kimi Abbasqulu xan yenə də Naxçıvanı tərk edib Zəngəzurda və Qarabağda atası ilə birlikdə sığınacaq tapır və keçmiş müttəfiqlərinin köməyinə ümid bağlayır (67, s. 635). Hətta, bəzi mənbələrdə onun və süvarilərinin Ağ Karvansarada (indiki Fərhad evində-M.Q.) karvanları soymaqla məşğul olduğunu yazırlar (68, s. 340). Amma bu inandırıcı deyil. Çünki Abbasqulu xan Kəngərli xanlarının varisi idi və babadan qalma xeyli varidatı vardı. Sadəcə o, dağlarda sığınacaq tapmaqla istəyirdi ki, Naxçıvan xanlığında hakimiyyətini bərpa etsin.

Tarix elmləri doktoru, professor Fəxrəddin Səfərlinin epiqrafik abidələrlə bağlı araşdırmaları zamanı Ordubad şəhərində Murad xanın adı aşkar edilmişdir. Ordubad şəhəri Naxçıvanın Kəngərli xanlarına mənsub olduğundan biz ehtimal edirik ki, elə bu həmin əsrin əvvəllərində Naxçıvana hakimlik etmiş Murad xandır. Çünki onun adı oğlu İsmayıl xanın məzar daşında qeyd edilmişdir (53, s. 12-23). Hətta alim bu sırada Teymur xan adına da rast gəldiyini yazır. Teymur xanın və Murad xanın eyni ailədən olması fikri dəqiqdir. Xanlıq şəcərəsini işləyərkən aşkar edildi ki, bu adlar 1920-ci ilədək varislərə verilmişdir.

Fikrimizcə, Abbasqulu xan I Kalbalı xanın əmisi oğlu ola bilər. Özü də doğma yox. Bəzi sənədlərdə yazılıb: "Ağa Məhəmməd xan bilirdi ki, Kalbalı xanın göndərdiyi Abbasqulu xan onun doğma qardaşı oğlu deyil" (18, s. 63). Sonralar bir çox rus qafqazşünasları Abbasqulu xanı I Ehsan xanın əmioğlusu kimi təsvir etmişlər.

Rus hərbi şərqşünası K.N.Smirnovun Naxçıvan xanları üçün tərtib etdiyi şəcərənin əlyazmasında I Kalbalı xanın Abbas xan

(Abbasqulu xan-M.Q.) adlı qardaşı olduğu da qeyd edilib (154). Amma hələ ki, araşdırılan sənədlərdə Smirnovun yazdığı Abbasqulunun hakimiyyət uğrunda mübarizəsi öz təsdiqini tapmır. Arxiv sənədlərində I Kalbalı xanın Abbasqulu xan adında qardaşı qeydə alınmamışdır. Xarici ölkələrin tədqiqatçıları Kərim xanın bu Abbasqulu xanın oğlu olduğunu yazırlar (55, s. 174).

Abbasqulu xan hakimiyyətdə olmağa çox can atdığından, bəzən bir neçə xarici dövlətlə əlaqə saxlamış və onların yüksək rütbəli hərbiçiləri ilə məktublaşmışdır. Hər istiqamətdə yazdıqlarında hakimiyyətə gəlişinin əvəzində "onlara sadiq qul" olacağını önə çəkən Abbasqulu xan iradəsizlik göstərmiş və bu baxımdan bir çox tədqiqatçıların tənqid hədəfinə çevrilmişdir (18, s. 74). Onu da deyək ki, onun belə bir xarakterini kənara qoysaq, o da Naxçıvan xanlığının digər xanlıq və dövlətlərlə diplomatik münasibətlər qurulmasında həmin dövr üçün mühüm işlər görmüşdür.

1796-cı ildə I Kalbalı xan Abbasqulu xanın Naxçıvan xanlığına hakim olmaq iddiasını yox etmək üçün onu Ağa Məhəmməd şah Qacara əmanət göndərir (18, s. 63-64). Abbasqulu xan 1797-1801, 1804-1808-ci illərdə Fətəli şah və Abbas Mirzə tərəfindən Naxçıvana hakim təyin edilmişdir. Abbasqulu xanı sonralar Abbas Mirzə öz yaxın adamı kimi Naxçıvana hakim təyin edib. O isə İran, həm də Rusiya ilə gizli danışıqlar apararaq Naxçıvanda hakimiyyəti ələ keçirmək istəmişdir. Elə bu siyasətin nəticəsində Abbasqulu xan 1810-cu ildə İranda edam edilmişdir (82, s. 16).

Məşhur kəşfiyyatçı, ensiklopedik bilikli rus şərqşünası K.N.Smirnov çox zəngin olan Kəngərli arxivini (350-dən artıq sənədi) Tiflisə aparıb, orada erməni mənşəli alimlərə təhvil vermişdir. Bununla kifayətlənməyən alim yazdığı kitabda I Kalbalı xanın ulu əcdadlarını ayrı millətə aid etmişdir. Bu çox yanlış bir fikirdir. Çünki onun özü Kəngərli arxivindən 25 sənədin orijinalı ilə birlikdə tərcüməsini də çap etdirib və o sənədlərin çoxunda

“Kəngərlilərin qədim türk tayfası” olduğu yazılıb (129, s. 35-40).

Bir vaxtlar Şah İsmayıla atılmış böhtan XX əsrin əvvəllərində Smirnov tərəfindən I Kalbalı xana da atılmışdır. Necə ola bilər ki, ulu babaların türk olsun, sənin özünü isə ayrı millətə aid etsinlər. Bu, çox böyük saxtakarlıqdır.

Bütün ömrü boyu Qafqazın alovları içində at belində əlində qılınc azadlıq uğrunda müstəqillik amalı ilə döyüşən hünərli, qorxmaz sərkərdə I Kalbalı xan Kəngərli (Naxçıvanski) qəhrəmanlıqlarla dolu ömür yaşamışdır. Bu günədək onun atasının adını müxtəlif cür yazıblar. Buna əsas səbəb rus şərqşünası K.N.Smirnovun yazdıqlarıdır. Amma Smirnov heç bir mənbəyə əsaslanmayıb. Deməli, onun bu fikiri qeyri-dəqiqdir. Onun fikrincə I Kalbalı xanın atası Murad Xəlifə Diyarbəkirli olub. Bundan isə Moskva tədqiqatçıları tələm-tələsik istifadə edib, onun yazdıqlarını etalon kimi qəbul edib təkrarlamışlar. Rus hərbi şərqşünası və etnoqrafı İvan Şopen çox düzgün olaraq yazır: ”kəngərlilər Diyarbəkirdən gəlmə deyillər” (143, s. 123).Smirnovun Tbilisidəki elmi arxivində işləyərkən çox məsələlər aşkar oldu. Ona görə də K.N.Smirnovun yazdıqlarına ciddi yanaşmaq lazımdır.

2005-2006-cı illərdə Gürcüstan Milli Arxivində araşdırmalar zamanı podporuçik Nəcəfqulu ağa Nəzərəli xan oğlunun Gürcüstan-İmereti qubernatorluğuna yazdığı bir ərizəni tapa bildik.

Aşkar olunmuş ərizədə I Kalbalı xanın atasından miras qalan Badamlı kəndi haqqında danışılır. I Kalbalı xanın vəfatından sonra onun arvadı Tükəzban xanımın idarə etdiyi bu kənd haqqında olan sənədlər toplusu cəmi 7 səhifədən ibarət olsa da, bir çox məsələlərə aydınlıq gətirdi. Bu iş 20 iyul 1845-ci ildə başlayıb 14 may 1846-cı ildə başa çatdırılıb. Burada ən maraqlı məsələlərdən biri I Kalbalı xanın atasının adının Ehsan xan olduğunun ilk dəfə aşkarlanması oldu. Çünki podporuçik Nəcəfqulu ağanın 19 mart 1829-cu ildə Tiflisdə yazdığı ərizədə göstərilib

ki, bu kəndə aid sənəd hicri 1170-ci ildə I Kalbalı xanın atası Ehsan xana aiddir. Onun qeyd etdiyinə görə bu kənd 82 il öncə ulu babası Ehsan xana məxsus olub, ondan isə miras kimi oğlu Kalbalı xana qalıb. Bu sənəddə göstərilir ki, I Kalbalı xanın arvadı Tükəzban xanım 12 iyun 1833-cü ildə vəfat edib (173). Alicah Ehsan xan adına "Naxçıvan torpaq mülkiyyətinə aid XVII-XVIII əsr Kəngərli arxeoqrafik sənədləri" kitabında da rast gəlirik. 1761-ci ilə aid sənəddə (№ 9) Alicah Ehsan xan adı çəkilir (51, s. 49).

V.S.Puturidzenin "Gürcüstan kitabxanalarında fars dilli tarixi sənədlər" kitabına əsaslanaraq tədqiqatçı alim T.Musəvi I Kalbalı xanın ulu əcdadlarının da Kəngərlilərdən olduğunu təsdiqləyir: "II Şah Abbasın hicri 1070-ci ilin ramazan ayı (1660, may) tarixli digər hökmündən məlum olur ki, o dövrdə Əliqulu xan Kəngərli Naxçıvanın hakimi olmuşdur (43, s. 40). Məhəmməd Tahir Vəhidin "Abbasnamə" əsərində Əliqulu xanın atası Kəngərli Murad xan Sultanın da Naxçıvanda hakim olması qeyd edilmişdir."Abbasnamə" əsəri Sankt-Peterburqdakı Saltıkov-Şedrin adına Dövlət kitabxanasında, akademik Dornun fondunda (№30312) saxlanılır (41, s. 40). Bu kitab 1828-ci ildə Ərdəbildəki Şeyx Səfi məqbərəsindəki kitabxanadan aparılıb.

Kəngərli Murad xan Sultanın adının yanında xəlifə yazılması isə həmin şəxsin hakimiyyətdə müavin olduğunu bildirir. Səfəvi şeyxləri özlərinin ən sədaqətli və inanılmış adamlarını həmin titulla təltif edirdilər.

Əvvələr tərtib edilən Naxçıvan xanlarının şəcərəsində I Kalbalı xanın nəsil qolunun Murad xandan başlandığı yazılıbsa, bu heç də onun atasının Murad xan olması demək deyil. Araşdırmalar göstərir ki, I Kalbalı xanın atası Ehsan xan Murad xanın oğul nəticəsi, yaxud kötücəsidir. Tarixi sənədlərdən götürülən məlumatlar I Kalbalı xanın Naxçıvanın müstəqilliyini qorumaq üçün özünə güclü hərbi müttəfiqlər axtarmasından xəbər verir. Bu isə İran şahı Ağa Məhəmməd Qacarı çox qəzəbləndirirdi.

Sonralar Ağa Məhəmməd Şah Qacar Naxçıvana yolladığı süvari dəstəsinə konkret əmr vermişdi :xanlığı darmadağın edib, əhalini İranın ucqarlarına köçürsün. Ağa Məhəmmədin budəfəki qoşunlarına müqavimət göstərə bilməyəcəyinə əmin olan Naxçıvan xanı Kalbalı xan yurdunu, özünü və əhalini gözlənilən bəladan qurtarmaq üçün şəxsən qiymətli hədiyyələrlə Ərdəbilə gedib şahdan imdad istədi. Ağa Məhəmməd şah ondan hədiyyələri alsada, V.Zubov ilə məktublaşdığına və Rusiya dövlətinin himayəsinə keçmək istədiyinə görə onun gözlərini çıxartdırıb bir məhbus kimi Tehrana göndərdi" (66, s. 380-381, 642).

Yeri gəlmişkən buradaca tarixi bir faktı dəqiqləşdirək: I Kalbalı xanın gözləri nə zaman və harada çıxarılıb? Bəzi tədqiqatçılar bu qanlı hadisənin 1795-ci ildə Əsgəran qalasında (Qarabağda) baş verdiyindən söhbət açsalar da, aparılan araşdırmalar göstərdi ki, bu fakt yanlışdır. Tədqiqatçı alimlər F.Əliyev və M.Əliyev akademik P.Q.Butkova istinad edərək bu hadisənin 1797-ci ildə baş verdiyini yazmışlar (18, s. 65). Qarabağ və Naxçıvan xanlıqlarına aid sənədləri araşdırarkən aydın olur ki, I Kalbalı xanın Ağa Məhəmməd şah Qacar tərəfindən cəzalandırılması 1797-ci ildə yanvar ayında Ərdəbildə olub. Belə ehtimal edirik ki, Ərdəbil yaxınlığındakı Seyidlər kəndində I Kalbalı xanın gözlərini çıxarıblar. Çünki orada Ağa Məhəmməd şahın iqamətgahı yerləşirdi. Mənbələrə görə Ağa Məhəmməd şahın Qarabağa ikinci yürüşü də I Kalbalı xanın gözləri çıxarılandan 3 ay sonra başlanıb. Deməli, Qarabağa ikinci yürüş təxminən mayın əvvəllərində olub. Çünki Ağa Məhəmməd 1797-ci ilin 7 mayında qətlə yetirilib (63, s. 128).

Bu haqda o vaxtlar Qafqazda hərbi səfərlərdə iştirak edən və şəxsən I Kalbalı xanı tanıyan P.Q.Butkov və N.F.Dubrovin öz kitablarında məlumat vermişlər (82, s. 427-428; 93, s. 20).

Ağa Məhəmməd Şah Qacar öldürüldükdən sonra hakimiyyətə Fətəli şah gəldi. Bu zaman o, I Kalbalı xanı həbsdən azad etsə də, ona Naxçıvanda yox, İrəvanda yaşamağa icazə verdi. Həmin

illərdə İrəvan xanlığına onun qaynı Məhəmməd xan İrəvanski hakimlik edirdi. Bəzi tədqiqatçılar Məhəmməd xanı I Kalbalı xanın qayınatası yazırlar. Yenə də onlar bu məsələdə K.N.Smirnova əsaslanırlar. Amma bu fikir tamamilə əsassız və yanlışdır. Çünki bir çox mənbələrdə, o cümlədən arxiv sənədləri əsasında yazılmış Qafqaz Aktlarında olan faktlar tədqiqatçıların bu ideyalarını təkzib edir. 1868-ci ildə Tiflisdə nəşr edilən Qafqaz Aktlarının II cildində yazılıb ki, Səltənət bəyim Məhəmməd xan İrəvanskinin doğma bacısıdır (67, s. 856; 70, s. 755). Əgər tarixin bir az da keçmiş səhifələrinə nəzər salsaq, qeyd edə bilərik ki, Əhməd xan Xoyski (1763-1786-cı illərdə xanlıq edib) İrəvan üzərində öz nüfuzunu saxlamaq üçün 1783-84-cü illərdə özünün 30 yaşlı qızını 12 yaşlı Məhəmməd xan İrəvanskiyə ərə verib (37, s. 49). Deməli, 1772-ci ildə İrəvan xanı Hüseynəli xanın ailəsində doğulan Məhəmməd xan Tükəzban xanımın (I Kalbalı xanın arvadı) atası ola bilməz. Çünki Tükəzban xanımın birinci övladı Nəzərəli xan 1776-cı ildə doğulub.

Digər tərəfdən İrəvan xanlarının "Məktublar" külliyyatının orijinalı hazırda İrəvan şəhərindəki "Matenadaran"da (Mətndaran) saxlansa da, şərqşünas K.N.Smirnov və azərbaycanlı alim Cahangir Qayıbov həmin məktubları ruscaya tərcümə etmişlər. Bu məktublar Smirnovun fondunda saxlanılır (154). Həmin fondda (№ 36) İrəvan xanlarının yazışmalarını (Hüseynəli xanın və iki oğlunun–Qulaməli və Məhəmməd xan qardaşlarının məktubları) oxuyub öyrənərkən məlum oldu ki, Məhəmməd xanın və iki doğma bacısının anası Şadılı tayfasındandır. Amma tarixçi O.Markova və digər tədqiqatçılar da onun anasının gürcü qızı olduğunu yazırlar. Hətta bəzi kitablarda isə yanlış olaraq Qulaməli xanı Məhəmməd xanın atası kimi göstərirlər (17, s. 74). Bu fikir də düzgün deyil, Qulaməli xan onun ana ayrı qardaşıdır və ehtimal etmək olar ki, Qulaməli xanın anası gürcü qızı olub. Məhəmməd xanın bacısı Səltənət xanım əvvəlcə Xoy xanı Əhməd xanın, sonra isə məşhur general, Xoy və Şəki xanı

Cəfərqulu xanın arvadı olub (66, s. 755; 856). Səltənət xanım Əhməd xandan olan oğluna Kalbalı xan adını qoyub. Hətta Qafqaz Aktlarında səhv olaraq general-mayor Kalbalı xan Xoyskini general-mayor Naxçıvanski kimi də yazıblar. Bu, ola bilməz. Çünki general-mayor Kalbalı xan Xoyski əsasən Gəncədə yaşayıb. Onun haqqında Tbilisi və Moskva arxivlərində xeyli məlumat var. O, Azərbaycan Xalq Cümhuriyyətini quranlardan biri olan Fətəli xan Xoyskinin ata babasıdır. Sadəcə, Kalbalı xan Xoyski I Ehsan xanla xalauşağıdırlar.

I Kalbalı xan 1800-1803-cü illərdə İrəvan xanlığının qoşunlarına başçılıq etmiş, Məhəmməd xanın müşaviri və xanlığın hərbi rəisi olmuşdur (66, s. 117-119). İrəvan xanlığının müstəqilliyi uğrunda dəfələrlə İran və Rusiya qoşunlarına qarşı vuruşmuşdur.

O, İrəvan xanlığı ilə Kartli-Kaxeti çarlığı arasında olan mübahisəli ərazi məsələsinin- Pəmbək və Şuragölün İrəvan xanlığına qaytarılması üçün hərbi toqquşmalarda da olmuşdur. 1808-ci ilin yazında onu həbs edib yenidən Tehrana aparmışlar (66, s. 713).

Sonralar yenə də həbsdən azad edilmiş və 1810-cu ildə Rusiya qoşunlarına qarşı vuruşmuşdur (69, s. 738-739; 133, s. 41-43).

Onu da qeyd edək ki, İrəvanda yaşadığı illərdə İrəvan xanlığını I Kalbalı xan idarə etmişdir (34, s. 67).

I Kalbalı xanın hicri 1221-ci il şəvval ayında (miladi 1806) Naxçıvan xanlığının hərbi rəisi Lütfəli Sultana ünvanladığı əmri onu mahir sərkərdə olduğunu təsdiqləyən sənədlərdən biridir (129, s. 32-34).

I Kalbalı xan həmin əmrdə Kəngərli tayfasının sultanlarını, sadə işçilərini və döyüşçülərini də nəzərdə tutaraq yazır ki, silah gərək anbarda saxlanmasın, əldə tutulsun. O, Lütfəli Sultana göstəriş verir ki, adbaad qeydetmə keçirilsin və döyüşçülər nizamla dəstə şəklində yola düşsünlər. Əmrin haşiyəsində isə süvari dəstəsinə oğlu Nəzərəli xanın komandirliyini məsləhət

görür. Həmin əmrə I Kalbalı xanın möhürü vurulub: "Allahdan başqa Allah yoxdur. Sədaqətdə çox möhkəm Kalbalı xan" (129, s. 32-34). Doğrudan da, I Kalbalı xan dostluq etdiyi şəxslərə heç vaxt xain çıxmayıb. I Kalbalı xan Qars paşası Neman Paşa ilə çox səmimi və etibarlı dostluq, hərbi müttəfiqlik əlaqəsi də saxlamışdır (66, s. 624- 630).

Naxçıvan xanlarının hakimiyyət şəcərəsinə görə, Kərim xan Kəngərli müəyyən fasilələrlə 1808, 1813-1816, 1823-1828-ci illərdə Naxçıvan xanlığının hakimi olmuşdur (129, s. 109-119). Amma bu günədək ən mübahisəli məsələ Kərim xanın kimin varisi olması ilə bağlıdır. Az qala 2 əsrə yaxın bir müddətin keçməsinə baxmayaraq, yuxarıda dediyimiz məsələ həllini tapmamış, qaranlıq qalmaqdadır. Nəşr edilmiş elmi monoqrafiyalarda Kərim xanı I Kalbalı xanın qardaşı, qardaşı oğlu və əmioğlusu adlandırırlar. 1996-cı ildə Bakıda nəşr edilmiş "Naxçıvan xanlığı" kitabında müəlliflər yazırlar: "Naxçıvanda A.P.Yermolov üçün Kalbalı xanın qardaşı Kərim xanın evi ayrılmışdı. Lakin tezliklə Kalbalı xanın qardaşı oğlu Kərim xan Kəngərli hakimiyyəti öz əlinə keçirdi" (18, s. 90, 94). Bu haqda mənbələr göstərilməsə də, aşkardır ki, müəlliflər rus hərbi tarixçilərinin yazdıqları kitablardan istifadə etmişlər. Həmin kitabların hamısı Tbilisidə İlya Çavçavadze adına Gürcüstan Milli Kitabxanasının xüsusi fondlarında saxlanılır və biz onlarla tanış ola bilmişik. Onların da yazdıqlarında Kərim xan həmin qaydada oxuculara təqdim edilir. Bu isə çox qarışıqlıq və çətinlik yaradır.

Kərim xan 1828-ci ildən sonra Marağada yaşayıb işlədiyindən onun haqqında xarici ölkədəki tədqiqatçılarda olan məlumatlar daha çoxdur. Biz çalışdıq ki, Abbasqulu xanın Kəngərli xanlarının şəcərəsində kimin varisi olduğunu müəyyənləşdirək. 1833-cü ilə aid Tiflis arxivindəki məxfi sənədlərdən aydın oldu ki, onun (Abbasqulu xanın) oğlanlarının adları Rəhim xan və Şahbaz xandır (187, s. 54). Burada əsas söhbət 1828-ci ildə Kərim xanın ailəsi ilə birlikdə Irana getmiş Tellibəyimə məxsus mülklərdən

gedir. Tellibəyim Rəhim xanın qızı idi. Kərim xanın oğlu İmamqulu xanın həyat yoldaşı olduğundan onlarla birlikdə mühacirət etmişlər. Başqa bir arxiv sənədində bildirilir ki, Tellibəyim Abbasqulu xanın oğlu (yəni, Rəhim xanın-M.Q.) və Şükrulla xanın qızının övladlarıdır" (14, s. 32). Buradan aydın oldu ki, Tellibəyim hər iki Naxçıvan xanlarının nəvəsidir. Məxfi sənəddə bildirilir ki, Abbasqulu xan 1813-cü ildə bir çox mülklərini nəvəsi Tellibəyimə sənədlərlə hədiyyə verib. Bu faktın özü də təsdiqləyir ki, Naxçıvana uzun illər xanlıq edən Abbasqulu xan Rəhim xanın oğludur. Sonralar o, atasının adını oğluna qoyub ki, onun da qızı Tellibəyimdir. Ola bilər ki, bu Abbasqulu xanın Kərim xan adında oğlu olub.

F.Əliyev, Əliyev M. "Naxçıvan xanlığı" kitabında yazırlar: "Ağa Məhəmməd xan bilirdi ki, Kalbalı xanın göndərdiyi Abbasqulu xan onun doğma qardaşı deyil. Onu da bilirdi ki, Kalbalı xan əmisi oğlu Abbasqulu xanı sevmir" (18, s. 64). Yenə də istinad olunan mənbə yoxdur. Naxçıvan xanlığı haqqında yazan digər tədqiqatçıların əsas söykəndikləri 1996-cı ildə nəşr edilən monoqrafiyadır. Biz bütün bu yazılanları diqqətlə öyrənərək belə nəticəyə gəlirik ki, Kərim xan hakimiyyət uğrunda mübarizə aparan Abbasqulu xanın oğludur.

Abbasqulu xan ömrünün son illərini Fətəli şahın yanında yaşayıb və rus hərbi tarixçisi Butkovun məlumatına görə edam edilib. Kərim xan da Abbas Mirzənin yaxın adamlarından, həm də onun ordusunun polkovniki olub. Bacarıqlı hərbçi kimi ad qazanıb. 1828-ci ildə Naxçıvan xanlığına sahib olmaq üçün Rusiya qoşunları ilə döyüşüb (69, s. 943). Məsələn, Xok kəndində gedən döyüşlərdə komandirliyi o edirmiş. Kürəkəni I Ehsan xanla Ordubadda, Vənənddə qanlı döyüşləri olub. Hərbiçi V.A.Pottonun kitabında I Ehsan xanla Kərim xanın Ordubaddakı döyüşləri ətraflı təsvir edilib. O, Ehsan xanı 10 gün ac-susuz mühasirədə saxlasa da, ona qalıb gələ bilmir. Həmin sənəddə deyilir ki, Kərim xanın 1000 nəfər sərbazı I Ehsan xanın yanında

olan çox az sayda yaxınları ilə döyüşsələr də məğlub olublar (130, s. 422-431). Buradan aydın olur ki, Kərim xanın ikiüzlü siyasətinin axır nəticəsi Ordubad və Vənənd döyüşləri ilə nəticələnib. Onun Abbas Mirzəyə və qraf Paskeviçə yazdıqlarını oxuyanda mənasız "ikiüzlü diplomatiya"nın uğursuz olduğu apaydın görünür. Amma bununla belə Kərim xan Kəngərli Naxçıvan xanlığını müxtəlif illərdə idarə etmiş bir hərbçidir və tariximizdə yaşayır.

Naxçıvan xanlığını idarə edən Kəngərli xanları qonşu xanlıqlarla, həmçinin İran, Türkiyə və Rusiya dövlətləri ilə müstəqil xarici siyasət aparırdılar. Naxçıvan xanlığının özünəməxsus daxili və xarici siyasəti vardı. Heç təsadüfi deyil ki, amerikalı azərbaycanşünas T.Svyataxovski xanlıqlar dövrünü Azərbaycan tarixində müstəqillik dövrü adlandırıb (62, s. 26). Aparılan müstəqil siyasətin əsasında Naxçıvanın müstəqilliyi həmişə önə çəkilirdi. Bu baxımdan Naxçıvan xanlığını idarə edən Kəngərli xanları, xüsusi ilə I Kalbalı xan dövlətçilik tariximizdə mühüm işlər görmüşlər.

## 2.2.Naxçıvan xanlığının Kartli-Kaxetiya çarlığı və qonşu dövlətlərlə hərbi-siyasi münasibətləri

Azərbaycan və gürcü xalqları arasında dostluğun tarixi çox qədimdir. Buna baxmayaraq Naxçıvan xanlığı ilə Gürcüstan, xüsusilə Kartli-Kaxetiya çarlığı arasındakı əlaqələr olduqca az tədqiq edilmişdir.

Aparılan araşdırmalar göstərir ki, Naxçıvanla Gürcüstanın XVIII əsrin ikinci yarısında tarixi şəraitdən asılı olaraq siyasi və iqtisadi, həmçinin hərbi əlaqələri onun müttəfiqi Qarabağ xanlığının vasitəçiliyi ilə olmuşdur. (75, s. 160-161). Bunu Tiflisdə Gürcüstan Milli Arxivində saxlanılan sənədlər, o cümlədən digər gürcü mənbələri də təsdiq edir (85, s. 135). Bu əlaqələrin bünövrəsi çar II Teymurazın vaxtında qoyulsa da, əsasən II İraklinın hakimiyyəti illərində geniş vüsət tapmışdır (119, s.

175). Naxçıvan xanlığının əsasını qoyan Heydərqulu xan Kəngərli II İraklinin atası Teymurazla çox yaxşı dostluq münasibətləri yaratmışdı (75, s. 160-161). Sonralar bu dostluğu onun oğlu II İrakli zəiflətmiş və qonşu xanlığın ərazisini zəbt etmək üçün gizli diplomatik yollar axtarmışdır (119, s. 174). Çar II İrakli (1720-1798) Gürcüstanın görkəmli dövlət xadimi və sərkərdəsi kimi 1744-cü ildən Kaxetiyaya, 1762-ci ildən isə həm də Kartliyə, bir sözlə bütün Şərqi Gürcüstana padşahlıq etmişdir (4, s. 501-502). 1762-ci ildə atası II Teymuraz Peterburqda vəfat etdi (23, s. 25).

XVIII əsrin 50-ci illərindən başlayaraq II İrakli Şərqi Gürcüstanın Rusiya ilə münasibətini bərpa etməyə çalışmışdır. Rusiyanın köməyilə o, eyni zamanda Şərqi Gürcüstanı büsbütün İranın boyunduruğundan qurtarmaq və Zaqafqaziyada hakim mövqe tutmaq məqsədini də güdürdü.

Rusiya ilə Gürcüstan arasında bağlanan Georgiyevski müqaviləsindən sonra Qafqaz regionunda Kartli-Kaxetiya çarlığının nüfuzu xeyli yüksəldi. Bu siyasi hadisələr Qafqazda marağı olan üç böyük dövlətin- Rusiyanın, Türkiyənin və İranın münasibətlərini daha da gərginləşdirdi. Belə bir şəraitdə Naxçıvan xanlığının güclü hərbi müttəfiqə ehtiyacı yarandı. Doğrudur, Naxçıvan xanlarının heç də hamısının Gürcüstanla diplomatik əlaqəsində kor-koranə itaətsizlik olmamışdır. Məsələn, Abbasqulu xan Kəngərli hakimiyyətə gəlmək üçün çar II İrakliyə hədsiz inanıb güvənmişsə də, ancaq I Kalbalı xan Kəngərli yalnız naxçıvanlılara arxalanmaqla Kartli-Kaxetiya çarlığı arasında dostluq münasibətləri yaratmışdır (18, s. 60).

Gürcüstanın müasir tarixçilərindən K.Kikodze II Teymuraz və II İraklinin qonşu ölkələrlə daha geniş diplomatik əlaqələr qurmağından bəhs edir. Kikodze II İraklinin həyatına və fəaliyyətinə dair yazdığı "II İrakli" kitabında qeyd edir ki, Gürcüstan çarı İrana qədər gedib orada "qayda-qanun yaratmaq fikrində idi". II İraklinin belə bir niyyəti bütün Azərbaycan xanlıqlarını, o

cümlədən Naxçıvan xanlığını da təşvişə salmışdı. Artıq onlara məlum idi ki, II İrakli İrəvanı və Naxçıvanı da Gürcüstana ilhaq etmək həvəsindədir (65, s. 106).

Heydərqulu xanın vəfatından sonra hakimiyyətə gəlmiş xanlar da Kartli-Kaxetiya çarlığının müttəfiqliyinə bel bağlamışlar. Onlardan Abbasqulu xan Kəngərli xanlıq taxtında əyləşmək üçün Gürcüstanla dostluq münasibətlərini möhkəmlətmişdir. Qeyd eymək lazımdır ki, Xoy xanlığı, Qarabağ xanlığı və Kartli-Kaxetiya çarlığı üzdə Naxçıvan xanlığına özünü dost kimi göstərsələr də, gizlində Naxçıvanı zəbt etmək üçün bütün vasitələrdən istifadə edirdilər. Adlarını çəkdiyimiz bu xanlıqların hakimləri istəyirdilər ki, öz adamlarını xanlıq taxtına oturtsunlar. Xoylu Əhməd xan Cəfərqulu xanı, Kartli-Kaxetiya çarı II İrakli isə onun əmisi oğlu Abbasqulu xanın xanlıq taxtında oturması üçün çalışırdı. Çünki Kartli-Kaxetiya çarı Rusiya vasitəsilə Naxçıvanı zəbt etmək istəyirdi.

Çar II İrakli Azərbaycan xanlıqlarının hər bir işinə bilavasitə, yaxud dolayı yolla müdaxilə edirdi. Bu isə xanlıqlar arasında ziddiyyətlərin dərinləşməsinə səbəb olurdu. Belə hal Rusiyaya və onun himayəsində olan Kartli-Kaxetiya çarlığına sərfəli idi. Əlimurad və Əhməd xanın qoşunlarının qarşısını ala bilməyən Abbasqulu xan yenidən Naxçıvanı tərk etməyə və Tiflisə qaçaraq II İraklidən kömək istəməyə məcbur oldu. Onu da qeyd etmək lazımdır ki, hakimiyyətə keçdiyi gündən Cəfərqulu xan Naxçıvan camaatını çox incidirdi. Bu səbəbdən naxçıvanlılar 1783-cü ildə II İrakliyə kollektiv məktub göndərmişdilər: "Cəfərqulu xanın Naxçıvan əhalisi ilə necə qəddar rəftar etdiyi xəbərini sizin hüzurunuza çatdırmaqla bildiririk ki, onun zülmkarlığı xalq içərisində elə geniş yayılıb ki, əhali pərən-pərən düşüb, başqa yerlərə getməyə məcbur olmuşlar" (18,s.51). Bu məktubu göndərənlər Abbasqulu xanı dəstəkləyənlər idi.

Gürcüstanda sığınacaq tapan Abbasqulu xan isə II İrakliyə yazdığı məktubunda öz təşəkkürünü aşağıdakı sözlərlə bitirir:

"Qoy Allahın rəhmi çarın xəstəliyini Abbasqulu xana versin. Sizin xeyirxahlığınız nəticəsində vəziyyətim yaxşıdır və sizə sədaqətliyəm. Allahın köməyi və sizin sayənizdə yaxşıyıq və sizə dua edirik".

Məktubunun ardında Abbasqulu xan Gürcüstana gəldikdən sonra Naxçıvandakı vəziyyəti təsvir edir. O yazır ki, Naxçıvandan getdikdən 3 gün sonra "məni sevən rəislərdən Ağası bəy, Məmmədəli Sultan, Əliqulam Sultan, İlxas Sultan və onun oğlu Hüseynəli bəy və başqaları Cəfərqulu xanın pis rəftarına və onları incitdiyinə görə mənim yanıma gəlmişlər" (18, s. 52).

Xoylu Əhməd xan Cəfərqulu xanın taxta çıxmasına kömək etsə də, Naxçıvana əlavə qoşun göndərmədi. Çünki II İraklidən ehtiyat edirdi. Buna əsas səbəb isə Rusiyanın iki batalyonunun Tiflisdə olması idi. Bu münasibətlə Abbasqulu xan II İrakliyə yazırdı: "Əhməd xan bilir ki, siz məni hər vasitə ilə müdafiə edəcəksiniz. Ona görə də Cəfərqulu xana rədd cavabı verdi. O, siz həzrətlərə qarşı çıxmağa cəsarət edə bilməz" (18, s. 53).

II İrakli isə Əhməd xana məktub yazaraq bildirirdi ki, o, Abbasqulu xanla Cəfərqulu xan arasındakı münasibətlərə toxunmasın və Naxçıvanda baş verən hadisələrlə işi olmasın. Əks təqdirdə o, digər xanlar arasında öz nüfuzunu itirə bilər.

İkiüzlü siyasət aparan II İrakli Rusiyanın hakim dairələrinə isə yazırdı: "... Belə hesab edirəm ki, Azərbaycana sahib olmaq Rusiya üçün əlverişlidir. Sonra isə həmin torpaqların bir hissəsini mənə güzəştə gedərsiniz". O, bir hissə dedikdə Gəncəni, İrəvanı, Naxçıvanı və Şəkini nəzərdə tuturdu. Bunu onun yazdığı digər bir məktubda açıqlayırdı: "... Gürcüstanı ləzgilərin təhlükəsindən qurtarsın, Gəncədə, İrəvanda onun hakimiyyətini təsdiq etsin və Naxçıvanı da ona tabe etdirsin" (119, s. 175).

Azərbaycan xanları onu özlərinə sadiq müttəfiq hesab edirdilər. Buna əsas səbəb isə onların qüdrətli Rusiyaya arxalanan Kartli-Kaxetiya çarlığını da güclü bilmələri idi.

Rəhim xanın oğlu Abbasqulu xan Kəngərli yenidən Naxçıvan

xanlığına hakimiyyətə qayıtmaq arzusunda idi. O da çar II İrakli kimi Rusiyanın qəyyumluğunu qəbul etmək istəyirdi ki, Rusiya dövləti ona kömək etsin. Buna görə də Abbasqulu xan Rusiyanın Kartli-Kaxetiya çarlığındakı qoşunlarının başçısı S.D.Burnaşevə yazmışdı: "Çar İrakli ilə yaxınlıq edərək, imperator həzrətlərinin hakimiyyəti altında olmağı arzulayır və başqa xanları da belə addım atmağa çağırıram" (184).

Qeyd edək ki, S.D.Burnaşev Rusiya ordusunun polkovniki və knyaz Potyomkinin 1783-cü ildə Kartli-Kaxetiya çarı II İraklinin və İmereti çarı I Solomonun yanında komissioneri idi. Abbasqulu xanın Rusiyanın qəyyumluğunu qəbul etmək arzusunu II Irakli general-poruçik Q.A.Potyomkinə xəbər verdi: "Dəhşətli çaşqın vəziyyətində olan naxçıvanlı Abbasqulu xan bizdən xahiş edir ki, biz ona öz mülkiyyətinə qayıtmağa kömək edək və o, imperatriçəyə tabe olacağını bildirir" (18,s.54).

II İrakli Q.A.Potyomkinə izahatında yazırdı: "Bu yaxınlarda Abbasqulu xan xahişlə Naxçıvan ağsaqqallarını yanımıza göndərmişdi. Həmin sənədin tərcüməsini biz cənab Burnaşevə verdik ki, o, sizin hüzurunuza təqdim etsin" (184, v. 80). Naxçıvandakı vəziyyətlə tanış olan Q.A.Potyomkin öz cavabında Burnaşevə bildirdi ki, o mahiyyət etibarilə Abbasqulu xanın Naxçıvanda hakimiyyətə gəlməsinə etiraz etmir, "...mənim adımdan Kartli-Kaxeti həzrətlərinə elan edin ki, mən bu hadisələrdə ona mane olmaq istəmirəm" (184,v.365;18, s. 54). Belə məktubdan ruhlanan çar II İrakli öz müttəfiqi Qarabağ xanı İbrahim xanla birlikdə Naxçıvan xanlığı üzərinə yürüşə hazırlaşmağa başladı. Bu yürüşə II İrakli böyük ordu toplamışdı. Təkcə Şəmsəddin, Xəzani, Peydar, Pəmbək, Dəmirçi Həsəndən toplanmış yerli azərbaycanlı döyüşçülərin sayı 4000-ə çatırdı. Qarabağ xanı İbrahim Xəlil xan isə bu yürüşdə iştirak etmək üçün 2000 atlı ayırmışdı. Türkiyə sultanından qorxan II İrakli yürüşü həyata keçirə bilmədi (18, s. 55).

Bu arada Abbasqulu xan İrəvandan Naxçıvana gəlsə də

hakimiyyəti onun yaxın qohumu Şükürəli xan öz əlinə keçirdi. Ancaq iki ildən sonra Cəfərqulu xan tərəfindən devrildi.

Cəfərqulu xan yenidən Naxçıvan xanlığında hakimiyyəti ələ keçirdiyi zaman Abbasqulu xan Naxçıvan taxtını özünə qaytarmaq məqsədi ilə dəfələrlə gah qarabağlı İbrahimxəlil xana, II İrakliyə, gah da Rusiyanın Qafqazdakı hərbi dairələrinə müraciət edirdi.

Azərbaycan xanlıqları ilə münasibətləri pozmamaq xatirinə II İrakli hətta Naxçıvan xanlığının Cəfərqulu xanla Abbasqulu xan arasında Xoy xanı Əhməd xanın vasitəçiliyilə iki yerə bölünməsini təklif etdi.

Ancaq xanların başları öz işlərinə qarışdığından heç kim II İraklinin təklifini yerinə yetirmədi. Onu da deyək ki, Qafqazda çox ehtiyatlı diplomatiya aparan Rusiya Georgiyevsk müqaviləsindən sonra "müsəlman xanlarına" "hədiyyələr" göndərirdi və onlara "xəbərdarlıq" məktubları da göndərməyi unutmamışdı. Həmin məktublarda xanlara məsləhət görülürdü ki, Gürcüstanla münasibətlərini nizama salsınlar (18, s. 58).

I Kalbalı xan hakimiyyətə gəldikdən sonra Naxçıvan xanlığı ilə Gürcüstan, xüsusilə Kartli-Kaxetiya çarlığı arasında diplomatik münasibətlər daha da möhkəmləndi. I Kalbalı xan II İrakli ilə dostluq münasibətləri qurdu və ondan tələb etdi ki, Naxçıvan xanlığına birmənalı şəkildə hörmətlə və sədaqətlə yanaşsın.

Mühüm hərbi strateji və geosiyasi mövqeyə malik olan Naxçıvan xanlığı qonşu dövlətlər olan Rusiya, İran və Osmanlı Türkiyəsi ilə həmişə normal münasibətlər saxlamağa çalışmışdır. Amma hər üç dövlət Azərbaycan xanlıqlarının, onlardan biri olan Naxçıvan xanlığının müstəqilliyi ilə barışmadıqlarından həmin dövlətlərlə çox dərin diplomatik münasibətlər yaranmamışdır.

Naxçıvan xanlığının qonşu dövlətlərlə, o cümlədən Osmanlı imperiyası ilə siyasi münasibətləri dərindən araşdırılmadığından öyrənilən sənədlər içərisində "Qafqaz Aktları" (I cild) və "Qafqaz

araşdırmaları” (Kafkas araştırmaları) xüsusi əhəmiyyətli mənbələrdir. Osmanlı hökuməti isə Azərbaycan xanlıqları ilə əlaqəsini çar Rusiyası ilə imzaladığı müqavilələrə əsasən qurur və çar Rusiyasının Azərbaycan xanlıqlarına qarşı cızdığı planı silah gücü ilə alt-üst edə bilmədiyindən diplomatik kanallar yolu ilə hadisələrə müdaxilə etməyə çalışırdı.

Çıldır valisi Süleyman Paşa xəbər tutdu ki, II İrakli çar Rusiyasının köməyi ilə Gəncə, İrəvan və Naxçıvan xanlıqlarını tutmaq fikrindədir. O zaman Süleyman Paşa Osmanlı imperiyasının sultanına bu haqda məlumat göndərdi. Osmanlı sultanının 1775-ci il tarixli fərman və hədiyyələrini onlara çatdırdı.

Bu çağırışa Qarabağ xanı İbrahimxəlil xan, Naxçıvan xanı Cəfərqulu xan cavab yazıb razılıqlarını bildirmişdilər (33, s. 44). Sonralar Naxçıvan xanlığının xanı olmuş I Kalbalı xan Qars, Çıldır və Axalsıx paşaları ilə dostluq münasibətləri saxlamışdır (66).

Türkiyə ilə İran arasında bağlanan “Dövlət-Aliyyə arasında sülh” müqaviləsinə əsasən İran sərhədlərinə yönəlmiş hər hansı əsgər müdaxiləsi qeyri-mümkün olduğundan, Türkiyə Azərbaycan xanlıqlarını müdafiə edə bilməzdi (40, s. 77).

İran hökmdarı Ağa Məhəmməd xan Qacar isə Türkiyə ilə yaratdığı neytral münasibətdən istifadə edərək Azərbaycan xanlıqlarını və Cənubi Qafqazı işğal etmək üçün hərbi yürüşə hazırlıq görürdü. Artıq Qafqazda bir-birlərinə rəqib olan İran və Rusiya birbaşa üz-üzə dayanmışdılar. Belə bir halda Naxçıvan xanlığı da öz təhlükəsizliyi üçün hazırlıq görürdü. Türkiyə ilə İranın bu yürüşdə eyni cəbhədə olduqlarını bilən I Kalbalı xanın Rusiya dövlətinin Şamaxı xanlığındakı hərbiçiləri ilə danışıq aparması təbii idi. Bəzi tədqiqatçılar guya bu diplomatik danışıqlara “xəyanət” kimi baxırlar və haqq qazandırırlar ki, Ağa Məhəmməd şah vahid Azərbaycan dövləti yaratmaq məqsədi ilə yürüşlər edib.

Azərbaycan xanlıqları böyük təşviş içində idilər. Çünki

Türkiyə ilə çıxış qapıları olan Naxçıvan və İrəvan xanlıqlarının İran tərəfindən işğal edilməsi Türkiyəyə olan yolların bağlanması demək idi. Ona görə də ancaq və ancaq Rusiya ilə danışıqlar aparmağı qərarlaşdırırdılar. Belə hal, əlbəttə, Rusiyaının xeyrinə idi. Digər tərəfdən Qubalı Fətəli xanın oğlu Şeyxəli xan Rusiya tərəfindən imtina etsə də, Türkiyədən istədiyi köməyi ala bilmədi. Bütün bunlar hamısı Rusiyanın Cənubi Qafqazı işğal etmək planlarını reallaşdırırdı. Azərbaycan xanları baş qərargahın onlara müraciətinə müsbət münasibət bəslədilər. Onlar Rusiya dövlətinin təbəəliyini qəbul etməyə və birlikdə İran təcavüzünə qarşı mübarizə aparmağa hazır olduqlarını bildirdilər (10, s. 78).

Bu zaman rus qoşunlarının quruda və suda ali baş komandanı general-mayor qraf Valerian Zubov təyin edildi.

Naxçıvan xanlığının qonşu xanlıqlarla və Qafqazda marağı olan böyük dövlətlərlə möhkəm, sabit və qarşılıqlı münasibətlər qurmaq məsələsində ilk addımı I Kalbalı xan atmışdır. Başqalarından fərqli olaraq o, bu vasitə ilə hakimiyyətə gəlmək məqsədini güdməmiş, sadəcə intibah dövrü yaşayan Naxçıvan xanlığının müstəqilliyini qorumaq istəmişdir. Həmin illərdə Qafqaz regionunda böyük hərbi qüvvəsi olan Rusiya dövləti ilə bu yöndə manevrlər etmiş və o, bununla nəinki Naxçıvan xanlığının, hətta bütün Qafqazın təhlükəsizliyinə çalışmışdır. Onun arzusu Rusiya dövləti ilə elə münasibətlər qurmaq olmuşdur ki, bununla regionda təhlükəsizlik və sabitlik təmin olunsun. I Kalbalı xanın 1823-cü ildə faciəli vəfatından sonra bu missiyanı onun oğlu, general-mayor, II dərəcəli Müqəddəs Anna ordeninin kavaleri I Ehsan xan davam etdirmişdir.

Araşdırmalar göstərir ki, Rusiya ilə ilk diplomatik danışıq Pirsaat çayının ətrafında olmuşdur. Doğrudanmı, I Kalbalı xan Rusiya ilə danışıqlara getməsəydi Naxçıvan xanlığı müstəqil qalacaqdı?

Həmin illərə aid tarixi sənədləri öyrənəndən sonra tamamilə aydın olur ki, Ağa Məhəmməd xanın Naxçıvan xanlığına qarşı

heç bir dinc diplomatik münasibəti olmayıb. Belə bir halda o, hökmən Naxçıvan xanlığını işğal edəcəkdi. Yalnız bəhanə lazım idi. Belə bir fürsət isə I Kalbalı xanın Rusiya dövləti ilə danışıqlara getməsi oldu. I Kalbalı xanın öz ölkəsinin müstəqilliyi naminə başqa müttəfiqlər axtarmağa tam mənəvi haqqı çatırdı və bu heç vaxt "xəyanət" adlandırıla bilməz.

Əgər İran hökuməti Naxçıvan xanlığının müstəqilliyini qəbul edib, Kəngərli xanlarına hörmətlə yanaşsaydı, Naxçıvan xanı I Kalbalı xan digər müttəfiqlər axtarmazdı. Belə bir hörmətə Naxçıvan xanlığı layiq idi. Çünki İranın tarixən əldə etdiyi hərbi zəfərlərdə Naxçıvan kəngərli süvarilərinin rolu danılmazdır. Sonralar Fətəli şahın hakimiyyəti illərində gözləri İran şahı tərəfindən kor edilən I Kalbalı xan Mehri ətrafında döyüşlərdə rusları məğlub edib, İrana qələbə qazandırmışdır.

I Kalbalı xan Naxçıvanın xilas olması naminə, hətta göz işığına həsrət qaldığı illərdə belə Abbas Mirzənin qələbə çalması naminə Rusiya qoşunları ilə döyüşmüşdür. Verdiyi sözə əməl edən I Kalbalı xan bunun əvəzində yenə Fətəli şahdan Naxçıvana ögeylik və xəyanət görmüşdür.

1807-ci ildə İrəvanda Hüseynqulu xanın xəyanəti nəticəsində ailəsi ilə birlikdə həbs edilən I Kalbalı xan dekabr ayınadək ev dustağı saxlanıldı və sonra Təbrizə Abbas Mirzənin hüzurana göndərildi (68, s. 594). Bizə gəlib çatan tarixi sənədlərdən məlum olur ki, Abbas Mirzə onun bütün hakimlik hüquqlarını əlindən alaraq Naxçıvana qaytarır. 1808-ci ilin martında Kəngərliləri hirsləndirmək üçün Abbas Mirzə Vəli Məhəmməd xan Bəluclunun komandirliyi altında 200 nəfər döyüşçünü Naxçıvan qalasında yerləşdirir (123, s. 42).

Naxçıvan xanlığının sahibi Kəngərli tayfası olsa da, bütün səlahiyyətlər Bəluclu gəlməyə verilmişdi. Onun qoşun dəstəsi Naxçıvanda yerini möhkəmlədən kimi, I Kalbalı xanı yenidən həbs edib, ailəsi ilə birlikdə İrana, Fətəli şahın yanına göndərdilər (68, s. 464-465). Onun oğlanlarından yalnız Şeyxəli bəy Qarabağa

qaça bilmişdi və orada Rusiyanın təbəəliyini qəbul etmişdi. Naxçıvana isə I Kalbalı xanın əmisi oğlu Abbasqulu xan hakim təyin edilmişdi (68, s. 267-268).

1809-cu ilin aprelində Fətəli şah və oğlu Abbas Mirzə I Kalbalı xanı həbsdən azad etsələr də, Naxçıvana getməyə icazə vermədilər. Araşdırmalardan məlum oldu ki, bu illərdə Naxçıvanın hakimi Abbasqulu xanın oğlu Kərim xan olmuşdur (123, s. 46).

1810-cu ildə Abbas Mirzə Tiflisdə yeni hərbi komandan olan general Tormosovla apardığı danışıqları kəsdi. Qeyd edək ki, qraf A.P.Tormosov (1752-1818) Qafqazda qraf I.V.Qudoviçin yerinə göndərilmişdi. Çünki Qudoviç uğursuz fəaliyyətinə görə 6 mart 1809-cu ildə Tiflisdən geriyə, Sankt-Peterburqa çağrılmışdı.

Naxçıvanlı Kərim xana Abbas Mirzə əmr etdi ki, qoşunu ilə birlikdə Qarabağa tərəf hərəkət etsin. O, Kərimxana kömək üçün əlavə olaraq 1000 nəfər də döyüşçü göndərdi. Artıq iyun ayının əvvəllərində Kərim xanın başçılıq etdiyi qoşun Qarabağda hərbi əməliyyatlarda iştirak edirdi (69, s. 943). Abbas Mirzənin əsas məqsədi Mehrini ruslara verməmək idi. Arazın sol sahilində olan bu kənd Naxçıvan və Qaradağ xanlığından Qarabağa getmək üçün çox mühüm dayaq nöqtəsi idi. Ona görə də, Kərim xan öz qoşunu ilə Mehriyə gedən yolu kəsmişdi ki, rus qoşunları oraya daxil ola bilməsin. Vəziyyəti belə görən general Nebolsin polkovnik Kotlyarevskiyə əmr verdi ki, Mehrini tutsun. General Pyotr Fyodoroviç Nebolsin Sisianovun yetişdirməsi idi. Onun Naxçıvana yürüşü də olmuşdur. 1808-ci il oktyabr ayının 28-də general-mayor Nebolsinin komandanlığı altında rus ordusu Qarabağdan Naxçıvan qalasına doğru hərəkətə başladı. Naxçıvanlı Şıxəli bəy öz atlıları ilə birlikdə general mayor Nebolsinin dəstəsinə bələdçilik edirdi. Naxçıvan uğrunda ilk döyüş Qarababada oldu. Burada İran şahzadəsi Abbas Mirzənin 3000 piyadası, 10000 süvarisi, 12 adi topu və 60 ədəd qədim topu var idi (187, v. 29). Döyüşlərdə general-mayor Nebolsinin komandanlığı ilə polkovniklər Lisaneviç və Kotlyarevski və naxçıvanlı Şıxəli bəy

çox fərqləndilər. Abbas Mirzənin qoşunu geri çəkildi. Naxçıvan əhalisi başda naxçıvanlı Şıxəli bəy öz dəstəsi ilə gəldiyinə görə, rus ordusuna müqavimət göstərmədi (28, s. 81).

Pyotr Semyonoviç Kotlyarevski 1782-1851-ci illərdə infanteriya, yəni piyada qoşun generalı olmaqla əfsanəvi ad qazanan hərbiçi idi. Onun hələ 14 yaşı olanda ilk dəfə müharibədə vuruşmuşdu. 17 yaşında isə ən yaxşı zabit kimi ad qazanmışdı. Onun Aslandüz döyüşlərində və Lənkəran qalasının alınmasında müstəsna xidmətləri olub. Kotlyarevski 17-ci eqer polkunun batalyonu ilə Kərim xanın üzərinə hücuma keçdi və onu Ordubada çəkilməyə məcbur etdi. Kotlyarevski gecə ikən hücum edib Mehrini tutdu. Mehridə olan sərbazlara başçılıq edən Pirqulu xan Qarabağa qaçdı. Kərim xan isə Naxçıvana sığındı (69, s. 557-558).

Vəziyyətin belə uğursuz olduğunu görən Abbas Mirzə I Kalbalı xana ağız açdı. Onu göndərdi ki, Mehridəki Rusiya qoşunlarını mühasirəyə alsın. I Kalbalı xanın əsas məqsədi Kotlyarevskiyə köməyə göndərilən qoşunların Mehriyə buraxılmaması idi. Bu döyüşdə I Kalbalı xan özünün Kəngərli süvariləri ilə böyük hünər göstərdi. Köməyə gələn qoşunu Mehriyə buraxmadı. Onların bu hünərini görən Abbas Mirzə Kərim xanı dustaq edərək Tehrana apardı. Naxçıvanın hakimliyi isə I Kalbalı xanın oğlu Nəzərəli xana verildi (69, s. 558-559, 716-717, 720-721, 738-739).

I Kalbalı xan verdiyi sözə həmişəki kimi əməl etdi. O, istəyirdi ki, naxçıvanlıları İranın cənubuna köçürməsinlər. Abbas Mirzə isə yenə də onlara rəqibi kimi baxırdı. Buna görə də 1813-cü ildə çox inandığı Kərim xanı Naxçıvana hakim təyin etdi (129, s. 41-44). Ancaq bu hakimlik formal hal idi. Çünki Naxçıvan xanlığında hər şeyi Abbas Mirzə özü idarə edir və xanlığın bütün gəlirini öz xəzinəsinə aparırdı. Belə bir vəziyyət I Kalbalı xanın və onun oğlanlarının ciddi narazılığına səbəb olurdu. Onların tərəfində olan kəngərlilər Naxçıvan xanlığının

xilas olması üçün I Kalbalı xanın əmrini gözləyirdilər. Belə bir əmri onlara 1828-ci ildə I Ehsan xan verməli oldu.

Fətəli şahın Naxçıvan xanlığına qeyri-səmimi diplomatik siyasəti davam etdiyindən, 1828-ci ildə I Kalbalı xanın oğlu I Ehsan xanın siyasətində adekvat cavabını almışdı. Bizcə, tarixi həqiqətlərə obyektiv yanaşmağın özü də bir çox məsələlərə aydınlıq gətirər. Çünki Naxçıvan xanlığı özündən güclü olan üç böyük dövlətlə yalnız dinc dostluq münasibətləri qurmaq arzusunda olduğu bir vaxtda, həmin böyük dövlətlər onunla ikiüzlü siyasət aparırdılar.

1747-1828 –ci illərə aid sənədləri, mənbələri araşdırdıqca aydın olur ki, I Kalbalı xan Ehsan xan oğlu Kəngərli hakimiyyətə gələnə qədər Naxçıvan xanlığında xanlıq edən xanların siyahısı aşağıdakı kimidir: Heydərqulu xan, Hacı xan, Rəhim xan, Əliqulu xan, Vəliqulu xan, Abbasqulu xan, Cəfərqulu xan, Şükürəli xan, yenə də Cəfərqulu xan, Abbasqulu xan, Kalbalı xan... (18, s. 60; 137, s. 37; 73, s. 16).

Naxçıvan xanlığı I Kalbalı xanın dövründə diplomatik münasibətlərini daha da fəallaşdırmışdır. Qeyd edək ki, rus qafqazşünasları görkəmli sərkərdə və bacarıqlı dövlət başçısı olan Kalbalı xan haqqında öz əsərlərində dönə- dönə bəhs etmiş, müəyyən qədər maraqlı, bəzən də qərəzli məlumatlar vermişlər. Maraqlı cəhət odur ki, onu qafqazşünasların çoxu şəxsən tanımış, görüşüb söhbət etmişlər. Onların yazdıqları gündəlikləri, yol qeydlərini diqqətlə oxuyanda I Kalbalı xanı bütün keyfiyyətləri ilə görmək olur. Xüsusən də Rusiya çarına göndərilən gizli raportlardakı məlumatlarda Naxçıvanın müstəqilliyi üçün canını fəda etməyə hazır olan I Kalbalı xanın ağıllı siyasəti hərbi bacarığı göz önündə canlanır.

Rus şərqşünası K.N.Smirnov verdiyi məlumatlarda I Kalbalı xanın atasının adını Murad xan kimi qeyd edir. Müəllif «Naxçıvan diyarının tarixinə və etnoqrafiyasına dair materiallar» əsərində yazır: «1787-ci ildə çevriliş nəticəsində Naxçıvanda hakimiyyət

başına Kalbalı xan Murad Xəlifə (Muradxan) oğlu gəldi» (137, s. 17).

Tiflisdən, Gürcüstan Milli Arxivindən əldə olunan bəzi sənədlərdə də I Kalbalı xanın oğlanlarının hamısının soyadlarının rəsmi olaraq Kəngərli- Naxçıvanski-Muradov kimi yazılmışdır. I Kalbalı xanın oğlanlarının adları Nəzərəli xan, Ehsan xan, Şeyxəli xan, Fərəc ağa, Mehdiqulu xan, İskəndər xandır (175,v.23).

Rusiya Dövlət Hərbi Tarix Arxivindən aşkar edilən bir sənəddə Nəzərəli xan belə yazıb: «Sın Kelbalay xana, vnuk Murad xana». Burada Murad xanın İran şahlığı dövründə Naxçıvanın hakimi olduğu qeyd edilib (178, s. 166, 168).

Bir sıra tarixi mənbələrdə I Kalbalı xan haqqında zəngin məlumatlar vardır. Yazıçı N.F.Dubrovin "İstoriya voynı i vladıçestva russkix na Kavkaze" adlı kitabında yazır: "O, İranın ən ağıllı xanlarındandır" (97, s. 20). Gürcü çarlığında məsləhətçi olan Rusiya naziri Kovalenski isə Peterburqa göndərdiyi məlumatda qeyd edir ki, "Bu xan özünün igidliyi, əzəməti, məğrurluğu, sərtliyi və amansızlığı ilə məşhurdur" (66, s. 119).

Naxçıvan xanlığının qonşusu olan axalçıxlı Məhəmməd paşa isə əksinə, I Kalbalı xanı nüfuzdan salan, şəxsiyyətinə ləkə vuran sözlər işlədir: "Kalbalı xan öz azğınlığına görə heç bir imperator qoşununu tanımır, olduqca qəddar davranır" (66, s. 906).

Əslində I Kalbalı xanın əleyhinə olanları bu cəhət-I Kalbalı xanın Naxçıvanın azadlığı və müstəqilliyi uğrunda apardığı amansız döyüşlər və onun döyüşçü süvarilərinin yürüşləri qorxudurdu. Kalbalı xandan çox qorxanlardan biri knyaz Sisianov idi. O, Rusiyanın hakim dairələrinə, həmçinin əli çatan xanlıqlara xəbər verirdi ki, Kalbalı xandan özlərini qorusunlar. Bütün Qafqaz canişinləri Kalbalı xanın nüfuzunun xalq arasında çox yüksək olduğunu bilirdilər. Tez- tez ona kömək üçün müraciət edirdilər (18, s. 68-70).

1813-cü ildə bağlanmış Gülüstan müqaviləsindən sonra Araz çayı vadisində yerləşən Naxçıvan xanlığı ən çətin dövrünü

yaşayırdı. 1804-1813-cü illərdəki müharibə başa çatsa da, Rusiyanın Naxçıvan xanlığını işğal etmək planı gündəlikdə dururdu. Müharibənin bitməsinə baxmayaraq, bölgədə gərginlik qalmaqda idi. Ona görə də 1816-cı ildə Rusiya çarı I Aleksandr (1777-1825-ci illər) A.P.Yermolovu Qafqazdakı rus qoşunlarının baş komandanı və İrana gedəcək səfirliyin başçısı təyin etdi.

A.P.Yermolov 1777-ci ildə Orlov quberniyasında o qədər də varlı olmayan mülkədar ailəsində doğulmuşdu. Təhsilini Moskva universitetindəki pansionda almış və 14 yaşı olanda Preobrajenski polkunda hərbi xidmətə başlamışdır. Sonralar Nijeqorod draqun polkunda zabit kimi hərbi fəaliyyətini davam etdirmişdir. 1812-ci ildə Vətən müharibəsinin qəhrəmanlarından biri kimi tanınmışdır. Qafqazda onu "Sərdar"-deyə çağırıblar. Şəki (1819), Şəmşəddil və Qazax sultanlıqları (1819), Şirvan (1820), Qarabağ (1822) və Talış xanlıqlarını Yermolov ləğv etmişdi (6,s. 133; 57, s. 23).

Aleksey Petroviç Yermolov Rusiya çarı Aleksandrın xüsusi təlimatı əsasında öz missiyasını tarixi səfərə hazırlamışdı. Bu xüsusi təlimatın mətni Qafqaz Aktlarının VI cildində verilmişdir (69, s. 122-127).

1816-cı ilin iyulunda Rusiya çarı I Nikolay Qafqazdakı rus qoşunlarının baş komandanı Yermolova yazırdı: "çox yaxşı olardı ki, İran şahı İrəvan və Naxçıvanı bizim tərəfimizdən tutulan Arazdan cənuba doğru olan ərazilərə dəyişsin. Ancaq İran tərəfini bu ərazilərin Rusiyaya güzəştə gedilməsində göstərdiyi inadkarlığı nəzərə alaraq onların bu işə razılıq verəcəklərinə ümid etmək olmaz" (27,s.326).

Yermolovun 200 nəfərdən çox adamı əhatə edən missiyası Peterburqdan Tiflisə yola düşdü. Missiya həm də şaha rus çarından hədiyyələr aparırdı. Şahın kiçik oğlu Abbas Mirzəyə brilyantlarla, almazlarla və zümrüdlərlə bəzədilmiş qızıl sağanaqlı xəncər, qızıldan hazırlanmış, almazlarla və qiymətli daşlarla bəzədilən baxış borusu, müxtəlif 2 parça, rəngli məxmər parçalar,

samur xəzi, 40 yakut samur xəzi, çini qablar, mavi rəngli böyük gülqabı və s. (77, s. 260). Həmin heyət 1817-ci il aprelin 30-da İrəvanda qarşılandı. May ayının 11-də Naxçıvana gəlib çatdı. Bu missiya haqqında, daha doğrusu, onların Naxçıvanda olması haqqında məlumat ilk dəfə F.Əliyev və M.Əliyevin "Naxçıvan xanlığı" kitabında siyasi cəhətdən qiymətləndirilmişdir: "Aleksey Petroviç Yermolovun səfəri haqqında tarixi ədəbiyyatda lazımi məlumatlar vardır. Lakin onun Naxçıvanda olması və Kalbalı xanla görüşü bu günə qədər Azərbaycan tarixi ədəbiyyatında bir sözlə belə xatırlanmır. Hüquqi cəhətdən Kalbalı xanın Naxçıvan torpağında Aleksey Petroviç Yermolovla görüşü və danışıqları Naxçıvan xanlığının siyasi cəhətdən müstəqilliyini göstərir" (18, s. 90).

Yermolov başçılıq etdiyi missiyanın daha rahat, təhlükəsiz yolla, Xəzər dənizi sahili ilə Tehrana getmələrini təmin edə bilərdi. Necə ki, 1716-cı ildə səfir A.P.Volınski də bu yolla İrana getmişdi. Amma Yermolov İrəvan və Naxçıvan xanlıqlarından keçib getməyə üstünlük vermişdi. Burada da əsas məsələ hər iki xanlığın Rusiyanın siyasi marağında olmasıdır. Azərbaycan-rus münasibətlərini tədqiq edən alimlərin yazdığına görə, bu istiqamətdə məqsədin əsası kəşfiyyat materialları toplamaqdan ibarət olmuşdu (56, s. 49). Yermolovun missiyasında iştirak edən rəsmi şəxslərin bəziləri, məsələn, həmin heyətdə katib olan B.P.Borozna, səfirliyin və senatın həqiqi müşaviri A.F.Sokolov Naxçıvanın hakimi I Kalbalı xanla Rusiyanın fövqəladə səfiri Yermolovun görüşü haqqında maraqlı məlumatlar olan kitablar yazmışlar (80; 138).

Sonra elə həmin illərdə yazılmış və 1863-cü ildə çap edilmiş "İrandakı səfir general Aleksey Petroviç Yermolovun jurnalı" adlı xüsusi elmi ədəbiyyat maraqlı faktlarla zəngindir (99).

Həmin səfərdə iştirak edən baş qərargahın ştabs-kapitanı Nikolay Nikolayeviç Muravyov (1794-1866) I Nikolay dövrünün hərbi xadimlərindəndir. 1812-ci il Vətən müharibəsinin, II Rus-

İran (1826-1828) və 1828-1829-cu illərdəki Rus-Türk müharibələrinin iştirakçısıdır. 1816-cı ildə Yermolovun İrana gedən missiyasının üzvlərindən biri olub, II Rus-İran müharibəsində polkovnik hərbi rütbəsini daşıyıb. 1837-ci ildə istefaya çıxıb. Ancaq 1848-ci ildə yenidən hərbi xidmətə çağırılıb və 1854-cü ildə Qafqaz canişini təyin edilib. 1856-cı ildə öz xahişi ilə istefaya göndərilib. O həm də Karsski titulunun sahibi olub. Onun Naxçıvanla bağlı maraqlı fikirləri vardır (123, s. 377). Amma o da Naxçıvanın tarixinə azacıq da olsa, digər rus tarixçiləri kimi ermənilərin mövqeyindən yanaşır. Buna əsas səbəb onun Tiflis ermənilərindən olan Axverdovların kürəkəni olmasıdır.

N.N.Muravyovun bu səfərlə bağlı xatirələri ölümündən sonra 1886-cı ilin aprelində nəşr edilmişdir. Kitab belə adlanır: "N.N.Muravyovun qeydləri 1816. İrana səyahət" (122). Qeyd edək ki, onun xatirələri 3 kitabda toplanmışdır.

Bu kitabda həmin heyətdə olanların hamısının siyahıları verilib, vəzifələri qeyd olunub. Müəllifin kitabın əvvəlindəki qeydi maraqlıdır: Şəxsi gündəlik qeydləri. Peterburqdan yola düşmə. İrana gedən səfirliyin 1816-1817-ci illərdə Tiflisə daxil olması (122, s. 69).

Müəllif Yermolovun missiyasının mayın 11-də Naxçıvana gəlib çatmasını belə qeyd edir: "1817-ci il mayın 11-də biz Naxçıvan şəhərinə daxil olduq. Əvvəlcə səfiri Naxçıvan xanının uşaqları, sonra isə kor Nəzərəli xan (müəllif səhv edir, Kalbalı xan) qarşıladı. Kalbalı xan Naxçıvan xanlığının hakimi idi. Onun gözlərini çıxartmışdılar. Qocanın nurlu siması adamda hörmət hissi oyadırdı, şikəstliyi ona əzab verirdi. Süvari dəstəsi kor qocanı müşayiət edirdi. Xan özü isə şəhərə çatanadək bizimlə deyib-gülürdü. Naxçıvanda bizi çox yaxşı qarşıladılar. Qoca xan çox zəngin olmasa da, bizi necə varsa elə də qonaq etdi. Mayın 12-də o, bizim hamımızı (bütün heyəti) Xan sarayına dəvət etdi. Məndən başqa hamı getdi. Mən istəyirdim ki, qeydlərimi yazıb

qurtarım... “ (122, s. 482-483).

A.F.Sokolovun gündəlik əsasında yazdığı kitabda qarşılanma daha dəqiq təsvir edilib: “Rus nümayəndə heyətini Xok kəndində (Xok I Kalbalı xanın tiyul kəndidir-M.Q.) I Kalbalı xanın qaynı Maqsud xan onun tapşırığı ilə qarşıladı. Qeyd edək ki, Maqsud xan Naxçıvana xanlıq etmiş Vəliqulu xanın oğludur. Müəllif yazır ki, onları yolda Kalbalı xanın iki qardaşı (ehtimal ki, Zülfüqar xan və Fətəli xan-M.Q.) və nəvəsi süvari dəstə ilə qarşıladılar. Onlar rus nümayəndə heyətini silahlardan yaylım atəşi ilə salamladılar. Naxçıvanın yaxınlığında isə A.P.Yermolovu Kalbalı xan özü qarşıladı” (138, s. 1).

Həmin illərdə yazılan bu qeydlər Naxçıvan xanlığının müstəqilliyini və I Kalbalı xanın hakimliklə bərabər diplomatik fəaliyyətini də önə çəkir. Qafqazda külli-ixtiyar sahibi olan Yermolovu I Kalbalı xan tam layiqli şəkildə, özü də rəsmi, diplomatik olaraq qarşılayır ki, Naxçıvan xanlığına onların ziyanı dəyməsin. Çünki I Kalbalı xan çox məlumatlı hakim idi. II İraklinin oğlu Aleksandrın köməkliyi nəticəsində Yermolovun Qafqazda nələr törətdiyindən xəbəri vardı. Mayın 12-də I Kalbalı xan sarayında Rusiya nümayəndə heyətinin hamısını qəbul etdi. Həmin diplomatik görüşün keçirildiyi saray və böyük salon indiyədək qalmaqdadır.

Yermolov yazdırdığı jurnalında özünü səmimi qələmə versə də, Qafqazda belə bir iz qoymamışdır. Abbas Mirzə onu “Çingiz xan” adlandırırdı. Naxçıvan xanlığına və onun hakiminə göstərdiyi səmimiyyət tam diplomatik gediş idi. Çünki Naxçıvan xanlığı Rusiyanın marağında idi. İstəyirdilər ki, gələcəkdə onu da Rusiyaya ilhaq edə bilsinlər. Heç də təsadüfi deyil ki, rus müəllifləri yazdıqları əsərlərdə I Kalbalı xanın və onun kəngərlilərinin antişah nifrətini daha qabarıq təsvir edirdilər (18, s. 92).

Gələn nümayəndə heyətinin tərkibində I Kalbalı xanın hörmət bəslədiyi, Tiflisdən şəxsən tanıdığı Kabarda knyazı Kiçik

Canxotovun oğlu Canbulat da vardı (122, s.475-476). Bu görüşdən 8 il sonra, 1825-ci ildə Yermolovun əmri ilə bu cəsur, mərd, Naxçıvana və Kəngərli süvarilərinə çox məftun olan cavan knyazı-Canbulatı əzabla, atasının gözləri qarşısında öldürmüşdülər. Atası dindar müsəlman olsa da, Rusiya təbəəliyini qəbul etmiş varlı knyaz idi. Oğlu Canbulat isə İran səfirliyindən qayıdandan sonra Zakuban çərkəzlərin tərəfinə keçir. Onun Nalçik qalasında ölüm səhnəsini A.S.Qriboyedov 27 noyabr 1825-ci ildə V.K.Küxül-bekerə yazdığı məktubunda dərin kədər və təəssüflə təsvir edir (86, s. 522-524).

A.P.Yermolovun jurnalında yazılan məlumatdan aydın olur ki, onun I Kalbalı xanla danışıqları çox ciddi keçib. Yermolov qarşısında bir siyasi xadimin oturduğunu görür və rəğbətini gizlətmir. Rusiyanın Qafqazdakı qoşunlarının baş komandanı Yermolovun iki gün Naxçıvanda qalması və I Kalbalı xanla yüksək səviyyədə keçirilən diplomatik görüşü Naxçıvan xanlığının Qafqazda hərbi- siyasi mövqeyinin yüksək olmasından xəbər verir. General Yermolov İrandan geri dönüb Peterburqa qayıdarkən yenə də I Kalbalı xanla görüşməyi özünə borc bilir (18, s. 92). Qafqazda hamının çox ehtiyat etdiyi general Yermolovla I Kalbalı xanın görüşü rus və Azərbaycan tarixşünaslığında maraqlı tarixi məsələlərdən biri sayıla bilər.

I Kalbalı xanın belə yüksək mövqeyi onun keçmişindən, ailəsindən qaynaqlanıb. Bütün işğalçı dövlətlərin ehtiyat etdiyi Kalbalı xanın soykökü həmişə oxucuları çox maraqlandırıb. Bizə gəlib çatan mənbələrdə onun yüksək keyfiyyətləri haqqında maraqlı faktlar var. 1787-ci ildən başlayaraq 28 il xanlıq edib (arada bir neçə il fasilə olub) (16, s. 56). Bu məlumat düzgün deyil, aparılan araşdırmalar göstərdi ki, o, 25 il xanlıq etmişdir.

Araşdırıcıların bəziləri onun 1820-ci ildə, digərləri isə 1823-cü ildə vəfat etdiyini yazırlar. Araşdırmalar göstərir ki, 1823-cü il həqiqətə daha çox uyğun gəlir. Çünki Fətəli şahın vəziri olmuş Mənuçöhr xanın qohumu İ.K.Yenikolopov uzun illər ikinci Rus-

İran müharibəsini tədqiq edənlərdən olub. O, söykəndiyi mənbələrə əsasən Kalbalı xanın 1823-cü ildə Təbrizdə vəfat etdiyini yazır (96, s. 427-428).

Kalbalı xan 1787-1795-ci illərdə Naxçıvanı müstəqil idarə edib. Onun hərtərəfli inkişafına ciddi fikir verib. Bunu həmin illərə aid yazılmış salnamələr xəbər verir. O, mahir bir süvari qoşun sərkərdəsi olmaqla bərabər, olduqca bacarıqlı diplomat idi, həm Rusiyanın, həm də İranın işğalçılıq siyasətinə qarşı diplomatik addımlar atıb. Bəzi məsələlər indiyədək qaranlıq qaldığından, bu gün də elələri tapılır ki, onu günahlandırsınlar. Amma əslində belə deyil. Bu hərbi fenomenin bütün həyat və fəaliyyəti nümunədir.

O illərin hərbi yazıçılarından P.Q.Butkov yazırdı: "Onun (Ağa Məhəmməd şah nəzərdə tutulur) məqsədi şuşalı İbrahim xanı əzdikdən sonra əsas qüvvəsi ilə Gürcüstana tərəf hərəkət etmək, sonra isə vaxtilə böyük şah Abbasın etdiyi kimi, şamaxılıları, talışları, gürcüləri və başqalarını öz vilayətlərinə-Mazandaran və Astrabada köçürmək idi" (82, s. 56).

I Kalbalı o əksər vaxtlarda bunun əksini görmüşdür. Yaxın qohumları olan Qarabağ xanı İbrahim xan, xoylu Əhməd xan, Kartli-Kaxetiya çarı II İraklı, İrəvan xanları Naxçıvana hücumlar etmişlər və hər dəfə də məğlub olmuşlar. Məsələn, İrəvanda, Matenadaranda–Əlyazmalar İnstitutunda saxlanılan bir sənəddə deyilir ki, Ağa Məhəmməd şah Qacar II İraklini şirnikləndirmək üçün hətta bütün Azərbaycanı fəth edib onun tabeçiliyinə verəcəyinə and içmişdi (18, s. 62).

Amma bütün bu xəyanətlərin qarşısında daxilən kövrək, zahirən sərt görünən Kalbalı xan əzəmətlə dayanır və Naxçıvanın müstəqilliyini qoruyurdu. Tarixi mənbələrə əsasən demək olar ki, o, xanlığı dövründə bir neçə dəfə hərbi yürüş edib (66, s. 623). Birinci dəfə Xoy xanlığına hərbi yürüşü etməkdə məqsədi özgə xanlığın ərazisini tutmaq olmayıb. Sadəcə Naxçıvandan keçmiş xanların vaxtında apardıqları qiymətli əşyaları geri qay-

tarmaq məqsədi güdüb.

İkinci yürüşü İrəvana olub. Fikirlərində sabit olmayan qohumlarını cəzalandırıb. Onu da deyək ki, Xoy xanı onun bacanağı, İrəvan xanı isə qaynı idi. Onun üçüncü yürüşü də ikiüzlü adamların paşalıq etdiyi bölgəyə-Qarsa ünvanlanıb (66, s. 624-630). Lakin ruslar bu yürüşü dayandırıblar. Ona görə də Kalbalı xanın fəaliyyətini doğru-dürüst tədqiq etsək, onun rus məmurlarına yazdığı məktublarla aldığı cavabının müqayisəli təhlili bizə çox gizli mətləbləri açıqlayar (66, s. 624- 630). Həmçinin onun xanlıq etdiyi illərdə Naxçıvan xanlığının digər xanlıqlarla və dövlətlərlə münasibətlərinin hərtərəfli öyrənilməsi qaranlıq səhifələri işıqlandırır.

Naxçıvan xanları İrəvan xanlığı ilə hərbi müttəfiqlik etməklə yanaşı həm də sıx diplomatik münasibətlər yaratmışlar. Naxçıvan və İrəvan xanlıqları eyni regionda yerləşdikləri və çox yaxın qohumluq və diplomatiya münasibətlərində olduqlarından yadelli işğalçılara qarşı birgə mübarizə aparıb, döyüşmüşlər. Hər iki xanlığın təcavüzkar dövlətlərə görə gücü zəif olduğundan onlar gah İranla, gah da Rusiya ilə münasibətlər quraraq bu dövlətlər arasında diplomatik manevrlərlə müstəqilliklərini qorumaq üçün bütün imkanlarından istifadə etmişlər.

Mirzə Camal Cavanşir "Qarabağ tarixi"ndə yazır: "Bir tərəfdən Fətəli şah, digər tərəfdən naibüssəltənətin qoşunu və başqa tərəfdən sərdarla bağladıqları əhdi pozub, qalanı ona təslim etməyə Məhəmməd və Kalbalı xan Rusiya qoşununu dörd tərəfdən halqaya alıb, hətta Rusiya qoşununun azuqə yollarını kəsdilər. Bu qədər zəhmətə baxmayaraq, Rusiya qoşununa qalib gələ bilmədilər (söhbət İran ordusundan gedir-müəllif). Hər iki tərəfə çoxlu ziyan dəydi. Nəhayət, sərdar Sisiyanov Tiflisə qayıtmağı məsləhət bilib köçüb getdi. Fətəli şah da Azərbaycana və oradan da Tehrana getdi. Bu qanlı döyüş 1804-cü il iyul aynının 2-də İrəvan qalası ətrafında olub" (35, s. 67).

Qeyd edək ki, artıq həmin vaxt Kalbalı xan dünya işığına

həsrət idi. Fətəli şah ona Naxçıvanda yaşamağa icazə vermədiyindən həyat yoldaşı Tükəzban xanımın qardaşı Məhəmməd xanın yanında- İrəvanda yaşayırdı. Məhəmməd xan çox gənc olduğundan İrəvan xanlığını Kalbalı xan idarə edirdi. Bu zaman Kalbalı xanın yanında 12 min Kəngərli süvarisi var idi.

Strateji baxımdan böyük əhəmiyyət kəsb edən İrəvan xanlığını zəbt etmək üçün tədbirlər hazırlayan Rusiya öz fəaliyyətini genişləndirərək həmin xanlığın tərkibində olan Pəmbəki işğal etməklə özünün Cənubi Qafqazda həyata keçirdiyi siyasəti bir növ düşmənləri qarşısında nümayiş etdirdi. Rusiyaının belə siyasəti, Azərbaycan xanlıqlarını, o cümlədən torpaqlarının bir hissəsi (Pəmbək) işğal olunmuş İrəvan xanlarının əksəriyyəti, xüsusilə Rusiyaının təzyiqini hiss edən irəvanlı Məhəmməd xan və naxçıvanlı Kalbalı xan heç cür razılaşa bilmirdilər ki, müsəlmanlar xristianların himayəsi altına düşsünlər (17, s.109 ). Bunun qarşısını almaq üçün hər iki feodal əks tədbirlərə əl atdı. İlk növbədə onlar Kartli-Kaxetiya çarlığından qaçmış və çar olmaq arzusu ilə yaşayan II İraklinin övladlarından biri olan şahzadə Aleksandrla əlaqə yaratmağa çalışdılar. Onlar Aleksandrın əli ilə rusları Pəmbəkdən qovmaq istəyirdilər. Eyni zamanda irəvanlı Məhəmməd xan öz agentlərini Pəmbəyə göndərib yerli feodalları Rusiyanın əleyhinə üsyan etməyə çağırırdı. İrəvandan Tiflisə gəlmiş Üç kilsənin arxiyepiskopu Qriqori buradakı rus ordusunun komandanlığına bildirmişdir ki, İrəvan xanı ruslara yalnız zahirən meyil göstərir, daxildən onlara nifrət bəsləyir.

Qriqori sonra demişdir ki, "…İrəvan xanı naxçıvanlı xana bel bağlayaraq Pəmbək mahalını Rusiyanın tabeliyindən çıxartsın…" (66, s. 617-618).

Yeri gəlmişkən qeyd edək ki, başqa xanlıqlara nisbətən Naxçıvan xanlığının tarixi az öyrənilmişdir. Buna əsas səbəb materialın azlığı və olan sənədlərin də yad məmləkətlərdə çox dağınıq olmasıdır. Qafqaz Aktlarında Naxçıvan xanlarının, o cümlədən I Kalbalı xanın bəzi məktubları da çap edilmişdir (66,

s. 624-630). Amma çox təəssüf ki, indiyədək Naxçıvan xanlığının tarixini araşdıran alimlərin nədənsə nəzərini cəlb etməmişdir. Tədqiqatçıların əksəriyyəti bir-birilərinin məlumatını təkrarlamışlar. Ona görə də Naxçıvan xanlığının apardığı diplomatiya bu günə qədər düzgün mövqedən deyil, ruspərəst mövqe kimi qələmə verilmişdir. Hətta aşkar oldu ki, 1828-ci ildə olan ziddiyyətli hadisələr düzgün incələnməmiş və bəzi tədqiqatçılar haqsız olaraq I Ehsan xanı qınamışlar.

Qeyd etmək lazımdır ki, 1826-1828-ci illərdə siyasi və hərbi işlərdə yaxından iştirak edən Ehsan xanın gördüyü işlər Naxçıvanın xilası üçün çox vacib idi. Azərbaycanın iki yerə bölünməsində Ehsan xanı günahlandırmaq tamamilə yanlış, qərəzli mövqedir. Kalbalı xan Ehsan xan oğlu Azərbaycanın və onun ayrılmaz hissəsi olan Naxçıvanın hərb və dövlətçilik tarixində şərəfli iz qoymuşdur.

## 2. 3. Çar Rusiyasının işğalçılıq siyasəti və Naxçıvan xanlığı

İrəvan və Naxçıvan xanlıqları öz coğrafi mövqelərinə, zəngin təbii sərvətlərinə və mühüm ticarət yollarının üstündə olduqlarına görə həmişə İran və Rusiyanın diqqət mərkəzində olmuşdur. Bu iki dövlət isə həmin xanlıqların müstəqilliyi ilə barışmamış, onları işğal etmək üçün var güclərini işə salmışlar.

1826-cı ildə hadisələr çox gərginləşdi. Bir tərəfdən Rusiya Hind dənizinə yol açmağa tələsirdi, o biri tərəfdən isə Abbas Mirzə Rusiyanın işğal etdiyi əraziləri geri almaq üçün hücum hazırlığı görürdü. Avropa dövlətlərindən İngiltərə və Fransa hərbiçiləri, diplomatları artıq İranın Rusiya ilə müharibəyə başlamasını istəyirdilər. Osmanlı imperiyası da Abbas Mirzəyə kömək çıxırdı.

1826-cı ilin iyul ayında İran ordusu Arazı keçərək Şuşanı mühasirə etsə də, şəhər təslim olmadı. 1826-cı il iyulun 26-da Salyan işğal olundu. Sentyabr ayınadək Qarabağ, Şəki, Şirvan, Talış əyalətləri və ətraf bölgələr də tutuldu.

İran ordusu işğal olunmuş əraziləri azad etməyə başlarkən A.P.Yermolovun qətiyyətsizliyi Rusiya çarı I Nikolayı qəzəbləndirdi. 1816-cı ildən İranda olan, sonralar Rusiyanın Qafqazdakı qoşunlarına komandanlıq edən Yermolovu başqa birisi ilə əvəz etməyi qərara aldı. Bu arada, yəni 1827-ci lədək döyüşlər bir az ara verdi. Rusiya İranla müharibə ilə əlaqədar olaraq 1826-cı il sentyabr ayının 16-da "Bəyannamə" elan etdi. Bu bəyannamədəki təklifləri və Gülüstan sülh müqaviləsindəki ayrı-ayrı maddələr əsasında sülh və ticarət müqaviləsinin layihəsi tərtib olunsa da, nəticəsi müsbət olmadı. Rusiya qoşunlarının Qafqazdakı baş komandanı A.P.Yermolovun və A.S.Menşikovun, həmçinin Rusiyanın xarici işlər naziri qraf Nesselrodenin ciddi-cəhdi nəticəsiz qaldı.

General-adyuntant İvan Fyodroviç Paskeviç əla bir hərbiçiydi və özünün döyüş bacarığını 1812-ci ildə Rusiyanın Fransa ilə olan muharibəsində göstərmişdi. Bunları nəzərə alan Rusiya çarı onu 1827-ci il 28 mart tarixli fərmanı ilə əlahiddə Qafqaz korpusu komandanı, Gürcüstan, Həştərxan və Qafqaz vilayətlərinin mülki və sərhəd işləri idarəsinin rəisi vəzifəsinə təyin etmişdir. 3 sentyabr 1826-cı ildə Şamxor (Şəmkir) və 13 sentyabrda Yelizavetpol (Gəncə) döyüşlərində Abbas Mirzənin qoşunlarını məğlub edən Paskeviçin qoşunları Araz çayına doğru sürətlə irəliləməyə başladı.

Sülh müqaviləsi haqqında ilkin danışıqlara 1827-ci ilin fevralında İran tərəfi soyuq yanaşdı. Bunu görən Rusiya hökuməti rus qoşunlarının yenidən hücuma başlamasını qərara aldı. Yenidən başlanan hücumlar çox kəskin oldu (9). Tədqiqatçıların əksəriyyəti yazır ki, Naxçıvan iyunun 26-da döyüşsüz tutuldu, Abbasabad qalası iyulun 7-də təslim oldu (20). Ancaq Naxçıvanın döyüşsüz tutulması fikri qətiyyən doğru deyildir. Əvvəldə dediyimiz kimi, bu illərdə hadisələr o qədər qarışıq, gözlənilməz idi ki, adicə siyasi bir səhv hər hansı bir məkanın tamam məhv edilməsini sürətləndirərdi. Axı, bir də o dövrdə yazılan gündəliklər və bunlar əsasında yazılan kitablar tamam ayrı faktlar söyləyirdi.

Rusiya hökuməti bu döyüşlərdə ölən əsgərlərin sayını XIX əsrin axırınadək gizli saxladı. Deməli, məsələ heç də bəzi tədqiqatçıların düşündükləri kimi deyilmiş.

Yeri gəlmişkən qeyd edək ki, həmin vaxtlar və çox sonralar da rus tədqiqatçıları Naxçıvanın işğal olunduğunu dönə-dönə yazmışlar. Məsələn, bir vaxtlar Naxçıvanda işləmiş rus tədqiqatçısı və səyyahı N.Enqelqardt yazır ki, Naxçıvan rus silahının gücünə Rusiyaya birləşdirilmişdir (98, s. 547). Ona görə də Abbasabad qalası və onun ətrafında gedən döyüşləri daha dərindən və ətraflı təsvir edək.

Naxçıvan xanlığının tarixinə dair arxiv sənədlərini öyrənərkən tez-tez Abbasabad qalasının adına rast gəlinir. Eləcə də Çar Rusiyası Azərbaycanı və onun ayrılmaz tərkib hissəsi olan Naxçıvanı işğal edəndən sonra rus hərbiçi alimlərinin yazdıqları tarixi monoqrafiyalarda Abbasabad qalası haqqında xeyli maraqlı məlumatlar vardır.

Abbasabad qalası tarixi hərbi istehkamdır. Başqa sözlə, Naxçıvan xanlığının Qafqazda hərbi mövqeyini önə çəkən amillərdən biridir. Ona görə də bu qalanın tikilmə tarixi və qala ətrafında gedən döyüşlərin ətraflı tədqiqatına ehtiyac duyulur. Abbasabad qalası ətrafında gedən döyüşlər tarixi baxımdan obyektiv araşdırılmayınca Türkmənçay danışıqlarına və müqaviləsinə aparıb çıxaran səbəblər yenə də üstüörtülü qalacaq. Apardığımız tədqiqat işində bu məsələyə tam aydınlığı və obyektiv yanaşmaqla bir çox qaranlıq məsələləri şərh etməyi vacib bilirik.

Naxçıvanın cənub-şərqində yerləşən Abbasabad qalası XVIII yüzilliyin ilk illərində tikilmişdi (115, s. 77). Bu qala haqqında maraqlı kitablar yazılıb (102, s. 131; 94, s. 200; 57, s. 61). 1826-1828-ci illərdə baş verən müharibənin əsas hədəfinə çevrilən Abbasabad qalası haqqında rus şərqşünaslarının yazdıqlarından istifadə etmədən onunla bağlı problemi də həll etmək çətinləşir. Çünki Rusiya qoşunları İrəvan və Naxçıvan xanlıqlarını tutmazdan

əvvəl Abbasabad qalasını hədəf kimi seçdilər. Sərdarabad, İrəvan, Üçmüəzzin və Abbasabad qalalarının üzərinə var qüvvələri ilə hücuma keçmişdilər. İrəvan qalasını mühasirədə saxlayan knyaz Paskeviç Naxçıvan üzərinə yürüşə əmr verdi. Qeyd edək ki, Abbasabad qalası ətrafında gedən döyüşlər və qalanın təhvil verilməsi haqqında bir-birinə zidd olan fikirlər bu tarixi məsələni daha da çətinləşdirir. Doğrudanmı Abbasabad qalası elə-belə asanca Rusiya tərəfə verilib?

Sankt-Peterburqdakı Rusiya Dövlət Tarix Arxivində (keçmiş İmperiya Arxivi), "Paskeviç-İrəvanski-Varşavski" fondunda Naxçıvan tarixi ilə, həmçinin tarixi qalamız Abbasabadla bağlı xeyli materiallar saxlanılır (180). Həmçinin Gürcüstanın Milli Arxivində və Mərkəzi Kitabxanasındakı xüsusi fondlarda Abbasabadla bağlı sənədlər və maraqlı kitablar vardır.

Bu kitablardan biri general-leytenant knyaz M.Şerbatovun "General-feldmarşal knyaz Paskeviç:( onun həyatı və fəaliyyəti" (I-II cildlər) Sankt-Peterburq, 1890-1891. Əlavələrlə birlikdə) adlı rəsmi sənədlər olan kitabıdır (144, s. 275). Onu da deyək ki, knyaz Şerbatovun özü Abbasabad qalası ətrafında və Cavanbulaqdakı döyüşlərdə iştirak etmişdir. Müəllif bu kitabda heç vaxt çap edilməyən sənədlərdən istifadə etmiş və ikinci Rusiya-İran müharibəsinə aid hərbi xəritələri də yazdığı kitaba əlavə etmişdir. Həmin xəritələr əsasən İrəvan və Naxçıvana rus qoşunlarının hərbi yürüşləri ilə bağlıdır. Burada Abbasabad qalası ətrafında gedən döyüşlər zamanı rus kartoqraflarının çəkdikləri xəritələr də maraqlıdır. Ancaq təəssüfedici haldır ki, Azərbaycanda Abbasabad qalası ilə bağlı yazılan kitablar azdır.

Naxçıvanla bağlı xeyli məsələlər, o cümlədən məşhur Abbasabad qalası haqqında ətraflı məlumatlar vermək unudulmuşdur. Onlar qalanın planını təsvir edərkən qraf Paskeviçin özünün hazırlatdığı plandan xeyli fərqlisini təsvir etmişlər. Hətta həmin illərdə sovet ensiklopediyalarında Abbasabad qalasının planı səthi verilmişdir. Onlar planın tam təsvirini qapalı arxiv və

kitabxanalarında saxlamışlar. Çünki bu plan hərbi xarakterli idi. Qraf Paskeviç bu planı II Rusiya-İran müharibəsində tərtib etdirmişdi və onu geniş oxucu kütləsinə açıqlamaq olmazdı.

II Rusiya-İran müharibəsi (1826-1828) ərəfəsində ingilis zabitləri İran ordusuna köhnə qalaların gücləndirilməsində və ordunun yenidən təşkilində yaxından kömək etməyə başladılar. Belə qalalardan biri şahzadə Abbas Mirzənin şərəfinə Naxçıvan yaxınlığında tikilmiş Abbasabad qalası idi.

1816-cı ilin mayında və 1834-cü ildə Naxçıvana gələn baron Korf sonralar özünün yazdığı "İran haqqında xatirələr" kitabında məlumat verir: "Bu ölkədə 25 il əvvəl Abbas Mirzə tərəfindən inşa edilmiş qala gördüm. Bu qala Abbas Mirzənin xidmətində olmuş fransız mühəndisinin planı əsasında tikilmişdir" (115, s.77).

Onu da qeyd edək ki, baron Korf birinci dəfə 1816-cı ildə may ayında Yermolovun İrana gedən nümayəndə heyətinin tərkibində Naxçıvanda I Kalbalı xan Kəngərlinin qonağı olub (122, s. 69). Baron Korfun ikinci dəfə 1834-1835-ci illərdə Naxçıvanda olduğunu nəzərə alsaq, onda Abbasabad qalasının 1809 və ya 1810-cu illərdə tikildiyini demək olar.

II Rusiya-İran müharibəsində iştirak edən P.Zubov, Potto yazdıqları və akademik, hərbi rəssam V.Moşkovun da Abbasabad qalası və döyüşləri ilə bağlı çəkdiyi rəsmlər maraq doğurur. Məsələn, P. Zubov «Картина последней войны России с Персией» kitabında bu qala haqqında məlumat verir: "...qala Abbas Mirzənin zövqünə uyğun avropasayağı tikilmişdir" (102, s. 131).

Abbasabad qalası haqqında ən geniş, ətraflı məlumatı rus tarixçisi Nikolay Aleksandroviç Nefedyev (1800-1860) vermişdir. O, Qafqazda müxtəlif vəzifələrdə işləmiş, 1837-ci ildə Naxçıvan və Qarabağ əyalətlərində inspektor kimi fəaliyyət göstərmişdir. N.A.Nefedyev bu illərdə özünün yol qeydlərini yazmışdır. Müəllif Abbasabad qalası haqqında yazır: "...Abbasabad qalası Naxçıvana gedən yolun qarşısında dayanmışdı. Mən bu qalaya getməyi

özümə borc bildim. Fransız mühəndisinin bu əsərinə baxmaq və ehtiram etmək mənim borcum idi. Bu qalanın tikintisi 30 il əvvəl həyata keçirilmişdir. Dərin xəndəklər su ilə doldurulmuşdur. İki cərgəli divarlarda atəş açmaq üçün yerlər qoyulmuşdur. Sığınacaqlar və digər müdafiə mövqeləri xeyli gücləndirilmişdir. Bu cür müdafiə mövqeləri göstərir ki, bu qala İranın dostları tərəfindən tikilmişdir. Onlar çox uzaqgörənliklə qalanı tikərkən nəzərə almışdılar ki, qalanın qarnizonu Arazın üstündəki körpünü görə bilsin və lazım gəldikdə geri çəkilərkən öz təhlükəsizliyini təmin edə bilsin...” (124, s. 335).

Sovet hakimiyyəti illərində nəşr edilmiş ASE-nin I cildində həmin qala haqqında belə məlumat verilir: “Abbasabad qalası Araz sahilində, Naxçıvan şəhərinin 6 km cənub şərqində, fransız hərbi mühəndislərinin layihəsi əsasında 1809-1810-cu illərdə tikilmişdi. Beşbucaq şəklindədir. Bürcləri var idi. Qala divarlarının hündürlüyü 4 m 30 sm, qalınlığı 60 sm idi. Qala ətrafında 4 m 30 sm dərinliyində xəndək qazılmışdı. Rusiya-İran (1826-1828) müharibəsində Abbasabad qalasında vuruşmalar olub. Araz su qovşağı tikiləndən sonra xarabaları su altında qaldı”. Burada bildirilir ki, xəndək, qala divarı, şərqə və qərbə darvaza, körpü və bulaq var (2, s. 12).

General-feldmarşal Paskeviçin planında isə Abbasabad qalasının 3 darvazası göstərilib: Naxçıvan, Araz, Nehrəm. Hətta bu darvazalardan gedən yollar da dəqiqliklə göstərilib. Bundan əlavə, qalada Xan evinin, Baş qauptvaxt, məscid, kazarmalar, barıt anbarı, süvarilər üçün yer, dükanlar, digər tikililər, Araz çayını keçmək üçün araba körpülər, həmin körpünü gizlətmək üçün epolement vardır. Bu planın ən başlıca xüsusiyyətlərindən biri rus komandanlığının qalanı tutmaq üçün hazırladığı xüsusi plan olmasıdır. Çünki burada qoşun birləşmələrinin harada və necə yerləşdirilməsi də qeyd olunub. Hətta ayın tarixi də göstərilib (114). Bu isə Abbasabad döyüşlərinin tamamilə açılmasına, öyrənilməsinə imkan verir. Axı, Abbasabad qalası döyüşləri II

Rusiya-İran müharibəsinin ən gərgin və çətin döyüşlərindən biri olub.

Planda Araz çayından sağda xüsusi istehkam qeyd olunub ki, burada Xoy şəhərinə gedən yol göstərilib. Bu istehkam qalanın "Araz" darvazası ilə üzbəüzdür. Naxçıvanın qocaman sakinləri Arazın o tayına qaladan yeraltı yolun (lağımın) olduğunu təkidlə söyləyirdilər. Bu planda olan həmin işarələr bunu söyləməyə ehtimal yaradır.

Qeyd edək ki, qala 1970-ci ilədək dururdu. Araz dəryaçası tikiləndə dağıdılıb. Rusiyanın arxivlərində qalanın şəkli vardır. Onu hərbiçi rəssam Moşkov elə döyüşlər zamanı çəkib (139, s. 36). Çap edilən kitablarda Naxçıvandan Abbasabad qalasına gedən yolun uzunluğu 6 km, 10 km və 12 km kimi göstərilib.

Abbasabad qalasını Rusiya hərbiçiləri İranı tutmaq üçün "Ürək" adlandırırdılar (144, s. 47). Abbas Mirzənin "Cavanbulaq" döyüşlərində məğlubiyyəti Abbasabadın alınmasına şərait yaratdı. Naxçıvanda yerləşən Rusiya ordusunun hərbçisi N.Muravyov iki yüz kazakla Abbasabad qalasının ətrafında kəşfiyyat işləri aparırdı. Hətta A.S.Qriboyedov Muravyovun qayınanası P.N.Axverdova bu haqda geniş məktub yazmışdı (96, s. 74).

Abbasabad qalası ətrafında döyüşlər gedəndə artıq Talış xanlığından Naxçıvanadək Arazboyu ərazilər rusların əlində idi. Abbasabad qalası təslim olmurdu. Ona görə də Paskeviç daha iri lüləli toplar gətirilməsi üçün əmr vermişdi. Bu haqda daha ətraflı məlumatlar Vasili Aleksandroviç Pottonun (1836-1912) yazdığı "Qafqaz müharibəsi ayrı-ayrı oçerklərdə, epizodlarda, əfsanə və bioqrafiyalarda" adlı beşcildlik kitabında vardır. Potto rus ordusunun zabiti və hərbi yazıçısı olmuşdur. 1855-ci ildən 60-cı illərin ortalarınadək, sonra isə 1887-ci ildən Qafqazda hərbi xidmətdə olmuşdur. 1899-cu ildən Qafqaz hərbi dairəsi yanında Hərbi-tarixi şöbənin rəisi və "Qafqaz" hərbi muzeyinin direktoru olmuşdur.

General-leytenant B.D.İlovayski Don kazaklarının atamanı

idi. Cavanbulaq döyüşlərində Rusiyanı qalib edən onun polku olmuşdur. Bu döyüşə görə, ona brilyantlarla bəzədilmiş qızıl papiros qutusunu bağışladılar (83). İlovayskinin qoşunları Abbasabad qalasını mühasirədə saxlayırdı. Bəs bu zaman Abbasabad qalasının içərisində nələr baş verirdi? Yaxşı olar ki, elə həmin vaxtlarda döyüşlərdə iştirak edən və 1834-cü ildə bu haqda maraqlı bir kitab qələmə alan Platon Pavloviç Zubovun yazdıqlarını təhlil edək. Platon Zubov general oğludur, özü 1812-ci il müharibəsinin iştirakçısı idi. O, həm şair, həm də yazıçı kimi şöhrət tapmışdı. O, Abbasabad qalasının içərisindəki əhvalatları təsvir edərək yazır: "...Qalanın komendantı Məmmədemin xan görür ki, Abbas Mirzə tərəfindən heç bir kömək göstərilmir, onda qərara alır ki, qalanı təhvil versin. Ancaq bunun üçün general Paskeviçdən 3 gün möhlət istəyir ki, fikrini bir daha götür-qoy etsin. General Paskeviç onun bu istəyinə etiraz edir və tələb edir ki, qeyd-şərtsiz tabe olsun. Əks halda, qalaya çox güclü hücum olacaq. Paskeviçin bu hədəsindən sonra qaladan qoşun bölüklərinin rəisləri onun yanına gəlib bildirdilər ki, qalanı təhvil verməyə hazırdırlar" (101, s. 56).

Platon Zubov 1836-cı ildə yazdığı digər bir kitabda Abbasabad qalasında gedən döyüşləri geniş təsvir etmişdir. 23 səhifədə təsvir edilən bu döyüş səhnələri bir daha təsdiqləyir ki, Abbasabad qalasındakı qoşunlar əvvəlcə var gücləri ilə döyüşüblər. Amma sonradan qalanın daxilində olan qoşun birləşmələri arasında fikir ayrılığı yaranıb. Naxçıvanın Kəngərli süvariləri (rəisləri I Ehsan xan) döyüşmək istəmədiklərini bildiriblər və nəticədə rusların hücumundan ehtiyat edən qala komendantı, Fətəli şahın kürəkəni Məhəmmədemin xan qalanı təhvil vermək qərarına gəlib. Hərbi yazıçı qalanın təhvilini belə təsvir edir: "Şahın kürəkəni Məhəmmədemin xan qaladan çıxan qoşunun önündə idi və qalanın açarlarını gətirib təhvil verdi. Onun arxasınca yüzbaşılar və nüfuzlu şəxslər gəlirdilər" (101, s. 117-140). Hadisəni öz gözləri ilə görən Zubov yazmayıb ki, qapını I Ehsan

xan açdı, açarları verdi və s. Zubovun yazdıqları ermənilərə tərəf saxlayan Muravyovun və xüsusən Yenikolopovun fikirlərini təsdiqləmir. Bəzi tədqiqatçılar unudurlar ki, farsdilli sənədlər də I Ehsan xanın olduqca cəsur hərbiçi olduğundan xəbər verir. Cəsur döyüşçülər isə rütbəsindən asılı olmayaraq təslim olmurlar. Sadəcə bu döyüşlər zamanı I Ehsan xan Naxçıvan xanlığının və naxçıvanlıların xilası naminə özünün qəti addımını atıb. Digər Azərbaycan xanlıqları kimi vəziyyətin çətinliyi ucbatından, torpaqları mənasız müharibələrdən azad etmək üçün bu addımı atmağa məcbur olub. 1795-ci ildən başlayaraq onun atası I Kalbalı xan Rusiya ilə ilk diplomatik danışıqlar aparmışdı. I Ehsan xanın bu danışıqlardan xəbəri vardı. Çünki o, Kalbalı xanın sevimli oğlu olmaqdan savayı, həm də silahdaşı və məsləkdaşı idi. Böyük qardaşı Nəzərəli xan Abbas Mirzənin qoşununda döyüşürdü. O biri qardaşı Şeyxəli xan Ordubadda idi. Sözsüz ki, kəngərlilərdən xəbərsiz I Ehsan xan bu addımı atmazdı. Həmin illərdə Lütfəli Sultanın oğlu Novruz ağa Naxçıvan xanlığının qoşun rəisi idi. I Ehsan xan bunlarsız heç nə edə bilməzdi.

Araşdırmalardan məlum olur ki, Paskeviçin göstərişi ilə I Ehsan xanla çox ciddi danışıqlar aparılıb. Əlbəttə, I Ehsan xanın Naxçıvan xanlığı ilə bağlı ciddi şərtləri olub. I Ehsan xan digər Azərbaycan xanlıqlarının da xilası haqqında Paskeviçdən razılıq alıb. Bu bir arxiv sənədində də göstərilir: “Pul tələbatı rədd edildiyi halda, Raskeviç Azərbaycan vilayətlərinin... həmişəlik Rusiyaya qatılmasını təklif edirdi...” (167).

Rus qoşunları Abbasabad və İrəvan qalalarına gedən yolları bağladı. Həm Abbasabad qalası, həm də İrəvan İranın köməyindən kənarda qaldı.

Fətəli şahın iradəsizliyi, Abbas Mirzənin istər Şimali, istərsə də Cənubi Azərbaycan xanlıqlarına ögey münasibəti, onların müstəqilliklərini qəbul etməməsi onun meydanda tək qalmasına səbəb oldu və bu təklik məğlubiyyətlə nəticələndi. Abbasabad

qalasının işğalı Rusiyaya imkan verdi ki, özünün gizli planlarını həyata keçirməyə, həmçinin Abbas Mirzəni alçaldıcı Dehqarqan və Türkmənçay danışıqlarına aparmağa məcbur etsin.

Rus qoşunları qalanı işğal etdikdən sonra Rusiya dövləti Irana öz şərtlərini və təkliflərini qəti şəkildə bildirməyə başladı. Bu şərtlər o qədər ciddi və gözlənilməz idi ki, Abbas Mirzə kimi hünərli bir sərkərdə çaş-baş qaldı. O, hər vəchlə danışıqları yubatmaqla vaxt qazanmağa çalışdı. Amma Paskeviç tələsirdi. O, rus diplomatı A.S.Qriboyedova hələ Peterburqdan hazırlanmış şərtlər daxilində sülh müqaviləsi bağlamaq üçün lazım olan məsələləri həll etməyi həvalə etdi (18, s. 101).

Tarixi mənbələrdə rus tarixçiləri qalanın işğalını və Türkmənçay müqaviləsini Rusiya ilə İran arasında sülh və dostluq kimi qiymətləndirmişlər. Buna əsaslanaraq yazıblar ki, hətta diplomat A.S.Qriboyedovun faciəli ölümü də bu dostluğu və sülhü pozmadı (101, s. 109).

Bundan isə ermənilər çox məharət və hiyləgərliklə öz mənafeləri üçün istifadə etdilər. Onlar Cənubi Qafqazda, xüsusən Azərbaycanın qərb bölgələrində öz yerlərini möhkəmlətdilər. Bu işdə katalikos Nerses Aştaraketsi (1771-1857) ciddi rol oynamışdır. Azərbaycanlıları incidən Nersesin azğınlığı o dərəcəyə çatmışdı ki, qraf Paskeviç onu 1829-cu ildə Bessarabiyaya sürgün etdi (134, s. 656).

Qeyd edək ki, Azərbaycanın Rusiya və İran dövlətləri arasında iki yerə parçalanması 1801-ci ildən başlanmış və 1830-cu ilədək davam etmişdir. Burada isə əsas məsələ Qafqaza böyük maraq göstərən dövlətlər arasındakı münasibətlərdə Azərbaycanın taleyi idi. Əsil həqiqətdə Rusiyaının Qafqazı, o cümlədən Cənubi Qafqazı işğal etməsində əsas rolu ermənilər oynamışlar. Bunlar haqqında arxiv sənədlərində və çap olunan kitablarda xeyli maraqlı faktlar vardır.

Paskeviç ilə Qriboyedovun yazışmalarında erməni millətindən olan Safraz Saakovun adı tez-tez çəkilir. Paskeviç Qriboyedova

məsləhət görür ki, Safraz Saakovun vasitəsi ilə naxçıvanlı xanlarla, xüsusən Ehsan xanla əlaqə saxlasın və onlara təzyiqini davam etdirsin. 29 noyabr 1828-ci ildə Təbrizdə olan rus diplomatı Qriboyedov Paşkeviçə xəbər verir ki, Saakov onlara Abbasabad qalasının alınmasında mühüm xidmətlər göstərmiş və sizin göndərdiyiniz məktubları xanlara çatdırmışdır. Həmin məktubların mətni tərcüməçi Şamir Bəylərova məlumdur (87, s.74).

Ermənilərin xəyanəti, rus qoşunlarına köməkliyi və bələdçiliyi nəticəsində 27 iyun 1827-ci ildə Naxçıvan işğal olundu. Mənbələrə əsasən demək olar ki, 1826-1828-ci illərdə Fətəli xan rus komandanlığı ilə gizli danışıq aparırdı (87, s. 19).

Ağalar bəy Yenikolopov Abbas Mirzənin tapşırığı ilə Azərbaycan ərazisində bütün xristian əhalinin rəhbəri təyin olunmuşdu (87, s. 20). Abbas Mirzə bütün idarəçiliyi ona tapşırmışdı. Hələ 1817-ci ildə Yermolov İrana gedəndə şahın böyük oğlu Məhəmmədəli Mirzə ilə separat danışıqlar aparır və bununla Abbas Mirzəyə qarşı dayanmaq istəyirdi (87, s. 22).

Bu danışıqların təşəbbüskarı və vasitəçiliyini edən əksər halda tərcüməçi rolunu oynayan ermənilər idi. Onlar nəyin bahasına olursa-olsun Azərbaycanı, o cümlədən qədim Azərbaycan torpaqları olan İrəvan və Naxçıvanı ruslara təslim etmək və bundan sonra "Böyük Ermənistan" xülyasını reallaşdırmaq məqsədini güdürdülər. Yeri gəlmişkən ermənilər İrəvana, Naxçıvana və Qarabağa Türkmənçay müqaviləsindən sonra köçürülmüşlər (127). Abbas Mirzə 25 iyul 1828-ci ildə Qriboyedovu qəbul edərkən, Irəvan sərdarının qardaşı Həsən xan İran şahına xahişə gedirdi ki, İrəvan xanlığını qorumaq üçün onlara, rus qoşunlarına qarşı döyüşmək üçün silah və pul versin (87, s. 79). Bu zaman Peterburqdan çar da tələb edirdi ki, İrəvan qalasını tutsunlar (87, s. 84). İrəvan qalası təslim olmur, döyüşürdü. Qalanı sərdarın qardaşı Həsən xan qoruyurdu. İrəvanda yaşayan ermənilər rus qoşunlarına hər vəchlə kömək edirdilər. Erməniləri bu işə

şirnikləndirən yepiskop Nerses Əştərəkli (sonralar o, bütün ermənilərin katalikosu olmuşdur) idi.

K.Şulqinin sözlərinə görə “ermənilər Paskeviçə qalanın hansı hissəsində İran qoşunlarının olmasını göstərir və oraya atəş açmağı lazım bilirdilər” (87, s. 86). İrəvan qalası ətrafında 6 gün qızğın döyüşlər davam etdi və qvardiya polkundan 6-sı qalaya daxil ola bildi. Bu polkların hamısı dekabristlərdən təşkil edilmişdi. Artıq oktyabrın 3-də xüsusi əmrlə bütün qoşunlara İrəvan qalasının alınması haqqında xəbər verilirdi (96, s. 86). İrəvan qalasının komendantı Sübhanqulu xan idi. Onun özü və 3 min nəfərdən çox İran sərbazı ruslara təslim oldu. Ermənilərin xəyanətkarlığı nəticəsində İrəvan xanlığını da rus qoşunları işğal etdilər. Araşdırmalar göstərir ki, Paskeviçin komandanlıq etdiyi rus qoşunları Naxçıvana hücum edəndə 1826-1828-ci illər müharibəsinin ən qanlı döyüşü Naxçıvanın 25 km-də, Xok kəndində baş verib. Abbas Mirzənin tarixçisi çox soyuqqanlıqla həmin döyüşləri doğru-dürüst qələmə alıb. Onun yazdığına görə, Şahtaxtı körpüsü ətrafında və Xok kəndində rus qoşunları çox tələfat verdilər. Müəllif göstərir ki, gecə kənddə əhali ilə rus qoşunları arasında əlbəyaxa döyüş başlandı. O qeyd edir ki, gürcü knyazı Eristovun başçılıq etdiyi qoşunlar iki gün Xokda döyüşəndən sonra Abbas Mirzənin qoşunları Araza tərəf geri çəkildi. Rus qoşunları Araz çayının sol sahili ilə Abbasabad qalasına getməyə başladılar.

Rus şərqşünası K.N.Smirnovun şəxsi fondundan Cəmil Quzanlının tapdığımız əsəri (ruscaya çevrilmiş) hadisələrin dəqiq təsviri cəhətindən çox əhəmiyyətlidir. O, döyüşən hər iki tərəfin səhvlərini və zəif cəhətlərini də açıb göstərir. Müharibəni dövrlərə bölərək təhlil edir (90).

Paskeviçin özü isə qoşunların bir hissəsi ilə Naxçıvana tərəf yoluna davam etdi. Bu yürüş yay vaxtına təsadüf etdiyi üçün Naxçıvan ətrafındakı çöllərdə bolluca taxılın olduğunu da yazanlar var. Məsələn, Paskeviçin yaxın dostu knyaz Şerbatov

öz kitabında yazır ki, Naxçıvanın ətrafındakı geniş düzənliklərdə taxıl yaxşı yetişmişdi. Paskeviç elan etdi ki, bir çərək döyülmüş dən üçün o, biçinçilərə kömək məqsədilə 1 manat gümüş pul verəcək (144, s. 276).

Bəzən deyirlər ki, Paskeviçi hər yerdə ermənilər müşayiət ediblər. Ancaq həmin illərin rus xronikaçıları bunların əksəriyyətinin müsəlmanlar olduğunu yazıblar (86, s. 440). Çünki zahirən rus qoşunları sadə əməkçi camaata dəymirdilər. Paskeviç belə əmr vermişdi. Hətta zorakılıq edən rus əsgərini həmin andaca güllələməyi də qəti tapşırmışdı. Heç təsadüfi deyil ki, sonralar Abbas Mirzə rus diplomatı A.S.Qriboyedova demişdi: "Mən general Paskeviçin ən təhlükəli silahını özünün və bizim müsəlmanlara göstərdiyi insan sevgisi və ədalətini hesab edirəm. Biz hamımız bilirik, o, özünü İrəvandan Naxçıvanadək köçəri qəbilələrə qarşı necə apardı, əsgərlər heç kimi incitmədilər və o, hamını dostcasına qəbul etdi. Özgə xalqla etimad qazanmağın bu yolu mənə də məlumdur" (86, s. 559). Həmin illərin canlı şahidi olan Knyaz Şerbatov daha sonra yazır: "Havanın temperaturu müsbət 43 dərəcə idi və rus əsgərlərindən 1000 nəfərədək xəstələnən vardı. Şəhərin özündə az adam qalmışdı. Əhalinin çox hissəsini Arazın o tayına köçürmüşdülər. Paskeviç əmr etdi ki, onların evlərini qorusunlar. Pulsuz heç nə almasınlar. Elə birinci gecə şəhər əhalisi ailəlikcə qayıdıb gəlməyə başladı..." (144, s. 276).

Paskeviç bilirdi ki, onu Abbasabad qalası ətrafında ciddi döyüş gözləyir. Elə buna görə də Naxçıvan yürüşünə başlayanda çara yazmışdı ki, mühasirə etmədən qalanı tutmaq olmaz. Həlledici döyüş üçün mənə çoxlu top mərmisi lazımdır ki, Naxçıvanı tutam (7, s. 57). Bundan sonra Paskeviçin qoşun hissələri hərəkətə başlamışdı. Çox vaxt yazırlar ki, ermənilər Paskeviçə kömək etməsəydilər Rusiya tərəfi qalib gəlməyəcəkdi və s. Bizcə, ermənilərin fəaliyyəti bu məsələdə şişirdilir. Çünki o illərin xronikalarını və 1833-cü ildə rus diplomatı və şairi

Qriqoryevin yazdığı kitabı oxuyanda aydın olur ki, ermənilərin döyüş qabiliyyətləri olmayıb. Qriqoryev qeyd edir ki, Naxçıvan Kəngərliləri çox cəsur və bacarıqlı döyüşçülərdir, ermənilər isə ticarətlə və sənətkarlıqla məşğuldurlar (88, s. 39). Sadəcə, Qafqazda həmişə ara qarışanda onlar xəyanətkarlıqla məşğul olublar və qalib tərəfdən sonra həmişə öz paylarını güdüblər. Erməni mənşəli tədqiqatçılardan İ.K.Yenikolopov isə sovet hakimiyyəti illərində yazdığı kitablarda erməniləri tərifləyib, guya ki, Rusiyanı qalib edən onlardır (96, s. 63, 65).

General Paskeviç Azərbaycan xanları içərisində heç kimə I Ehsan xan kimi ehtiram bəsləməmişdir. Belə mənəvi yaxınlıq imkan yaradırdı ki, I Ehsan xan öz şərtlərini qəti şəkildə bildirsin. I Ehsan xan həm də istəyirdi ki, qraf Paskeviç Naxçıvanın hakimiyyətini ona tapşırsın. Tədqiqatçıların bəziləri ifrat dərəcədə öz emosional hisslərinin təsiri altında atılan qəti addımı az qala "xəyanət" kimi qələmə alıblar. Doğrudanmı belədir? Əgər belədirsə Naxçıvan xanlığının xilas edilməsi nəyə görə "xəyanət" adlandırılsın? Bir də ki, Azərbaycan xanlıqlarının Rusiya təbəəliyinə keçməsi "xəyanət" adlanmırsa, böyük dövlətlərin müharibə meydanına çevrilən Naxçıvanın xilası üçün I Ehsan xanın atdığı diplomatik addımı "xəyanət" adlandırılır və hər tərəfdən qılınclamaqda davam edənlər bu gün də tapılır. Bu addım o zaman "xəyanət" adlanardı ki, Naxçıvan xanlığı müstəqil olsun.

1828-ci il martın 6-da I Ehsan xanı Ordubaddan Abbasabad qalasına gətirdilər ki, Rusiya dövlətinə sədaqət andı içsin. Ona həmin gün Naxçıvanın naibliyi həvalə olundu (156). "Naib" ərəb sözüdür. Azərbaycan dilində əvəz edən, müavin, canişin,vali deməkdir. Azərbaycanda xanlıqlar dövründə naiblər mahal hakimi vəzifəsini (yəni, general-qubernator) icra edirdilər. Artıq bu xanlıq titulu deyil. Əslində I Ehsan xanın naibliyi 6 oktyabr 1827-ci ildə İrəvanda rusların yaratdığı Müvəqqəti Vilayət İdarəsindəki üçlükdən asılı idi (96, s. 100). Bunu bilərəkdən et-

mişdilər və hər şey martın 21-də aydınlığı ilə üzə çıxdı (133, s. 272-273). Əlbəttə, bütün bunların hamısını I Ehsan xan əla anlayırdı. Amma Naxçıvanı erməniləşdirməkdən xilas etmək onun ən ümdə amalı idi. Bir çox arxiv sənədlərində fürsətdən istifadə edib Naxçıvana doluşan ermənilərin torpaq zəbt etməklərinə imkan verməməsi buna yaxşı sübutdur. Hətta sonradan belə bir missiyanı onun oğlanları tam süvari generalı İsmayıl xan və general-mayor II Kalbalı xan davam etdirdilər. Kəngərlilər tarixən içdiyi anda sədaqətli olublar. Amma Rusiya imperiyası verdiyi vədlərə əməl etmədi və Paskeviçin də gücü çatmadı. Qərbi Avropa ölkələri ilə müharibə etmək istəməyən Rusiya öz siyasətində axırıncı nöqtə Abbasabadı qəbul etmişdi. Bütün oyunlar yalnız təzminatın başında idi.

Abbasabad qalasında gedən döyüşlərdə məğlub olan Abbas Mirzə iyul ayında yenidən Rusiya ilə danışıqlara başlamağı qərara aldı. O, öz katibi Mirzə Salehi məktubla qraf Paskeviçin yanına göndərdi. İran ilə danışıqlara diplomat A.S.Qriboyedov göndərildi (87, s. 76).

19 iyul 1827-ci ildə Qriboyedov özünün baş tərcüməçisi A.A.Bakıxanovla Abbas Mirzənin hərbi düşərgəsinə gəldi. Danışıqlar Qaraziyəddin deyilən yerdə bir neçə gün davam etdi. Rusiya tərəfi hərbi təzminat, həmçinin Naxçıvan və İrəvan xanlığını istəyirdi. Abbas Mirzə isə döyüşlərin 10 ay müddətinə dayandırılmasına çalışırdı. Qaraziyəddində aparılan danışıqlar nəticəsiz qaldı. Bu haqda Qriboyedov qraf Paskeviçə geniş, ətraflı bir raport hazırladı. Maraqlıdır ki, çar hökuməti bunun mətbuatda çapını qadağan etmişdi. Yalnız 1873-cü ildə "Russkaya starina" jurnalında çap üzü gördü (87, s. 76-77).

Gürcüstan Milli Arxivində Türkmənçay danışıqlarına qədər və o danışıqlara aid maraqlı arxiv sənədləri saxlanılır. 11-ci fondda saxlanılan "Diplomatik dəftərxananın işi" başlığı ilə "Türkmənçayda İran ilə bağlanan sülh müqaviləsi haqqında" olan iş orijinal olduğu üçün çox maraqlıdır. Qovluqdakı sənədlər

elə həmin vaxtlar yazılanlardır. 142 səhifə olan bu iş 12 fevralda başlayıb 20 avqustda qurtarıb. Sənədlər 1828-ci ilə aiddir (167).

Türkmənçayda aparılan gizli danışıqlardan əvvəlki danışıqları bilmədən məsələni araşdırmaq olmur. Qeyd edək ki, 11-ci fondda saxlanılan "Abbas Mirzə ilə danışıqlara saray müşaviri Qriboyedovun Qarababadan göndərilməsi" adlı işdə çox maraqlı dialoqlar var. Bu sənəd 6 saatlıq danışığın mətnidir (163). Burada o qədər diqqət çəkən məsələlər var ki, çar hökuməti sonralar İran ilə dostluğu pozmasın deyə, onun çapına qadağa qoymuşdu. Bu sənədi diqqətlə oxuyub dərindən təhlil edəndə aşkar oldu ki, hər iki tərəf üçün bu danışıqlar çətin olub.

Təzminat məsələsində Rusiya tərəfi heç cür güzəştə getmək istəmirdi. Çünki onlar bu təzminatla düşmən tərəfi uzun illər iqtisadi cəhətdən zəif saxlamaq məqsədini güdürdülər. Müharibədə isə hərbi uğurların əsasını iqtisadi güc qoymuş olur.

A.S.Qriboyedov və yeni baş komandan qraf İ.F.Paskeviç danışıqların nəticəsiz olduğunu görən kimi oktyabr ayında İrəvanı da işğal etdi. Hələ 1826-cı ilin axırından Cənubi Azərbaycan torpaqlarına daxil olan rus qoşunları Təbriz istiqamətində hücumu genişləndirdilər. 13 oktyabrda Təbriz şəhəri rusların əlinə keçdi. Rus qoşunlarının bu qələbəsini görən İran hökuməti danışıqlara başlamaq arzusunda olduğunu Rusiya tərəfinə bildirdi (87, s. 81-82).

Rəsmi olaraq danışıqlar 6 noyabr 1827-ci ildə başlandı. O vaxtlar ərazi sərhədlərini dəqiqləşdirmək üçün xüsusi komissiya yaradıldı. Danışıqlar Dehqarqan kəndində 10 noyabr gündüz saat 12-də başlandı. Rusiya nümayəndə heyətinə general İ.F.Paskeviç, A.S.Qriboyedov, A.M.Obrezkov, A.K.Amburger, N.D.Kiselyov və tərcüməçilər A.B.Bakıxanov və Rusiya Xarici İşlər Nazirliyinin kollegiya üzvü Q.M.Vlanqalı daxil idilər. İran tərəfindən vəliəhd Abbas Mirzə, qaimməqam Fərrahani, bəylərbəyi Fətəlixan, katib Mirzə Məhəmməd Əli və fransız dili tərcüməçisi Mirzə Məsud danışıqlarda iştirak edirdi. Qraf Paskeviç aşağıdakı

şərtləri qoymuşdu: 1) İrəvan və Naxçıvan xanlıqlarının Rusiyaya güzəşt edilməsi, 2) Talış xanlığından İran qoşunlarının çıxarılması, 3) 15 kurur (təxminən 30 milyon rus rublu) miqdarında təzminat verilməsi.

Qraf Paskeviçin belə bir şərti də vardı ki, əgər İran tərəfi bu pulu verməkdən imtina etsə, onda Rusiya tərəfi Azərbaycan əyalətini–Təbrizlə birlikdə–Cənubi Azərbaycan xanlıqlarının hamısını Rusiya ərazisinə birləşdirəcək. Əslində qraf Paskeviç elə bu yöndə iş aparıb, xanlıqların xanlarının hamısını razı salmışdı. İki iclasın nəticələri haqqında məlumat İrana bildirildi. 26 noyabrda İran tərəfinin təklifləri dinlənildi. İran şahı Rusiyanın tələbləri ilə razılaşırdı, amma təzminatın 10 kurur olmasını istəyirdi (16, s. 63; 167).

Konfransın 4-cü və 5-ci iclası (29 noyabr, 9 dekabr) sakit keçdi. Burada müzakirə edilən o qədər də vacib məsələlər olmadığı üçün mübahisə yaratmırdı. Ancaq kapitan Volxovskinin gətirdiyi xəbər yenə də münasibətləri kəskinləşdirdi. Onun məlumatına görə, İran tərəfi belə qərara alır ki, əgər Rusiya qoşunları Cənubi Azərbaycandan çıxarılarsa, 5 kurur təzminat ödəniləcək. Qalan təzminat hissə-hissə ödəniləcək. Bu xəbər Abbas Mirzəni çox narahat etdi. Çünki hərbi əməliyyatlar yenidən başlayacaqdı. Narazılıqlar yanvarın 7-də danışıqların kəsilməsinə gətirib çıxardı. Rus qoşunları yenidən hücuma keçməklə İrana təzyiqi gücləndirdilər. Yanvarın 28-də Urmiya, fevralın 8-də Ərdəbil tutuldu (20). Rus qoşunları Miyanəyə gəlib çatdılar. Ucan qalasına çatmamış İngiltərənin Tehrandakı səlahiyyətli səfiri Makdonald xəbər gətirdi ki, şah şərtlərə razıdır.

Miyanədən 33 kilometr şimal-qərbdə olan Türkmənçay kəndi sülh danışıqları üçün seçildi. Fevralın 6-da rus diplomatik korpusu da gəlib buraya çıxdı. İran tərəfindən Mənuçöhr xan və Mirzə Əbülhəsən xan da səlahiyyətli nümayəndələr kimi nümayəndə heyətinə daxil edildilər. Adı çəkilən Mənuçöhr xan əslən erməni və yəhudi qarışıqlı olub, bir vaxtlar İrana əsir

gətirilsə də danışıqlarda şahın vəziri kimi iştirak edirdi. Familyası Yenikolopov olan bu şəxs Azərbaycana İran ermənilərinin köçürülməsində əlahiddə işlər görüb.

Sayca 7-ci iclas 10 fevrala təyin edildi. Rusiya tərəfi konfransın materiallarının işini Qriboyedova tapşırdı (87, s. 109).

1828-ci il fevralın 9-dan 10-na keçən gecə (hicri tarixlə 1243-cü il şaban ayının 5-də) saat 12.00-da Abbas Mirzənin münəccimi tərəfindən müəyyən edilmiş vaxtda Türkmənçay müqaviləsi imzalandı. Müqavilənin orijinalına qraf İ.Paskeviç və A.Obrezkov qol çəkmişlər. Bu müqavilə imzalandıqda rus toplarından 101 yaylım atəşi açıldı. Müqavilə 16 maddədən ibarət idi (167).

Türkmənçay müqaviləsi Rusiya tərəfindən 1828-ci ilin martında, İran tərəfindən isə iyul ayında ratifikasiya edilmişdir. Onu da deyək ki, bu müqavilənin hazırlanmasında əsas rol oynayan tarixi sənədlərdən biri Rusiya çarı I Nikolayın qraf İvan Paskeviçə göndərdiyi məxfi məktubudur (29 noyabr 1827-ci il) (178). Bu müqavilənin bağlanmasında Rusiya tərəfi daha çox qazandı. Naxçıvan və İrəvan xanlıqlarının ərazilərinə və Xəzər dənizinin tamamilə sahibi oldu. Rusiya imperiyası öz sərhədlərini genişləndirməklə Rusiyanın Orta Asiyada da siyasi və iqtisadi nüfuzunu artırdı və 1917-ci ilədək Rusiya-İran münasibətlərini sabit saxladı (87, s. 109-110).

Türkmənçay müqaviləsi Rusiyada dəfələrlə çap edilmişdir. Tbilisidə Milli Tarix Arxivində saxlanılan sənədləri araşdırarkən aydın oldu ki, bu sənədlərdən istifadə edərək çox məsələlərə aydınlıq gətirmək olar. Arxivdə 84 vərəqlik bir iş yenə bu müqaviləyə aiddir (166, s. 9).

Ayrı bir işdə bu müqaviləyə görə 73 nəfər rus hərbiçisi "Şire-Xurşid" ordeninin müxtəlif dərəcələrini almazla birliklə alıblar. Sənədlər toplusu 395 vərəqdir (169).

Burada 23 aprel 1828-ci ildə başlanıb 3 fevral 1834-cü ildə

qurtaran 84 səhifə olan bir işdə isə ruslara bu müqavilədə kömək edənlərin siyahısı var: medal alanlar, rüşvət pul alanlar. Başqa adamları tərifləməyi sevməyən qraf Paskeviç Qriboyedovun xidmətlərini çar I Nikolaya yazdığı məktubda tərifləyirdi: "Mən cəsarət edib deməliyəm ki, o siyasi işlərdə mənim üçün çox faydalı olmuşdur. Pulların bir qismini qabaqcadan almamış danışıqları başlamamağı məsləhət etdiyi üçün ona minnətdaram, nəticə göstərdi ki, əks təqdirdə biz uzun müddət istənilən müvəffəqiyyətə nail ola bilməzdik" (144, s. 95).

Qriboyedov bəzi nüfuzlu əyanları rüşvət yolu ilə ələ almağa da təşəbbüs etmişdi. Bu barədə "İranın müxtəlif əyanlarına, sülh danışıqları zamanı göstərdikləri xidmətləri üçün pul buraxılmasına dair arxiv" işində ətraflı məlumat vardır (169). Bunlar hamısı Azərbaycanı yarıya bölənlərdir. Türkmənçay müqaviləsinin yazılmasında müstəsna xidmətləri olan A.S.Qriboyedov haqqında N.Muravyov yazırdı: "O, İranda tək özü Rusiyanın 20 minlik ordusunu əvəz etdi" (87, s. 127).

1826-1828-ci il hadisələri I Kalbalı xanın və onun oğlu Ehsan xanın şəxsən tanıdıqları rus rəssamı Vladimir İvanoviç Moşkovun (1792-1839) yaradıcılığında öz əksini tapmışdır. O, 1801-1812-ci illərdə Sankt-Peterburq Rəssamlıq Akademiyasında təhsil almışdır. 1815-ci ildə "1813-cü ildə Leypsiq şəhəri önündə döyüş" adlı rəsm əsərinə görə akademik elmi adını almışdı.

1816-cı ildə Rusiya Rəssamlıq Akademiyası onu Qafqaza göndərdi ki, bura ilə bağlı, eləcə də məşhur şəxsiyyətlərin döyüş hünərlərindən bəhs edən şəkillər çəksin. Onu da qeyd edək ki, Moşkov hərbi rəssam idi. Elə buna görə də o, bir hərbçi kimi 1816-1818-ci illərdə Rusiyanın İrandakı səfirliyində, 1827-1829-cu illərdə feldmarşal Paskeviçin döyüşən ordusunun tərkibində Naxçıvanda olmuşdur. General Yermolovun missiyasının tərkibində iki dəfə I Kalbalı xanla görüşmüşdü. 1826-1828-ci illərdə isə onun hərbiçi oğlanları ilə dəfələrlə görüşüb söhbətləşmişdi.

V.İ.Moşkovun bu illərdə əsasən naturadan, birbaşa döyüşün

içindən çəkdiyi şəkillər əvəzsizdir. O, əvvəlcə eskizlər etmiş, sonradan onların əsasında akvarel ilə döyüş səhnələrini təsvir edən maraqlı şəkillər çəkmişdir. Batalist rəssam 1826-1828-ci illərdə olan döyüşlərdə həmişə qraf Paskeviçin yanında olmuşdur. Sonralar litoqrafik üsulla böyük bir albom nəşr etdirib. O rəsm əsərləri yüksək bədii dəyəri ilə bərabər, gedən hərbi döyüşlərdən ən maraqlı epizodların təsvirləri ilə seçilir. Bu döyüşlərin fonunda görkəmli hərbi sərkərdələrin də şəkillərini çəkmişdir. Bir vaxtlar Tiflisdəki Qafqaz Hərbi-Tarix Muzeyində nümayiş etdirilən "Rəssam Moşkovun şəkillərinin kolleksiyası"nın xüsusi tarixi əhəmiyyəti vardır. Qeyd edək ki, Rusiya İmperiyasının Qafqaz Hərbi-Tarix Muzeyi 1888-ci ildə yaradılsa da, həqiqi fəaliyyətə 11 fevral 1907-ci ildə başlamışdır. Qafqaz canişini qraf Vorontsov-Daşkov onu rəsmən açmış və teleqrafla çar II Nikolaya bu haqda məlumat vermişdir. Rusiya çarı isə çox səmimi bir teleqramla qrafı və muzeyi yaradanları təbrik etmişdir. Muzeydə Naxçıvan xanlığının bayrağı, Abbasabad qalasının açarları da nümayiş etdirilmişdir. Rəssam Moşkovun kolleksiyasını P.A.Opoçinin hədiyyə etməsi haqqında məlumat sənədlərdə öz əksini tapmışdır (139).

1920-ci ilədək fəaliyyət göstərən bu muzeyin fondlarında olan tarixi əşyalar, sənədlər sovet hökuməti illərində müxtəlif istiqamətlərdə paylaşdırılıb. Həmin muzeyin 1907-ci ildə Qafqaz Hərbi Dairəsinin qərargahının Tiflisdəki nəşriyyatında sanballı şəkildə hazırlanmış "Bələdçi" kitabındakı tarixi faktlar bu gün də çox qiymətlidir. Orada Naxçıvan tarixi ilə də bağlı xeyli məsələlər vardır. Bu kolleksiyada rəssamın çəkdiyi 12 şəkil toplanmışdır. Bunların hər birinin haqqında tarixi, elmi izahatlar da həmin döyüşlərin düzgün təhlil edilməsinə imkan yaradır. Həmin şəkillərin adları çox vaxt tədqiqatçılar tərəfindən təhrif olunur. Bunu nəzərə alaraq həmin şəkillərin rəssam Moşkovun özünün əli ilə yazdığı adları sadalamaqla bərabər, həm də Naxçıvanın siyasi tarixi ilə bağlı çəkilən şəkillər üzərində bir az ətraflı

bəhs etmək istərdik:

Birinci şəkil: "Yelizavetpol (Gəncə) döyüşləri" 13 sentyabr 1826-cı il (139, s. 32-33-34).

İkinci şəkil: "Cavanbulaq döyüşündən əvvəl qoşunların Araz çayını keçməsi" (139, s. 34).

Naxçıvan şəhərinin bir neçə verstliyində (1 verst=1,06 kilometr) olan Abbasabad qalasına Paskeviçin əmri ilə atəş yağdırılır. Cavanbulaq döyüşlərindən əvvəl alınmaz bu qalanı yol üstündən götürmək Paskeviçin əsas məqsədi idi. Amma Xoy tərəfdən Abbas Mirzənin 20 min süvarisi qalanın köməyinə gəldiyindən Paskeviç qalanı tuta bilmir. Bu qalanın uğrunda məşhur Cavanbulaq döyüşü olmuşdur. O döyüşdən əvvəl rus qoşunlarının Araz çayını keçməsi rəssam tərəfindən maraqlı şəkildə təsvir olunub: İki qaya arasında Araz çayı ətrafa yayılaraq iti sürətlə axır. Çayın üzərindən körpü qurmaq mümkün olmur. Çünki vaxt da azdır. Döyüşçülər çayı üzə-üzə keçməyə can atırlar. Atlılar, piyada qoşunlar və toplar hamısı çayın içərisində təsvir edilib. Paskeviç qayanın üzərində dayanaraq vəziyyətə nəzarət edir. Artıq qoşunun bir hissəsi çayın o biri tərəfinə keçə bilib və özləri ilə birlikdə artilleriyanı da sərt dağın yamacı ilə yuxarıya qaldırırlar.

Üçüncü şəkil: "Cavan bulaqda gedən döyüşlər" 5 iyul 1827-ci ildə (139, s. 34-35).

Döyüşü süvarilər başlayır. Paskeviç isə özünü piyada qoşunla onların köməyinə çatdırır. Gürcüstanın üç qrenader batalyonu, Tiflis eger polku və Şirvanın piyada alayı təbillə sağ tərəfdən hücuma keçib. Dağın sinəsində yerlərini bərkidə biliblər. Qraf Paskeviç bu məşhur döyüşün mərkəzində təsvir edilib.

Rəssam döyüşün elə anını burada təsvir edib ki, həmin vaxt Paskeviç əsas döyüş qüvvələri ilə hücuma keçib və nijeqorodluların polku sağ cinahdadır. Poruçik knyaz Şalikov da ön planda rəsm edilib. Bu döyüş səhnəsindən əməlli-başlı bir kitabça yazmaq olar. Imperator I Nikolay bu döyüşdə Poruçik Aleksandr Levkoviçin hünərinə məftun olur və onu 4-cü dərəcəli Müqəddəs Georgi

ordeni ilə təltif edir, saray qvardiyasına dəyişdirir, iki min rubl mükafat verməklə bərabər hər il öz hesabından 1500 rubl verilməsi haqda əmr verir. Həmin poruçikin hünəri bu rəsm əsərində ətraflı təsvir olunub.

Dördüncü şəkil: «Cavanbulaq döyüşünün bitməsi və nəticələri" adlanır. Təsviri də olduqca maraqlıdır (139, s. 36).

Beşinci şəkil: "1827-ci il 7 iyulda Abbasabad qalasının alınması" (139, s. 36-37).

Altıncı şəkil: "Sərdarabad qalasına hücum və bombalanması" 19 sentyabr 1829-cu ildə (139, s. 37).

Yeddinci şəkil: "İrəvan qalasına hücum və iflasa uğradılması" 1 oktyabr 1827-ci ildə (139, s. 38).

Səkkizinci şəkil: "Qraf Paskeviçin təntənəli şəkildə Təbrizə daxil olması"nı təsvir edib (139, s. 38-38).

Doqquzuncu şəkil: "24 oktyabrda Paskeviçin Təbrizdə keçirdiyi parad"la bağlıdır (139, s. 39).

Onuncu şəkil: " Qraf Paskeviçin şahzadə Abbas Mirzə ilə Dehqarqan kəndində olan görüşləri". 1827-ci il noyabrın 6-nı təsvir edir (139, s. 39-40). Ön planda Paskeviç və Abbas Mirzə, bir az onlardan aralıda xidmətçiləri dayanıb. Paskeviçdən arxa-da-saray müşaviri Vlanqalı dayanıb. Vlanqalı Konstantinopoldan müharibə zamanı Paskeviçin yanına tərcüməçi kimi göndərilən yunan idi.

Burada onun əyanlarının adları da bizim tariximiz üçün maraqlıdır. Çünki bu görüşdə Naxçıvan xanlığı ilə də bağlı danışıqlar gedib. Paskeviçin danışıqlarda iştirak edən digər saray adamları da burada rəssam tərəfindən çəkilib: 1) Diplomatik dəftərxananın rəisi, kamerger A.M.Obrezkov, 2) qraf P.P.Suxtelen, Qafqaz korpusunun qərargah rəisi, 3) Qarabağ dəstəsinin rəisi general-leytenant, knyaz İ.M.Vadbolski, 4) Diplomatik dəftərxananın məmuru A.S.Qriboyedov, 5) general-adyutant K.X. Benkendorf, 6) Paskeviçin yanında dayanan polkovnik Xvoşinski, 7) General-mayor, knyaz A.Çavçavadze və 8) Süvari

qoşunun rəisi general-mayor, baron D.E.Osten-Saken. Rəssamın bu rəsm əsərindən aydın olur ki, I Ehsan xan Türkmənçay danışıqlarında iştrak etməyib. On birinci şəkil: "Türkmənçayda sülh müqaviləsinin bağlanması" 10 fevral 1828-ci ildə (139, s. 40-41).

On ikinci şəkil: "Təzminat pulunun daşınması" adlanır (139, s. 41). Nəhayət, bu axırıncı şəkildir. Burada müharibənin epiloqunu Moşkov belə təsvir edir: Atlara, qatırlara və öküzlərə yüklənmiş təzminat karvanı yarğanların və qayaların arası ilə Qaflankuh dağından üzü aşağı yenir. Karvanı rus əsgərləri mühafizə edir. Arazı keçəndən sonra təkərli yük arabaları hazırlanır, burada onların sayı 26-dır, bütün təzminat arabalara yüklənir. Tiflisdə isə bu karvanı çox təntənəli qarşılayırlar və sair və ilaxır.

Türkmənçayın tarixi xronikasının dərindən öyrənilməsində rəssamın çəkdiyi rəsmlər çox mühümdür. Bu rəsm hadisələri əyaniləşdirir, canlandırır və tədqiqatçıya kömək edir ki, onları düzgün təhlil etsin. Olduqca unikal və tarixi şəkillərdir. Bizcə hələ də mahiyyətləri tamamilə tədqiq edilməyib.

Onu da qeyd edək ki, 1955-ci ildə Moskvada V.V.Sadovenin nəşr etdirdiyi «Русские художники баталисти XVIII-XIX веков» adlı kitab-albomda rəsm əsərlərinin adları dəyişdirilib. Bu isə heç də o vaxtkı tariximizin xeyrinə deyil. Ona görə də biz rəssam Moşkovun (Maşkovun) əli ilə yazdığı adları təkrarladıq.

Batalist rəssam Moşkovun çəkdiyi digər şəkillər də vardır ki, bunlar əsasən Yermolovun kolleksiyasında və İrəvan muzeylərində saxlanılır. Bu şəkillərin də tarixi mahiyyəti böyükdür. Rəssam Türkmənçay müqaviləsi əsasında ermənilərin Şimali Azərbaycana köçürülməsi prosesini çox maraqlı və canlı təsvir etməklə İrəvanın və Naxçıvanın qədim zamanlardan türklərə məxsus olduğunu əyani olaraq göstərib.

1839-cu ilin mayında Həştərxanda (Hacı Tərxanda) dünyasını dəyişən məşhur batalist rəssam V.I.Moşkovun rəsm əsərlərinin,

əsasən Naxçıvanın siyasi tarixi ilə bağlı şəkillərinin ətraflı, dərindən təhlil edilməsinə, mahiyyətinin açılıb göstərilməsinə (xüsusən döyüş səhnələrinin) və Naxçıvanın hərbi sərkərdələrinə ithaf olunmuş rəsm əsərlərinin axtarılıb tapılması tariximizdə olan mübahisəli elmi məsələlərin həllinə köməklik edə bilər.

Baş verən bu hadisələrin burulğanında Naxçıvan xanlığını və onun yerli əhalisini xilas etmək böyük bacarıq və uzaqgörənlik tələb edirdi. Belə bir işi cəsur sərkərdə I Ehsan xan Kalbalı xan oğlu bacardı. Onu da deyək ki, bu günədək tariximizin ən ağrılı səhifələrindən biri cürətli, mahir sərkərdəmiz I Ehsan xanın hərbi taleyi ilə bağlıdır. Aradan 182 il ötüb keçsə də, bu tarixi problem həll edilməmiş qalıb.

Təəssüflər olsun ki, ancaq müstəqillik duyğusu ilə yaşayan bu cəsur sərkərdənin hünərini heçə yendirmək istəyənlər tapılır. Əsas səbəb isə I Ehsan xanın həyat və fəaliyyətinin araşdırılmamasıdır. Bunu nəzərə alaraq yeni əldə etdiyimiz arxiv sənədləri əsasında onun bioqrafiyasını və hərbi fəaliyyətini də ətraflı yazmağı məqsədəuyğun sayırıq.

Azərbaycan tarixinin çox mühüm bir qolunu təşkil edən, Naxçıvan tarixində özünəməxsus yer tutan xanlıq dövrünü obyektiv və dərindən araşdırdıqda general-mayor Ehsan xan Kalbalı xan oğlunun həyatı və hərbi fəaliyyəti maraq doğurur. Çünki I Ehsan xanın bütün həyatı və fəaliyyəti Naxçıvan xanlığının ən çətin, mürəkkəb dövrlərinə təsadüf edir. Çar Rusiyası illərində onun haqqında hərbi xronikalarda, şəxsi gündəliklərdə, hərbiçi tarixçilərin yazdıqları monoqrafiyalarda, diplomatların məktublarında yazılsa da, sovet hakimiyyəti mövcud olduğu illərdə adı elə-belə ötəri xatırlanmışdır. Elə bu səbəbdən də onun haqqında ziddiyyətli, qərəzli fikirlər bəzi kitablarda öz əksini tapmışdır.

Belə bir şəraitdə Ehsan xanın həyatı və fəaliyyəti haqqında xeyli sənədlər Tiflis, Moskva, Sankt-Peterburq, Vladiqafqaz, Kiyev, Bakı və Naxçıvan arxivlərinin fondlarında aşkar edilmişdir.

Bu sənədləri və XIX əsrdə yazılan kitabları (arxiv sənədləri əsasında) təhlil etdikdə aydın oldu ki, I Ehsan xan Naxçıvanski haqqında xeyli maraqlı, zəngin, həm də tariximiz üçün qiymətli faktlar vardır. Bütün bunlar hamısı mahir sərkərdə I Ehsan xanın həyatının və hərbi fəaliyyətinin doğru-dürüst araşdırılmasına kömək edir.

I Ehsan xan Kalbalı xan oğlu Kəngərli təxminən 1789-91-ci illərdə Naxçıvan şəhərində anadan olmuşdur. Moskvada tədqiqatçılar onun 1789-cu ildə (təxmini olaraq) doğulduğunu yazırlar (123, s. 80). Amma 1831-ci ilin kameral siyahısında göstərilir ki, I Ehsan xanın 40 yaşı vardır (145). Onda bu sənədə əsasən onun 1791-ci ildə doğulduğunu qəbul etmək daha düzgün olardı.

General-mayor I Ehsan xanın harada təhsil alması haqqında hələlik məlumatımız yoxdur. Ancaq farsdilli mənbələrdə, həmçinin rus diplomatı A.S.Qriboyedovun yazdığı gündəliklərdə və məktublarda artıq onun istedadlı hərbiçi olması haqqında məlumatlara rast gəlinir (129, s. 17-19; 86).

Naxçıvan Muxtar Respublikasının Dövlət arxivindəki 1818-ci ilə aid bir sənəddə onun İran hökumətindən pul təminatı–pension alması haqqında məlumat verilir (150). Bu fərmanı şahzadə Abbas Mirzə imzalamışdır. Tarixi sənəddən aydın olur ki, həmin illərdə I Ehsan xanın 26 yaşı var idi və o, iran ordusunun ən bacarıqlı hərbİçilərindən sayılırdı.

Rusiyanın İrəvan və Naxçıvan xanlıqlarına hücumu reallaşdığından Abbas Mirzə istəyirdi ki, Naxçıvan və İrəvan xanlıqlarına onun özünün adamları hakimlik etsin. O, heç vaxt I Kalbalı xanın övladlarına inanmırdı. Çünki Ağa Məhəmməd Şah Qacar I Kalbalı xanın gözlərini çıxartmışdı. Ondan sonra şahlıq taxtında əyləşən Fətəli şah Naxçıvan xanlığından qisas almaq siyasətini daha da dərinləşdirmişdi. Arabir Kəngərli hərbiçilərə mükafatlar versə də, Naxçıvan kəngərliləri onun siyasətini qəbul etmirdilər. Onlar bunda haqlı idilər. Çünki Naxçıvan

xanlığı xarabazara çevrilmişdi. Necə deyərlər, hərbi poliqonu xatırladırdı. 1821-ci ildən sonra yenə də I Ehsan xan İran ordusunda hərbi xidmətini davam etdirdi. Şahzadə Abbas Mirzənin Naxçıvan kəngərlilərinə qərəzli mövqe tutmasına baxmayaraq o, Avropa ilə mədəni, hərbi əlaqələri genişləndirmək arzusunda idi. İran ordusunu daha da təkmilləşdirmək məqsədi ilə İngiltərədən və Fransadan hərbi mütəxəssislər dəvət etmişdi.

I Ehsan xan İran ordusunda hərbi xidmətdə olarkən onun rəisi fransız hərbiçisi general-mayor (sərtib) Teodor Etye (1797-1846) idi (123, s. 54). O, Naxçıvan və Mərənd batalyonlarını təkmilləşdirirdi, daha doğrusu, yenidən yaradırdı. Arxiv sənədlərini araşdırarkən məlum oldu ki, Teodor Etye Rusiyaya agentlik edirmiş. Rusiya diplomatı V.S.Qriboyedovun seçilmiş əsərlərində onların məktublaşmaları haqda geniş məlumat vardır. V.S.Qriboyedovun və A.Vsevolovskinin T.Etye ilə məktublaşması fransız dilində olub. Sonradan ruscaya çevrilib. Məktubları oxuyanda aydın olur ki, Etyenin rus hərbiçiləri ilə olduqca sıx əlaqəsi var imiş. Yəni Abbas Mirzənin ordusunun məxfi sirlərini Rusiya tərəfə xəbər verirmiş. V.S.Qriboyedov 1821-ci ilin yanvarında ona yazırdı: "Birinci Mərənd və 42-ci Naxçıvan batalyonlarının komandiri cənab Etyeyə. Əziz dost, mənə dostluq xidmətinizi göstərin, bir neçə qələmin ucunu daha zərif çərtin. Sizə sədaqətli olan Qriboyedov". Bu, xüsusi şifrələşdirilmiş məktubdur. V.S.Qriboyedovun Etyeyə yazdığı məktublardan beşi işıq üzü görüb (86, s. 483-484).

Məktublaşma 1824-cü ilədək davam edib. Qeyd edək ki, 1821-1823-cü illərdə İran Türkiyə ilə müharibə aparırdı. I Ehsan xan bu müharibədə cəsurluq etdiyinə görə 1822-ci ildə Fətəli şah ona "Xan" titulu verdi. I Ehsan xanı həm də "Alicah" (yəni uca şənli) titulu ilə təltif etdi (129, s. 18-21). Fransız generalı Etye I Ehsan xanın Rusiyaya meyillənməsi üçün hər cür imkan yaradırdı. Çünki Etyenin özü Qafqaz məsələsinin ən çətin problemlərindən sayılan Naxçıvan və İrəvan xanlıqlarının Rusiya

tərəfindən işğalında maraqlı idi. O, özü bu prosesin fəal iştirakçılarından idi.

I Ehsan xana sərhəng (polkovnik) rütbəsi verildikdən sonra onu Abbasabad qalasındakı qarnizona (qoşun hissəsi) daxil olan Naxçıvan batalyonunun komandiri təyin etdilər (153, s. 127). Əlbəttə, bu işlərin hamısına şahzadə Abbas Mirzə rəhbərlik edirdi. Həmin vaxt Naxçıvan xanlığının xanı Kərim xan idi. Möhkəm iradəsi olmayan Kərim xan gah İrana, gah da Rusiyaya meyil edirdi. Sənədlərin məlumatına görə onun hakimiyyətini hansı tərəf möhkəmləndirəcəksə, onda o, həmin imperiyanı qəbul edəcəkdi.

Bu zaman I Kalbalı xanın oğlanlarının (Şeyxəli bəydən savayı) hamısı İran ordusunun tərkibində Rusiyaya qarşı vuruşurdu. Şeyxəli bəy qardaşı Ehsan kimi iradəli deyildi. Ona görə də tez-tez fikrini dəyişirdi. İki dəfə Rusiya tərəfə, iki dəfə isə İran tərəfə keçmişdi.

Ən maraqlı və mürəkkəb məsələlərdən biri I Ehsan xanın 1826-1828-ci illərdə Abbasabad qalasındakı fəaliyyəti ilə bağlıdır.

I Ehsan xanla bağlı yazılan kitablarda həmişə bu məsələyə müxtəlif cür yanaşmalara rast gəlirik. Həmin illərlə bağlı olan tarixi sənədləri vərəqləyəndə aşkar olur ki, Naxçıvan xanlığı Rusiya və İran qoşunlarının tapdağı altında idi.

Naxçıvan üzərinə hərbi yürüş edən rus qoşunlarının sayı-hesabı yox idi. Əsas qoşun hissələri 1812-ci ildə Rusiya-Fransa müharibəsində döyüşənlər idi. Ən mahir döyüş hissələrindən birinə general-leytenant V.D.İlovayski komandirlik edirdi. Abbasabad və Cavanbulaqda da gedən qanlı döyüşlərin əsl iştirakçısı olan generalın adı ancaq məxfi sənədlərdə sadalanır. Digər mənbələrdə qraf Paskeviçin hünəri önə çəkilir.

Möhkəm silahlanmış Rusiya ordusuna qarşı naxçıvanlılar cəsurluqla döyüşürdülər. Naxçıvan xanlığı müstəqilliyini əldən vermək istəmirdi. Bu illərdə Naxçıvana Kərim xan başçılıq edirdi. I Ehsan xan isə Abbasabad qalasındakı Kəngərli süvarilərinin

komandiri idi (130, s. 426).

Həmin illərə aid sənədlərdə deyilir: "Paskeviç Naxçıvanı əlində möhkəm saxlamaq üçün Naxçıvanın cənub-qərbində Araz çayının sol sahilində olan və Abbas Mirzə tərəfindən ingilis mühəndislərinin göstərişi ilə istehkam sənətinin bütün tələblərinə uyğun bir şəkildə tikilmiş Abbasabad qalasını tutmağa cəhd edirdi" (17, s. 55). Abbasabad qalası ətrafında rus kəşfiyyatçıları fasiləsiz iş aparırdılar. Paskeviçin göstərişi ilə rus diplomatı Qriboyedov Cənubi Azərbaycan xanlarının hər biri ilə təklikdə danışıqlar aparırdı.

Yenə də həmin illərin xronikaları əsl həqiqətlərdən xəbər verir: "Cavanbulaq önündə İran qoşunlarının məğlub olmasına baxmayaraq Abbasabad qalası təslim olmurdu və ağır toplar gətirilməyincə mühasirə nəticə vermədi" (101, s. 75).

Diplomat Qriboyedov belə bir anda hiyləyə əl atdı. Qalada olan I Ehsan xanla diplomatik danışıqlara başladı. Qalanın komendantı Qacarlardan olsa da, hamı I Ehsan xanın orada söz sahibi olduğunu bilirdi. Qalaya silah-sursatın və azuqənin gəlmədiyini görən I Ehsan xan gizli danışıqlara başlayır. Bu haqda olan sənədlərdə xəbər aparıb gətirən erməni Safraz Saakovun adı çəkilir (101, s. 74). Ancaq həmin dövrlərə aid sənədləri diqqətlə öyrəndikdə Qriboyedovun "qələbəsi" asanlıqla baş tutur. Axtarışlar zamanı məlum oldu ki, I Ehsan xanla gizli danışıqların təşəbbüskarlarından və səbəbkarlarından biri də Qriboyedovun tərcüməçisi Abbasqulu ağa Bakıxanov idi. Bu haqda Gültəkin Bakıxanovanın 1984-cü ildə yazdığı «Этюди о Гюдси» kitabındada yazılmışdır: "İran şahı tərəfindən kor edilmiş, Naxçıvan xanının oğlu Ehsan xan Naxçıvanskini rusların tərəfinə keçməkdə Bakıxanov Qribayedova köməklik etdi. O üsyan qaldırdı və Abbasabad qalasının qapılarını ruslara açdı" ( 76, s. 47).

"Santk-Peterburqskiye vedomosti" qəzetinin 18-ci sayında (2 mart 1828-ci il) yazılıb ki, Persiya ilə müharibədə Bakıxanov

Abbasabad qalasının alınmasında göstərdiyi xidmətlərə görə, 1827-ci ilin 14 oktyabrında ştabs-kapitan hərbi rütbəsi ilə təltif edilir. Onun digər mükafatları da vardır. Tale elə gətirir ki, sonralar yerli hakimiyyət-Qafqaz Canişini tərəfindən incidilən I Ehsan xan və A.A.Bakıxanov Polşaya, Paskeviçin hərbi xidmətdə olduğu Varşava şəhərinə gedirlər. Axı, Paskeviç onlara söz vermişdi. İnsafən o, I Ehsan xana həmişəköməklik etmişdir. I Ehsan xanın timsalında hər vaxt Naxçıvan süvarilərinə hörmət və ehtiramla yanaşmışdır.

Naxçıvan xanlığının müstəqil qalması, milli adət-ənənələrimizin qorunması, ən əsası naxçıvanlıların, əsasən kəngərlilərdən ibarət olan əhalinin İranın ucqarlarına köçürülməsinin qarşısını almaq üçün I Ehsan xan hələ də əldə edə bilmədiyimiz şərtlər daxilində rusların tələbi ilə razılaşır. Abbasabad qalasında həmişə Qacarlar tərəfindən ögey münasibətlər görən Kəngərli süvariləri vuruşmaqdan imtina edirlər. Belə halda qalanın komendantı Məhəmmədemin xan ruslara təslim olur və öz əlləri ilə qala qapısının açarlarını Paskeviçin elçilərinə təqdim edir (130, s. 90).

Qalada yaranan çətin və dözülməz şərait komendantı məcbur edir ki, Paskeviçin tələbini qəbul etsin. Çünki Paskeviç yaxşı artilleriya silahları ilə silahlanmış qoşunla qalanı mühasirəyə almışdı. Qalada olan Bəxtiyarı sərbazlar və Məhəmmədemin xan hərbi əsir kimi təslim oldular. Amma Ehsan xan belə təslim olmamış və demişdir ki, mən və batalyonum Rusiya təbəəliyini qəbul edirik. Ehsan xanın başqa yolu yox idi. Çünki Naxçıvan xanlığını xilas etmək lazım idi.

Qeyd etmək yerinə düşər ki, I Ehsan xan ana qohumları olan Qacarların, xüsusən Ağa Məhəmməd şahın onun atası I Kalbalı xanın başına gətirdiyi dəhşəti unuda bilmirdi. Bir oğul kimi intiqam hissi ona rahatlıq vermirdi. I Ehsan xan da atası I Kalbalı xan kimi Rusiya ilə hərbi müttəfiqlik istəyirdi.

I Ehsan xanla bağlı xeyli sənədlər aşkarlanıb və bütün

bunlar hamısı onun çox cəsur, qorxmaz hərbiçi olmasından xəbər verir. Məlumdur ki, Naxçıvanı işğal etdiyinə görə qraf Paskeviç çox yüksək hökumət təltifləri və pul mükafatı alıb. Həmin döyüşlərdə olan Muravyov öz "Xatirələrində" yazır: "Buna görə də bu müvəffəqiyyət (qalanın alınması) rəhbərimizin, (yəni Paskeviçin) məharəti hesabına yazılmamalıdır" (17, s. 56).

1828-ci ilin martında çar I Nikolay ermənilərə verdiyi vədi yerinə yetirdi. İrəvan və Naxçıvan xanlıqlarını ləğv edib "Erməni vilayəti" deyilən qondarma əyalət yaratdı. Arxiv sənədlərini araşdırarkən çar I Nikolayın qraf Paskeviçə göndərdiyi teleqram Türkmənçay müqaviləsindən dərhal sonra yazılmışdı: "Təbrik edirəm! Nəhayət ki, Böyük Ermənistan yaradıldı!" (110). Burada bir maraqlı nüans var. Çar I Nikolay yazmır ki, Böyük Ermənistan bərpa edildi. Yazır ki, yaradıldı. Bu isə ermənilərin Böyük Ermənistan iddialarını təkzib edən faktdır.

Ancaq yeri gəlmişkən qeyd edək ki, 1828-ci ildə Rusiya çarı I Nikolay öz fərmanı ilə qondarma "Erməni vilayəti" yaratsa da, Naxçıvanı erməniləşdirə bilmədi. Buna əsas maneə yaradan I Ehsan xan Kəngərli və onun qorxmaz hünərli süvariləri oldu. Çar I Nikolay ona baş ağrısı gətirən süni "Erməni vilayətini" sonralar ləğv etməyə məcbur oldu.

Azərbaycan xanlarının, o cümlədən İrəvan və Naxçıvan xanlarının da çar Rusiyasının belə hiyləgər, fəndgir diplomatiyasından, əlbəttə ki, xəbərləri yox idi. Çünki azı 200 ildən sonra o sənədlərə baxmaq mümkün oldu. İrəvan əyalətinə rus hərbi məmurları, Naxçıvan əyalətinə isə Kəngərli xanlarından olan I Ehsan xan naib təyin edildi. Çar I Nikolay Kəngərli süvarilərini incik salmamaq üçün 1840-cı ilədək onlara verilən imtiyazları ləğv etməyə tələsmədi. I Ehsan xana 5 oktyabr 1837-ci ildə general-mayor rütbəsi verildi (136). 1839-cu ildə Qafqaz canişini E.A.Qolovinin təzyiqi ilə naiblikdən imtina etdi (123, s. 91). O, Kəngərli süvarilərinin komandiri oldu. Bu vaxtlar ona Kəngərli süvarilərinin yürüş ataman rütbəsi, sonralar isə Za-

qafqaziya müsəlman qoşunlarının atamanı hərbi rütbəsi verildi (110, s. 278). I Ehsan xanın ataman olduğu illərdə xüsusi blanklarda verdiyi əmrlərdən bir neçəsinə rast gəldik. 23 may 1831-ci ildə 2-ci dərəcəli Müqəddəs Anna ordeni ilə təltif edildi və ona ildə 2200 gümüş pul təqaüd təyin edildi (156).

Gürcüstan Milli Tarix Arxivində maraqlı bir sənəd əldə etdik. Həmin sənəd naxçıvanlı Mirzə Kazım Əhməd bəy oğlu ilə bağlı işdir. O, I Ehsan xanın sarayında yüksək vəzifələrdə işləmiş, hətta onunla birlikdə Peterburqa və Varşavaya getmişdir (161).

I Ehsan xan 1841-ci ilin 2 sentyabrında Rusiya imperiyasının paytaxtı Sankt-Peterburqa səfər edib (168). Bu səfər zamanı o, qraf Paskeviçlə görüşmək üçün Varşavaya gedir və bir həftə orada qonaq qalır. (131, s. 158). Sonralar İrana köçən Mirzə Kazım Əhməd bəy oğlu I Ehsan xandan Rusiya konsulluğuna donosçuluq etmişdir. I Ehsan xanın ona gizli yazdığı məktubları ruslara vermiş və onlara demişdir ki, Ordubadın Nürgüt kəndindən olan qaçaqları I Ehsan xan və qardaşı Şeyxəli bəy silahlandırır.

I Ehsan xanın həmin məktublarının hamısında çox mühüm mətləblərdən söhbət açılır. Bu zaman çar Rusiyasında məmurlar tərəfindən məhkəmələrə cəlb edilən Ehsan xan birbaşa naiblikdən imtina edir, hökumətə bu hərəkətilə etirazını bildirir.

Sibirə göndəriləcək Şeyxəli bəyə sürgün xəbərini bir rus əsgəri (kazak) çatdırır. Ona görə Şərur camaatının köməyilə Arazı adlayaraq birdəfəlik İrana keçir. Sənəddə bu, çox geniş və maraqlı təsvir edilir. Bu hadisələr 1844-cü ildə baş vermişdir (169).

Həmin sənəd bir daha göstərir ki, I Ehsan xan Rusiyanın onlara verdiyi vədlərə xilaf çıxdığını görmüş və naiblikdən imtina etmişdir. Bir çox arxiv sənədlərində I Ehsan xandan çox ehtiyatlı olmağı yüksək rütbəli məmurlara tapşırırlar. Çünki çar Rusiyasında olan kəngərlilər I Ehsan xandan başqa heç kimin əmrini yerinə yetirmirdilər. Bu sənədlərin bir qismi 1936-cı ildə

nəşr edilən sənədli monoqrafiyada çap edilib (131). Tapılan sənədləri araşdırarkən bir daha aydın olur ki, I Ehsan xan çar hökumətinin Qafqazda hesablaşdığı sərkərdələrdən biri olmuşdur.

Azərbaycanın hərbi qoşun növlərindən olan Kəngərli süvariləri I Ehsan xanın komandirliyi ilə Rusiyanın 1828-1829-cu illərdə apardığı müharibələrdə çox rəşadətlə vuruşmuşdur. Buna görə Rusiya çarı I Nikolayın 26 oktyabr 1830-cu il tarixli fərmanı ilə həmin süvari qoşun birləşməsinə fəxri bayraq təqdim edilmişdir. Yaşıl ipək üzərində Rusiyanın gerbi və I Nikolayın monoqramı təsvir edilmiş bu bayraq Naxçıvan şəhərində 1920-ci ilədək saxlanılmışdır (123, s. 80).

Tbilisi arxivində I Ehsan xanla bağlı bir sənəd elə Kəngərli süvarilərinə bağışlanmış bu bayraq haqqındadır. Sənəd məxfi şöbəyə aiddir. 23 aprel 1845-ci ildən 13 iyun 1845-ci ilədək I Ehsan xanın bayraq haqqında xahişnaməsinə baxılmışdır. Kəngərlilərin naibi çardan xahiş edir ki, Kəngərlilərin bayrağını saxlanmaq üçün onun evinə gətirilməsinə icazə versin.

Tiflisdən Naxçıvan Qəza İdarəsinə yazılan cavab məktubunda deyilir: "Şəxsən Knyaz Qaqarinə tapşırılsın ki, İrandan gələndə bayrağı həmişəlik saxlamaq üçün təntənəli surətdə Ehsan xana təqdim etsin".

Knyaz Qaqarinə yazılan məktubda I Ehsan xanın nə qədər böyük nüfuza malik olduğu bir daha təsdiqlənir: "Mənim məktubumu və qızılgül rəngli brilyant üzüyü Ehsan xana təqdim edin və ona mənim baş əydiyimi bildirin və bayrağı ona təntənəli təqdim edin" (161). Əlavə bir sənəddə bayrağın rəsmi şəkildə I Ehsan xanın sarayına gətirilməsi, həmçinin I Ehsan xanın təşəkkür məktubu və Naxçıvan Qəza İdarəsinin Gürcü-İmereti qubernatorunun dəftərxanasına göndərdiyi məktub da maraq doğurur (131, s. 97).

1831-ci ildə Naxçıvanın kameral siyahısında I Ehsan xanın həyat yoldaşlarının adı və yaşı da qeyd edilmişdir: 1) Xırda

xanım 40 yaş (ölüb), (doğulduğu tarix təxminən 1789); 2) Xədicə xanım 15 yaş (ölüb), (doğulduğu tarix təxminən 1816); 3) Fatma xanım 30 yaş (boşanıb), (doğulduğu tarix 1801); 4) Telli xanım 18 yaş (boşanıb), (doğulduğu tarix 1813).

Oğlanları: İsmayıl xan 14 yaş; Kalbalı xan 9 yaş; Baba xan 7 yaş (vəfat edib). Qızları: Sonabəyim 18 yaş (ərə gedib). Nökəri Yusif (xaricdədir) 15 yaş; xidmətçi qadın Zeynəb 60 yaş (vəfat edib) (145).

Rusiya hərbi nazirliyinə göndərilən bir məruzədə (19 avqust 1848-ci ildə) I Ehsan xanın qızı Lalabəyimin səkkiz yaşı olduğu qeyd edilir. Onda bu sənəddən məlum olur ki, Lalabəyim 1840-cı ildə anadan olmuşdur. (189). Ona görə də Lalabəyimin adı I Ehsan xanın 26 mart 1838-ci ildəki xidmət kitabçasında yazılmayıb. Şairə Qonçabəyimin isə adı onun övladları sırasında yoxdur.

Tbilisi arxivlərində axtarışlar apararkən I Ehsan xanın daha iki xanımının adına rast gəldik: Bədirnisə xanım və Çimnaz xanım. Çimnaz xanım Naxçıvanın axırıncı hakimi Kərim xanın doğma qızıdır. Əksər tədqiqatçılar Bədirnisə xanımın da atasının Kərim xan olduğunu yazırlar. Buna əsas səbəb Naxçıvanda və Moskvada arxiv sənədlərində I Ehsan xanın nikah kağızında Bədirnisənin atasının Kərim xan olduğu yazılmasıdır. Amma Tbilisi arxivlərində əldə edilən sənədlərdə Bədirnisə xanımın Şükrüllah xanın qızı olduğu qeyd olunmuşdur (159, s. 73). Hətta məxfi sənədlərdə belə göstərilib ki, Kərim xan Şükrüllah xanın dul qalmış qadını Şahcahan xanımı alıb və kiçik qızını qəyyumluğa götürüb ki, mərhumun var-dövlətinə sahib olsun. Bundan əlavə, əlimizdə I Ehsan xanın Kərim xanın İranda yaşayan oğlu Qulaməli xana olduqca maraqlı məktubu var (160). I Ehsan xan özü burada arvadı Bədirnisənin Kərim xanın yox, Şükrüllah xanın qızı olduğunu yazır. Hətta izah edir ki, yanımda yaşamış, qayınanam Şahcahan xanım bütün mülk və varidatını qızı Bədirnisəyə yazılı olaraq miras qoyub.

I Ehsan xan 1846-cı ildə çox sevdiyi Naxçıvan şəhərində

vəfat edib. Onun vəfatının ay tarixləri müxtəlifdir. Tbilisi arxivindən əldə etdiyimiz sənəddə yanvarın 11-dən 12-nə keçən gecə, rəsmi hərbi sənəddə isə fevralın 26-da vəfat etdiyi bildirilir (171). Naxçıvan MR Dövlət Arxivində isə oğlu İsmayıl xanın ərizəsində tamam başqa tarix göstərilir. Ancaq ən çox doğru olan "Ehsan xan Kəngərlinin ölümü haqqında hərbi məlumat üzrə rəsmi bildirişdir". Bu, hərbi nazirin Sankt-Peterburqda imzaladığı əmrdir. I Ehsan xanı naxçıvanlılar layiqincə son mənzilə yola salıblar. Onu İmamzadənin yanındakı ailə sərdabəsində dəfn ediblər.

Rusiya hökuməti bu igid, sözündən dönməz sərkərdənin timsalında Qafqazın müsəlman elitasının hərbi xidmətə çağırılmasının əsasını qoyub (123, s. 97).

Baxışlar müxtəlif olsa da, andiçmə sənədinin tarixi əhəmiyyəti böyükdür. Bu sənəd imkan vermədi ki, Naxçıvan qoşun tapdaqları altında dağıdılsın. Cənubi Azərbaycan xanlıqlarını müharibələrdən xilas etdi. Rusiya dövlətinə isə Qafqaza sahib olmaqda və digər dövlətlərlə apardığı müharibələrdə uğur qazanmağa imkan yaratdı. Bunu çoxsaylı rus mənbələri də təsdiq edir. Naxçıvan xanlığı Qafqazda yaradılan qüdrətli, nüfuzlu yerli dövlət idi. Onu idarə edən Kəngərli xanları öz dövrünün görkəmli hərbi, siyasi və diplomatik xadimləri olmuşlar. Kəngərlilərin nəsil şəcərəsinə əsaslanaraq demək olar ki, dövlətçilik onlarda nəsli xarakter daşımışdır.

Naxçıvan xanlığının keçdiyi hərbi-siyasi və tarixi yolun araşdırılması Azərbaycan ərazisindəki digər xanlıqların tarixinin, eyni zamanda o dövrdə Qafqazda baş vermiş sosial-siyasi hadisələrin öyrənilməsində mühüm əhəmiyyət kəsb edir. Bunun nəticəsində elmə məlum olmayan bir sıra sənədlər aşkar edilmiş, geniş elmi müqayisələr aparılmışdır.

# NƏTİCƏ

Dissertasiya işinin xronoloji çərçivəsi əsasən Naxçıvan xanlığının XVIII əsrin birinci yarısının sonları -XIX əsrin birinci rübünü, yəni 1747-1828-ci illəri əhatə edir. Çoxlu sayda arxiv sənədlərini, nəşr edilmiş monoqrafiyaların və qraf Paşkeviçin Naxçıvana yürüşü zamanı tərtib etdirdiyi hərbi xəritələrin köməyilə Naxçıvan xanlığının 1747-1797 və 1798-1828-ci illər üçün xəritəsi hazırlanmışdır. Apardığımız araşdırmalar göstərdi ki, Azərbaycanın qərbində yerləşən Naxçıvan xanlığının ərazisi 1747-1797-ci illərdə 9428,7 km$^2$, 1798-1828-ci illərdə isə 4642,83 km$^2$ olmuşdur.

XVIII əsrin birinci yarısında yaranan Naxçıvan sancağı inzibati cəhətdən mahallara bölünmüşdü. Belə bölgü 1747-1828-ci illərdə də mövcud olmuşdur. Ancaq 1798-1828-ci illərdə xanlığın bölgüsündə aparılan dəyişiklik isə əsasən mahalların iki tüməndə - Naxçıvan və Ordubad tümənlərində yaradılması və 9 mahalın o tümənlərə birləşdirilməsi olmuşdur.

Naxçıvan tüməninin tərkibinə 4 mahal-Naxçıvan, Əlincə, Xok və Dərələyəz mahalları, Ordubad tüməninin tərkibinə isə 5 mahal-Ordubad, Əylis, Dəstə, Çənnəb və Biləv mahalları birləşdirilmişdir. Bu mahallar kəndlərə bölünürdü. Mahalları mahal bəyləri, kəndləri isə kəndxudalar və onların köməkçiləri idarə edirdi.

